**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# “Müstəqilliyin 30 illiyi: Tarixşünaslıq və mənbəşünaslıq elminin uğurları və perspektivləri” mövzusunda

**Respublika elmi konfransı**

**17-19 noyabr 2021-ci il**

**Bakı - 2021**

**Təşkilat komitəsi:**

| | |
|---|---|
| Sədr: | Anar İsgəndərov<br>Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, professor |
| Sədr müavini: | İbrahim Zeynalov Azərbaycan tarixi humanitar fakültələr üzrə) kafedrasının professoru |

**Üzvlər:**

| | |
|---|---|
| Hüseyn Məmmədov | Bakı Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru |
| Kəmalə Nəcəfova | Tarix fakültəsinin Elmi işlər üzrə dekan müavini |
| Elşən Aslanov | Tarix fakültəsinin Tədris işləri üzrə dekan müavini |
| Kəmalə Məmmədova | Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının böyük laborantı |
| Ulduz Paşayeva | Dünya azərbaycanlıları: tarixi demoqrafiya ETL-nin böyük elmi işçisi |
| Səidə Əli qızı | Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, t.ü.f.d. |
| Sevinc Qasımova | Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, t.ü.f.d. |
| Mətanət Məmmədova | Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, t.ü.f.d. |
| Aydın Məmmədov | Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, t.ü.f.d. |
| Samir İsmayılov | Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, t.ü.f.d. |
| Nurlan Abbasov | Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, t.ü.f.d. |

**Proqram komitəsi:**

| | |
|---|---|
| **Sədr:** | Sevinc Qasımova<br>Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, t.ü.f.d. |
| **Sədr müavini:** | Mətanət Məmmədova<br>Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, t.ü.f.d. |
| **Üzvlər:** | |
| Yaqub Mahmudov | Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, akademik |
| Əsməd Muxtarova | Tarix fakültəsinin Türk xalqları tarixi kafedrasının müdiri, professor |
| Azad Rzayev | Tarix fakültəsinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müdiri, dos., t.ü.f.d. |
| Elmira Hüseynova | Tarix fakültəsinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının müdir əvəzi, dosent |
| İqbal Ağayev | Tarix fakültəsinin Asiya və Afrika ölkələri tarixi kafedrasının müdiri, dosent |
| Kərəm Məmmədov | Tarix fakültəsinin Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, dosent |
| İradə Hüseynova | Tarix fakültəsinin Qafqaz xalqları tarixi kafedrasının müdiri, professor |
| Mehman Abdullayev | Tarix fakültəsinin Azərbaycan tarixi kafedrasının müdiri (təbiət fakültələri üzrə) |
| Bəymirzə Şəbiyev | Tarix fakültəsinin Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının dosenti, t.ü.f.d. |
| Hicran Mahmudova | Tarix fakültəsinin Arxeologiya və etnoqrafiya kafedrasının müəllimi, t.ü.f.d. |
| Zəhra İslamova | Tarix fakültəsinin Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müəllimi, t.ü.f.d. |
| Rövşən Hətəmov | Tarix fakültəsinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dosenti, t.ü.f.d. |
| Zərifə Nəzirli | Tarix fakültəsinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının müəllimi |

| | |
|---|---|
| Səidə Quliyeva | Dünya azərbaycanlıları: tarixi demoqrafiya ETL-nin böyük elmi işçisi |
| Sənubər İsmayılova | Tarix fakültəsinin Türk xalqları tarixi kafedrasının dosenti, t.ü.f.d. |
| Elvira Lətifova | Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının dosenti, t.ü.f.d. |
| Sayad Mehdizadə | Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müəllimi, t.ü.f.d. |

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN "MƏNBƏŞÜNASLIQ, TARİXŞÜNASLIQ VƏ METODİKA" KAFEDRASININ YARANMASI VƏ FƏALİYYƏTİ

**Səidə Əli Qızı**
**Bakı Dövlət Universitetinin dosenti**
**E-mail: Saida_alikizi@ mail.ru**

***Açar sözlər:*** *universitet, mənbəşünaslıq, yaranma, fənn, tədris, bakalavr, magistr, doktorantura, nailiyyət*

***Key words:*** *university, source studies, origin, subject, teaching, bachelor, master, doctorate, achievement*

Məlum olduğu kimi, Azərbaycanda tarix elminin təşəkkülü Abbasqulu ağa Bakıxanovun adı ilə bağlıdır. Onun öz dövrünə görə zəngin sayıla biləcək sayda müxtəlif növlü və müxtəlif dilli tarixi mənbələr əsasında yazdığı "Gülüstan-i Irəm" əsəri həm bir tarixi əsər, həm tarixşünaslıq abidəsi və həm də tarixi mənbə kimi öz əhəmiyyətini bu gün də saxlamaqdadır. Sonrakı illərdə də yerli tarixçilərimiz tarixi mənbələr əsasında qiymətli tarixi əsərlər yazmışlar.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə - 1919-cu ildə Bakı Dövlət Unuversiteti təsis edilərkən onun ilk fəaliyyətə başlayan iki fakültəsindən biri tarix-filologiya fakültəsi idi. Sovet hakimiyyəti illərində tarix fakültəsi dəfələrlə müxtəlif struktur dəyişikliklərə uğrasa da, burada heç zaman xalqımızın tarixinə aid olan mənbələrin öyrənilməsi və öyrədilməsi ilə məşğul olan müstəqil bir qurum yaradılmamışdir. Mərkəzdən göndərilən tədris planlarına müvafiq olaraq "SSRİ tarixinin mənbəşünaslığı", həmçinin "SSRİ tarixinin tarixşünaslığı" fənləri tədris olunurdu.

Tarixi müqayisə üçün qeyd edək ki, M.V.Lomonosov adına Moskva Dövlət Universiteti 1755-ci il yanvarın 25-də ( çariça Elizaveta Petrovnanın 12 yanvar 1755-ci il layihəsi əsasında) açılarkən tarix kafedrası da yaradılmışdı və onun fəaliyyəti 3 sahəni - universal tarixi, Rusiyanın qədim tarixini və heraldikanı əhatə etməli idi. 1804-cü ildə MDU-da ümumi tarix kafedrası və "Qədim Risiyanın tarixini öyrənən cəmiyyət" yaradılmışdı. 1850-ci ildə Moskva universitetində tarix-filologiya fakültəsi fəaliyyətə başlamış, 1872-ci ildə onun tarix şöbəsi açılmışdı. Sovet hakimiyyəti illərində - 1919-cu ildə həmin tarix şöbəsinin və hüquq fakültəsinin bazasında İctiimai elmlər fakültəsi yaradılır. 1931-ci ildə yaradılan tarix-fəlsəfə fakültəsinin bazasında az sonra Moskva Fəlsəfə, Ədəbiyyat və Tarix institutu təşkil olunur.

XX əsrin 30-cu illəri sovet tarix elminin inkişafında yeni mərhələ hesab olunur. SSRİ Xalq Komissarları Sovetinin və ÜİK(b) Partiyası MK-nın 16 may 1934-cü il qərarı ilə SSRİ məktəblərində tarixin tədrisi qeyri-qənaətbəxş hesab edilərək, təçili tədbirlərin görülməsi qərara alınır. Tarix ixtisası üzrə yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanması məqsədilə Moskva və Leninqrad universitetlərində 1934-cü il sentyabrın 1-dən tarix fakültələri fəaliyyətə başlamış, lakin bu illərdə nə mənbəşünaslıq, nə də tarixşünaslıq üzrə bir mərkəz və ya şöbə olmamışdir.

Sovetlər ölkəsində ilk mənbəşünaslıq kafedrası Moskva Dövlət Universitetinin tarix fakültəsində 1952-ci ildə görkəmli tarixçi M.N.Tixomirovun təşəbbüsü ilə yaradılmışdır. Bu kafedranın təşkili tarixçi kadrların hazılanmasında mühüm şərtlərdən biri kimi tarixə aidiyyatı olan ixtisas fənlərinin öyrənilməsində və tədrisində yeni mərhələ idi.

Bakı Dövlət Universitetində uzun illər ərzində müstəqil tarix fakültəsinin fəaliyyət göstərməsinə baxmayaraq, onun mənbəşünaslıq və tarixşünaslıq kafedraları olmamışdır. Bu fənlərin hər ikisi köməkçi tarix fənləri kimi SSRİ tarixi kafedrası tərəfindən "SSRİ tarixinin mənbəşünaslığı ", "SSRİ tarixinin tarixşünaslığı" adı və məzmunu ilə tədris olunmuşdur. 1980-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin qərarı ilə BDU-da "Mənbəşünaslıq, tarixşünaslıq və köməkçi tarix fənləri" kafedrasının yaradılmasına baxmayaraq, burada yenə də əvvəlki kimi "SSRİ tarixinin mənbəşünaslığı ", "SSRİ

tarixinin tarixşünaslığı” fənlərinin tədrisi davam etdirilmişdir. Kafedraya 1980-1991-ci illərdə prof. M.M.Mirhadıyev rəhbərlik etmişdir.

1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etdikdən sonra vətənimizin tarixinin öyrənilməsində yeni mərhələ başlanır. Bu vaxta qədər tarix elmimizə və tarixə baxışımıza qoyulan qadağalar, ideoloji stereotiplər aradan qalxır. 70 il ərzində təhrif olunmuş tariximizin obyektiv şəkildə öyrənilməsi zərurəti gündəmə gəlir. Bu dəyişikliklər keçmişə aid olan tarixi mənbələrin də yenidən və qərəzsiz şəkildə, obyektiv öyrənilməsini tələb edir. Zamanın tələblərinə uyğun olaraq Mənbəşünaslıq və tarixşünaslıq kafedrası Azərbaycan tarixinin mənbəşünaslığı və tarixşünaslığının tədrisini həyata keçirməyə başlayır. Hal-hazırda kafedra respublikada Azərbaycan tarixinin mənbəşünaslığı, tarixşünaslığı və tarixin tədrisinin metodikası üzrə aparıcı elm və tədris mərkəzidir. 41 ildir fəaliyyət göstərən kafedraya 1999-cu ildən etibarən professor Anar Camal oğlu İsgəndərov rəhbərlik edir. Anar İsgəndərov həm respublikamızda, həm də onun hüdudlarından kənarda sovet dövründə Azərbaycan tarixinin ən çox təhriflərə məruz qalmış problemlərindən birinin - 1918-ci il mart soyqırımının və onun tarixşünaslığının ən böyük tədqiqatçılarından biri kimi tanınır. O, bu mövzu ilə bağlı 8 monoqrafiyanın və 300-dən çox məqalənin müəllifidir. A.İsgəndərovun bu sahədə yaratdığı elmi məktəbin çoxsayli yetirmələri həm Bakı Dövlət universitetində, həm də respublikanın digər ali məktəblərində uğurla çalışırlar.

Kafedra əməkdaşlarının elmi-tədqiqat işləri əsasən XIX-XX əsrlər tarixinin tədqiqinə həsr olunmuşdur. Onlar tarix elminin bu dövrə aid olan aktual problemlərinə həsr olunmuş əsərlər, məqalələr nəşr etdirir, beynəlxalq və respublika miqyasında elmi konfranslarda və simpoziumlarda iştirak edirlər.

41 illik fəaliyyəti dövründə kafedra çox böyük uğurlara imza atmışdır.Tədris olunan fənlərə dair dərsliklərin, dərs vəsaitlərinin, tədris proqramlarının, elmi monoqrafiyalarin, yüzlərlə məqalələrin, beynəlxalq və respublika miqyaslı konfranslarda və simpoziumlarda əməkdaşlarımızın çıxışları, həmçinin kafedrada doktorantura yolu ilə hazırlanmış tarix üzrə çoxsaylı fəlsəfə doktorları kafedranın elmi-pedaqoji potensialının və əldə etdiyi nailiyyətlərin göstəricisidir. Gələcək üçün yol xəritəmiz - kafedra müdirimiz A.İsgəndərovun rəhbərliyi altında əldə etdiyimiz nailiyyətlərin sayını ilbəil artırmaqdır.

## HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSUDUR

**İradə Hüseynova**
**tarix elmləri doktoru, professor,**
**Bakı Dövlət Universitetinin Qafqaz xalqları tarixi kafedrasının müdiri,**
**Azərbaycan Respublikasının Əməkdar müəllimi**
**e-mail: prof.irada.huseynova@gmail.com**

***Açar sözlər:*** *Ümumilli lider, müstəqillik, respublika, inkişaf, demokratiya*
***Key words:*** *National leader, independence, republic, development, democracy*

Azərbaycan tarixinin XX əsrin son otuz ili və XXI əsrin əvvəlləri müdrik dövlət xadimi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dövlətçiliyinin müasir tarixinə öz adını əbədi həkk etmiş bu nadir tarixi şəxsiyyətin, fenomenal siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir. Heydər Əliyevin siyasi və dövlət fəaliyyətinin ən böyük nəticəsi quruculuğuna biləvasitə rəhbərlik etdiyi və xalqımıza bəxş etdiyi mükəmməl milli dövlət, müstəqil Azərbaycan Respublikası hesab olunur.

Tarixi faktdır ki, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da çətin və müşkül məsələdir. Azərbaycan bir əsrdə iki dəfə müstəqilliyi əldə etməyə müvəffəq oldu. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, Azərbaycan üçün tarixi əhəmiyyətli qərarlar qəbul etdi. Lakin xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması müstəqil dövlətimizin mövcudluğuna son qoydu. 70 il sonra xalqımız ikinci tarixi şansı qazandı və öz milli müstəqilliyini bərpa etmək imkanına sahib oldu. XX əsrin sonunda Sovetlər İttifaqının süquta uğraması, ölkədə milli azadlıq hərəkatının geniş vüsət alması yenidən müstəqilliyimizi, azadlığımızı əldə etməyə şərait yaratdı. Qeyd etmək lazımdır ki, hər bir xalqın milli azadlığa və dövlət müstəqilliyinə qovuşması üçün üç mühüm şərt-tarixi şans, milli iradə və liderə malik olması vacibdir.

Sovetlər Birliyinin süquta uğraması XX əsrin sonunda milli müstəqilliyə qovuşmuş Azərbaycan xalqı üçün tarixi bir imkan yaratdı. Respublikamızda vaxtilə ümumilli lider Heydər Əliyevin böyük səyi və gərgin fəaliyyəti ilə yaradılmış və gələcək siyasi, iqtisadi və mədəni müstəqillik üçün formalaşdırılmış güclü infrastrukturun mövcudluğu və əhalidə formalaşmış müstəqil dövlətçilik əzmi milli azadlığı şərtləndirən iki mühüm amil oldu. Müstəqilliyin əldə olunmasının, demokratik Azərbaycan dövlətinin qurulmasının, möhkəmləndirilməsinin digər mühüm şərti isə tarixi şəxsiyyət olan ümumilli lider Heydər Əliyev fenomeninin varlığı idi.

18 Oktyabr 1991-ci ildə Azərbaycan müstəqillik qazandıqdan sonra ölkə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə getməyə, dünya ölkələrinə inteqrasiya olunmağa, qloballaşma prosesində fəal iştirak etməyə başladı. Azərbaycanda müstəqil dövlət quruculuğunun qarşısında duran vəzifələr - müstəqilliyin daha da möhkəmləndirilməsi, təhlükəsizliyin, ərazi bütövlüyünün, iqtisadi maraqların təmin olunması və s. məsələlər özünəməxsus xüsusiyyətlərlə fərqlənən çoxvektorlu xarici siyasət yeridilməsini tələb edirdi. Qeyd etdiyimiz kimi, əldə olunan müstəqilliyi qoruyub saxlamaq dövlətçiliyin mövcudluğu üçün ən vacib amillərdən biridir. Və bunu 1993-cü ilin iyununda ölkəmizdə gedən proseslər əyani surətdə təsdiq etdi. Həmin vaxtda Azərbaycanda ictimai-siyasi böhran yaranmışdı, hakimiyyət iflic vəziyyətdə idi. Respublika idarə olunmurdu, parçalanma və məhvolma qarşısında idi. Belə bir vəziyyətdə Heydər Əliyevin hakimiyyətə qayıdışı bütün bu təhlükəli proseslərin qarşısını aldı. Ümumilli lider Heydər Əliyevin ən böyük xidməti ondan ibarətdir ki, o, Azərbaycan dövlətçiliyini qoruyub saxladı. Dövlətçiliyimizin qorunub saxlanılması isə müstəqilliyimizin, azadlığımızın, suverenliyimizin möhkəmləndirilməsi deməkdir.

1993-cü ildə ümummilli lider Heydər Əliyev xalqın təkidi ilə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gəldikdən sonra dövlətimizin bütün sahələrində əsaslı islahatlara qədəm qoyuldu və inkişafın əhəmiyyətli faktorlarından biri - daxili ictimai-siyasi sabitlik bərqərar oldu. Ölkədə müstəqilliyin daha da möhkəmləndirilməsi üçün bütövlükdə düşünülmüş siyasətin yeridilməsinə başlanıldı.

Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qorunması və möhkəmləndirilməsi uğrunda mübarizəsi strateji məqsəd daşıyırdı. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra beynəlxalq birliyin tamhüquqlu üzvü kimi ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün dönməz inkişaf yolu olaraq seçmişdir.

Ümummilli liderimizin çoxşaxəli fəaliyyəti, düşünülmüş daxili və xarici siyasəti bu gün onun siyasi varisi, Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi və davamçısı - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin əsaslarının möhkəmlənməsi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz İlham Əliyevin varislik keyfiyyətləri, müdrikliyi, siyasi iradəsi və uzaqgörənliyi, ümumilikdə, rasional davranış modeli sayəsində mümkün olmuşdur. Heydər Əliyevin strateji xəttinin İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan

hazırda dinamik inkişaf edən ölkəyə çevrilmiş, beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi dünya siyasətində özünü təsdiqləmişdir. Ölkə Prezidenti İlham Əliyevin elmi cəhətdən əsaslandırılmış inkişaf strategiyası nəticəsində Azərbaycan Cənubi Qafqaz regionunun sürətli inkişafa malik güclü dövlətinə çevrilmiş, ərazi bütövlüyünü hərbi və diplomatik yolla bərpa etmişdir.

Bütün həyatını vətəninə, xalqına bəxş edən ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyev xalqın ona göstərdiyi inam və etibara söykənərək, Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə, gücləndirilməsinə, xalqımızın xoşbəxt, firəvan yaşamasına bütün varlığı ilə xidmət göstərir.

## TÜRK TƏSƏVVÜF ƏDƏBIYYATI YUNUS ƏMRƏ ŞEIRLƏRINDƏ

**Yeganə İsmayılova**
**Bakı Dövlət Universiteti, Filologiya fakültəsi, Prof.**
**yegane-n@mail.ru**

***Açar sözlər:*** *təsəvvüf, türk, ədəbiyyat, Tanrı, vəhdəti-vücud*
***Key Words****: Turkish Tasavvuf, iterature, God, way of unity with*

Türklər dünya ədəbiyyatına misilsiz bədii-fəlsəfi şedevrlər verən dahilər bəxş etmişlər. Nizami, Yasəvi, Rumi, Y.Əmrə, Nəsimi, Nəvai, Füzuli... Bu gün də dünya alimləri Əbu Reyhan Birununun, İbn Sinanın, Bəhmənyarın, Nəsirəddin Tusinin və b. türk təfəkkürünün sehrini və qüdrətini açmağa çalışırlar.

Təsəvvüfdə “eşq” ən vacib məsələdir. Təsəvvüfdə “eşq” Allaha olan məhəbbət, “aşiq” Allahı sevən, “məşuq” isə Allahın özü hesab olunur. Təsəvvüfdə “eşq” insanı kamala çatdıran nemət hesab olunur. Allaha qorxu ilə yox, eşq ilə qovuşmağın mümkünlüyü göstərilir. Təsəvvüf tanrıya çatma cəhdidir. Bu cəhd zamanı insan pis əməl və fikirlərdən çəkinməli, Tanrıdan savayı hər bir şeylə əlaqəni kəsməlidir. Divan ədəbiyyatında təsəvvüflə bağlı yaranan əsərlərə Füzulinin poemaları, lirikası, “Həqiqətüs-süəda”sı, Nəsimi poeziyası, Yunis Əmrənin şeirlərini göstərmək olar.

Təsəvvüf uzun və zəngin bir tarixə malikdır. Görkəmli şəxsiyyətlərimiz tərəfindən mədəniyyət dünyasının nadir inciləri hesab edilən əsərlər yaradılmışdır. Bununla yanaşı, təsəvvüfün elə nümayəndələri də vardır ki, bir növ təsəvvüfün simvoluna çevrilmişlər, yəni təsəvvüf deyəndə ilk olaraq onlar yada düşür. Belə şəxslərdən biri də Y.Əmrədir. Təsəvvüf Tanrı ilə birləşməni nəzərdə tutan vəhdəti-vücud yoludur.

Yunus Əmrə ərəbcənin, farscanın hakim olduğu bir zamanda Türkcə yazmağı seçmiş, Türkcə yazmağa üstünlük vermiş bir şairdir. Yunis Əmrə Türkcə yazmaqdan qürur duyaraq şeirlər yazmışdır. Bu bir qəhrəmanlıqdır və onun işlətdiyi çox təmiz bir dildir və o qədər sadədir ki, bu gün hər kəs Y.Əmrəni rahat anlayır. O, sadə Türkcəyə, təmiz Türkcəyə İslamın mesajlarını- bəşəri mesajları çox gözəl yerləşdirmiş, insanları sıxmadan, üzmədən əyləndirərək, hətta onlara İslamı, İslamın əsasını öyrətmişdir. Y.Əmrə sevgi ilə bütün dünyanı qucaqlayır: “Sevəlim, sevilələim, dünya kimsəyə qalmaz”- deyir.

Yunus Əmrənin Türkiyədə on və ya daha çox, Azərbaycanda isə bir yerdə qəbrinin olması faktını nəzərə alsaq, Şeyx Əhməd Yəsəvi, Şəms Təbrizi, Cəlaləddin Rumi, Yunis Əmrə, ondan sonra İmadəddin Nəsiminin şəxsində təsəvvüf ədəbiyyatının Orta Asiyadan başlayaraq Azərbaycan və Ön Asiya boyunca yayılması qənaətinə gəlmiş olarıq. Görkəmli ədəbiyyatşünas prof. dr. Rəhim Əliyev demişkən: "Beləliklə, sufilərin yaratdığı ədəbiyyat, xüsusilə, poeziya ... türk xalqları üçün islam mədəniyyətinə əsaslanan ... ədəbi ənənələrin yaranmasında ... misilsiz tarixi rol oynamışdır... Çox dinamik həyat tərzi keçirən, daim hərəkətdə olan sufi qardaşlıqları və onun görkəmli

nümayəndələri bütün Şərqdəki mədəni mərkəzləri gəzib dolanmaqla müxtəlif mədəniyyətlərin təsirinə məruz qalır və nəticədə, bu yolla islam mədəniyyətinə də yeni baxışlar, ideyalar, ayin və ehkamlar gətirirdilər”. Yunus Əmrənin əsərləri ilə tanış olduqca ümumtürk, o cümlədən Azərbaycan ədəbiyyatını daha da dərindən mənimsəmək üçün müqayisə və paralellər aparmağın zəruri olduğunu nəzərə alaraq məqalədə bunlara diqqət çəkiləcəkdir.

## BİR DAHA İKİNCİ QARABAĞ MÜHARİBƏSİ HAQQINDA

**Baxşəliyev Fazil Eynulla oğlu**
**Bakı Dövlət Universitetinin professoru, tarix elmləri doktoru**
**bfazil4444@mail.ru**

***Açar sözlər:*** *Qarabağ, müharibə, Rusiya, sülhməramlı, ərazi*
***Key words:*** *Karabakh, war, Russia, peacekeeping, territory*

2020-ci ildə ikinci Qarabağ müharibəsi həm münaqişənin birbaşa iştirakçıları, həm də maraqlı xarici oyunçular üçün gözlənilməz oldu. 2016-cı ilin aprelində 4 günlük müharibədən dərhal sonra, elə həmin ilin mayında ATƏT-in Minsk Qrupunun Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə Vyana görüşündə vasitəçilər tərəfindən Qarabağ münaqişəsi zonasında qüvvələrin təmas xəttində atəşkəsin pozulması faktlarının vaxtında aşkar edilməsi məqsədilə texniki monitorinqin təşkili təklif edildi. Lakin Ermənistan və Qarabağın erməni icması bu təşəbbüsü dəstəkləsə də, Azərbaycan o zaman bu təklifdən imtina etdi.

ABŞ-ın ATƏT-in Minsk Qrupundakı keçmiş nümayəndəsi Riçard Hoqlandın 2020-ci ildə ikinci Qarabağ müharibəsi başlamazdan bir müddət əvvəl səsləndirdiyi fikirlər - Dağlıq Qarabağ üzərində BMT-nin mandat idarəçiliyinin tətbiqinin məqsədəuyğunluğu beynəlxalq hüquqnormalarına zidd idi.

Həmsədr ölkələrin bu cür diplomatiyası bir tərəfdən Rusiyanın, digər tərəfdən ABŞ və Fransanın regional maraqları arasındakı ziddiyyətlərlə bağlı idi. Əks halda, 2016-cı ilin mayında Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin Vyanadan sonra Sankt-Peterburq görüşü Qarabağdakı monitorinq mərkəzi ilə bağlı qərarı şifahi diskursa çevirməzdi.

İkinci Qarabağ müharibəsinin nəticələri 1990-cı illərin əvvəllərində mövcud olan vəziyyəti tam dəyişdi. Cənubi Qafqazda rus diplomatiyasının və hərbi doktrinasının zəifliyi nəticəsində Türkiyənin regionda rolu güclənmişdi. Rusiyanın Zaqafqaziyadakı təsirinin real həddi məhdudlaşdı, ABŞ və Aİ ölkələrinin postsovet məkanının bu hissəsində real marağının dərəcəsi özünü göstərdrdi.

9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın imzalanmasından sonra bəzi rusiyalı ekspertlər və siyasətçilər bildirdilər ki, İkinci Qarabağ Müharibəsində əsas qalib Rusiya, onun sülhməramlıları daxil olub. Lakin zaman Rusiyanın bu cür “uğur”unun həddən artıq səthi, yanlış qavranıldığını göstərdi. Çünki Rusiya sülhməramlıları Azərbaycan tərəfdən orada qalmalarını rəsmiləşdirən hüquqi status almayıblar, Eyni zamanda qüvvələrin təmas zonasında Ermənistan tərəfdən müxtəlif formalarda mütəmadi təxribatlar baş verir. Ona görə də Rusiya sülhməramlılarının Qarabağda olması şərtidir, qeyri-sabitdir və müvəqqətidir.

# XX ƏSRİN İKİNCİ YARISI AZƏRBAYCAN TARİXÇİLƏRİNİN İBTİDAİ CƏMİYYƏTƏ DAİR TƏDQİQAT ƏSƏRLƏRİNDƏ TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

**Aydın Məmmədov**
**BDU-nun Tarix fakültəsi, Mənbəşünaslıq, Tarixşünaslıq və metodika kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru**
**E-mail: aydin.mmmdov.67@ mail.ru**

***Açar sözlər**:ibtidai cəmiyyət, Qarabağ silsiləsi, arxeoloq*
***Key words**: primitive society, Karabakh chain, archeologist*

Azərbaycan tarixinin ən dərin kökləri ibtidai cəmiyyətə, daş dövrünə gedib çıxır. Əlverişli iqlimə, rəngarəng relyefə, təbii-coğrafi amillərə malik olan doğma Azərbaycanımızda ulu əcdadlarımızın hələ alt paleolit dövründən üzü bəri məskunlaşması üçün hər cür şərait olmuşdur. İbtidai icma dövrü bəşər tarixinin ən uzun sürən mərhələsidir. Məhz bu səbəbdəndir ki, bu dövr, onun xüsusiyyətləri dünyanın, o cümlədən Azərbaycanın bir çox tarixçiləri tərəfindən uzun illərdir ki, böyük bir maraqla araşdırılır. Sözügedən dövrdə əhalinin məskunlaşması, təbii və mexaniki artımı, ümumiyyətlə, nəsil artımına təsir edən obyektiv, subyektiv amillər hər zaman tarixi demoqrafiyanı araşdıran alimlərin diqqətini cəlb etmişdir.

Hələ 1,5 milyon il əvvəl Qarabağ silsiləsinin cənub-şərq ətəklərində yerləşən Quruçay və Köndələnçayın vadiləri artıq əcdadlarımız tərəfindən məskunlaşdırılmışdır. Belə ki, bu yerlər istər məskunlaşma, istər nəsil artımı, istərsə də əmək alətlərinin hazırlanması üçün lazım olan materialların əldə olunması baxımından son dərəcə böyük imkanlara malik idi.

Azərbaycanın məşhur tarixçi və arxeoloqu Məmmədəli Hüseynovun 1973-cü ildə nəşr olunmuş “Uzaq daş dövrü”, “Azərbaycan arxeologiyası (daş dövrü)”, “Azərbaycanın qədim paleolit dövrü”, “Azərbaycanda paleolit” adlı əsərlərində geniş şəkildə işıqlandırılmışdır: “Paleolit ekspedisiyası Daşsalahlı, Damcılı, Azıx və Tağlar mağara düşərgələrini qazıb tədqiq etmişdir”.

Ə.Cəfərovun 1989-cu ildə “Azərbaycan abidələri” adlı elmi məqalələr toplusunda” dərc etdirdiyi “Azərbaycan qədim insan məskənidir” adlı məqaləsində Vətənimizin ən qədim dövrlərdən məskunlaşmaya məruz qalmasını konkret elmi faktlarla əsaslandıra bilmişdir: “Aparılan elmi tədqiqatlar göstərir ki, ibtidai insanlar burada 1,2 milyon il bundan əvvəl məskən salmış, 120 min il əvvəl isə mağaranı tərk etmiş, yenidən, 20 min keçdikdən sonra mağaraya qayıtmış və burada daha 50 min il yaşayış olmuşdur”.

Teymur Bünyadovun 1960-cı ildə nəşr olunan “Azərbaycan arxeologiyası oçerkləri” adlı kitabında ibtidai icma dövründə mövcud olan məskunlaşma, nəsil artımı və digər tarixi demoqrafiya məsələlərinə geniş diqqət ayırmışdır: “İbtidai insanlar təbii şəraitdən çox asılı olmuşlar. Odur ki, onlar özləri üçün əlverişli yerlərdə məskən salmışlar. Bu ondan irəli gəlir ki, ibtidai insanların əmək alətləri və silahları çox sadə, təbiətə qarşı mübarizələri isə, sonrakı dövrlərə nisbətən xeyli zəif olmuşdur”.

Vəli Əliyevin 1975-ci ildə nəşr olunan “Tarixin izləri ilə” adlı kitabında belə bir fikir vurğulanır: “...Kültəpə qədim yaşayış yeri öz möhtəşəmliyi ilə bir çox görkəmli tədqiqatçıların diqqətini cəlb etmişdir”. İbtidai insanların əsasən nəsil artımı ilə bağlı tarixi demoqrafik inaclarinin qədim izləri ilə bağlı V.Əliyevin “Gəmiqaya abidələri” adlı əsəri diqqəti cəlb edir: “Heyvanın buynuzlarının bu şəkildə verilməsi təsadüfi olmayıb, müəyyəninamla baglı semantik məzmun kəsb edir. Çox ehtimal ki, qədim Naxçıvan tayfalarının əsas inamlarından olan günəşə sitayişlə bağlıdır”.

Osman Həbibullayevin XX əsrin 50-60-cı illərində nəşr etdirdiyi bir sıra qiymətli tədqiqat əsərlərində 1951-1964-cü illərdə ilk dəfə Kültəpədə apardığı tədqiqatların nəticələri öz əksini tapmışdır.

Beləliklə, XX əsrin ikinci yarısında Azərbaycan tarixçiləri Vətənimizdə milyon illər boyunca davam etmiş ibtidai icma cəmiyyətinin məskunlaşma, nəsil artımı və s. bu kimi

proseslərin inkişaf dinamikasını əks etdirən sanballı monoqrafiyalar ərsəyə gətirməklə xalqımızın tarixi demoqrafik həyatını elmi obyektiv müstəvidə təsvir etməyə nail olmuşlar.

## MOİSEY KALANKATUKLUNUN "ALBANİYA TARİXİ" ƏSƏRİNDƏ TÜRK ƏNƏNƏLƏRİ

**Məhəbbət Paşayeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) Humanitar fənlər kafedrası, Prof, UNEC Multikulturaliam Mərkəzinin rəhbəri,**
**pashayeva.m@gmail.com**

***Açar sözlər:*** *Kalankatuklu, Albaniya tarixi, türkmənşəli tayfalar, hunlar, xəzərlər*
***Key Words*** *Kalankatuklu, History of Albania, Turkish Tribes, Huns, Khazars*

Üç kitabdan ibarət olan “Albaniya tarixi” adlı qaynaq, Azərbaycan dövləti Qafqaz Albaniyasında (e.ə.IV-VIII) ən qədim dövrlərdən X əsrə qədər baş vermiş hadisələri əhatə edir. İlk kitab ən qədim dövrlərdən başlayaraq 710-cu ilədək olan hadisələrdən, digər hissələr isə X əsrədək olan hadisələrdən bəhs edir. “Albaniya tarixi”nin ilk kitabının Albaniya hökmdarı Cavanşirin müasiri olmuş VII əsr müəllifi Kalankatuklu tərəfindən yazılmış, digər bölümləri isə daha sonrakı dövrlərdə əlavə edilmişdir. Qaynaqda Uti vilayətinin Kalankatuk kəndinin ana yurdu olduğunu yazan müəlifin təxəllüsünun də əsərin mətninə əsaslanaraq seçildiyi məlumdur. Qaynaqlarda Kağankat, Kağankatuk, Kalankatuk olaraq da qeyd edilmişdir.

“Albaniya tarixi” nin ən qədim əlyazması XIII əsrə aid edilməkdədir. Albanşünas tədqiqatçıların gəldiyi nəticəyə görə, əsərin əsli alban dilində yazılmış olsa da, orijinal mətn bir sıra tarixi hadisələr nəticəsində yox edilmişdir. Orijinal mətn əldə olmasa da əsər 1860-cı illərdən bəri qədim əlyazmalara əsasən müxtəlif dillərə tərcümə edilmişdir. Əsəri tam olaraq ilk tərcümə edənlərdən biri Charles Dovset olmuşdur. Tərcümə nüsxələri Sanktpeterburq Əlyazmaları Fondu, Paris Beynəlxalq Kitabxanası, Britaniya müzeyi kimi bir çox ölkənin milli arxivlərində muhafizə edilməkdədir. Görkəmli şərqşünas alim Ziya Bünyadov, Dovsettə aid nüsxəni ilk öncə rus dilinə ve daha sonra da1993-cü ildə Azərbaycan dilinə tərcümə etmişdir.

Əsər antik və ilk orta əsrlər dövründə Azərbaycanın tarixi coğrafyası, əhalisi, etnomədəni mühiti haqqında dölgun məlumat verən dəyərli bir qaynaqır. Məlumatlarının böyük bir qismində şəxsi müşahidələrinə əsaslanan müəllif dövrünün siyasi, mədəni, ideoloji prosesləri barədə mühüm bilgilər verməklə yanaşı antik və orta əsr Azərbaycanında gedən etnik prosesləri bütün ayrıntısı ilə təsvir etmişdir. Xüsusilə, eranın ilk əsrlərindən Azərbaycanda yayılmaga başlayan hunlar, barsillər, onogurlar, xəzərlər kimi türkmənşəli tayfaların dini etiqadları, adət-ənənələri haqqında ətraflı bilgi vermişdir. VII əsrdə yaşanan bir çox hadisələrin şahidi olduğu üçün Kalankatuklunun verdiyi məlumatlar Azərbaycanda və bütövlükdə Qafqazda yayılan qədim türk tayfalarının, xüsusilə də xəzərlərin tarixinin araşdırılması üçün birinci dərəcəli qaynaqdır. Xüsusilə ilk orta əsrlərdə Azərbaycanda etnomədəni muhit, ideologiya, dil xüsusiyyətlərinin müəyyənləşdirilməsi baxımından da böyük əhəmiyyət daşımaqdadır. İlk orta əsrlər dövründə Azərbaycanın tarixi coğrafyası, əhalisi, inancları, dili kimi bir çox mühüm məsələlərə aydınlıq gətirən əsər, eyni zamanda Azərbaycanda qədim türk tayfalarının məskunlaşması, etnik ənənələri, inancları kimi bilgilərə də rəhbərlik edə biləcək dəyərli yazılı qaynaqdır. Bir sözlə, Azerbaycan tarixinin min illik bir dövrünü əhatə edən bu ensiklopedik əsər, ilk orta əsrlərdə Azərbaycanda yayılan qədim türk tayfalarının məişəti, dili və adət-ənənələri haqqında etibarlı məlumat mənbəyidir.

Məqalədə Kalankatuklunun “Albaniya tarixi” əsəri əsasında hunlar, barsillər, onogurlar, xəzərlər kimi türkmənşəli tayfaların Azərbaycanda məskunlaşma və yayılma prosesləri, dini etiqadlarıı, mərasim ayinləri, toponimlər, türk dili və ənənələrinin qədim elementləri təhlil edilmiş, həmçinin əsərdə təsvir edilən qədim hun ənənələrinin Azerbaycan məişətində qorunan izləri müəyyən edilmişdir. Əsər Azərbaycanda məskunlaşan hunlar, barsillər, onogurlar, xəzərlər kimi qədim türkmənşəli tayfaların təkcə Azərbaycanın deyil, bütün Qafqaz xalqlarının dil və adət-ənənələrində güclü iz buraxdığını göstərən mühüm mənbədir. Hun Azərbaycan etnik-dil əlaqələrinin tarixinin qədim dövrlərə gedib çıxdığını göstərən mənbədən məlum olur ki, Azərbaycan türkcəsi, artıq V-VII əsrlərdə Qafqazda ümumünsiyyət dili olmuşdur. Əsərdə təsvir edilən qədim türk ənənələrinin izləri təkcə Azərbaycan dilində, inanc və adətlərində deyil, həm də Azərbaycanın qafqazdilli udi, xınalıq, qrız, buduq kimi alban tayfalarının dil və adət-ənənələrində qorunub saxlanılmışdır. Bu, həm də Azərbaycanda Qafqaz Albaniyası dövründən bəri xalqlar arasındakı güclü etnogenetik əlaqələri ortaya qoyur.

## PEDAQOGİKA TARİXİMİZİN BİR SƏHİFƏSİ

**Tahirə Həsənzadə**
**Əlyazmalar İnstitutu elmi işçi, , t.e.d.**

***Açar sözlər:*** *Qafqaz təhsil dairəsi, Azərbaycan kitabı, maarif xadimləri*
***Keywords:*** *Caucasian educational circle, Azerbaijani book, educators*

AMEA Məhəmməd Füzuli adına Əyazmalar İnstitutunun çoxsaylı əski çap kitabları xəzinəsində nəşr tarixi 100 ili çoxdan ötmüş, 1903-cü ildə rus dilində işıq üzü görmüş “Qafqaz təhsil dairəsinin 1 yanvar 1903-cü il tarixinə olan şəxsi tərkibi” (Личный состав Кавказского учебного округа к 1 января 1903 года. Часть I-II. 325/416 стр.) adlı, iki hissədən ibarət olan kitab Azərbaycan pedaqoji fikir tarixini tədqiq edənlər üçün dəyərli mənbədir.

I cildi 1963-cü il idə nəşr olunmuş “Azərbaycan kitabı” biblioqrafik göstəricisində öz əksini tapmamış Azərbaycanın görkəmli maarif xadimlərinin adlarına qeyd etdiyimiz bu kitabda rast gəlmək olar. Kitabda tanınmış Azərbaycan maarifçi-müəllimləri ilə bərabər pedaqogika tarixində az tanınmış, lakin maarifçilikdə müəyyən xidmətləri olan şəxsiyyətlər haqqında da məlumat verilir. Həmin kitabdan tarix səhnəsində qalmış müəllimlər haqqında məlumat verən seçmələri diqqətə çatdırmağı lazım bildik.

Kitabın I hissəsində aşağıdakı müəllimlər xatırlanır: Qafqazda fəaliyyət göstərən Tiflis Kişilər gimnaziyasında Seyidov Mirzə, Bakıda Bədirov Nəcəfqulu bəy, Gəncədə Axundov Mirzə Məhəmməd, Teymurxan-Şurada (indiki Mahaçqala) Dədə Mustafa oğlu, Şuşada Əmirov Mirzə Aslan, Vəzirov Haşım bəy, Səməd bəy Ağayev, Dərbənd Qadınlar gimnaziyasında Acalov Səməd Məmməd oğlu, Bakı Qızlar gimnaziyasının (hamisi, qəyyumu milyonçu Hacı Zeynalabdin Tağıyev) heyətin üzvləri Vəzirov Fərrux bəy, Dadaşov Əliabbas, Topçubaşov Əlimərdan bəy, Suxumi Qadınlar gimnaziyasının qəyyumlar şurasının üzvü Hacı Əli Əfəndi Qarahəsən, Dərbənd Qadınlar gimnaziyası qəyyumlar şurasının üzvü Heydərov Qasım bəy, Qars Qadınlar gimnaziyası qəyyumlar şurasının üzvü Arif Ağa Molla Emin oğlu, Zaqafqaziya Müəllimlər Seminariyasında Əfəndiyev Rəşid bəy və Köçərli Firidun bəy, İrəvan Müəllimlər Seminariyasında Qazızadə Məhəmməd Bağır, Şahtaxtinski Həbib bəy tatar (azərbaycan –H.T.) dili müəllimləri, Şuşa şəhər məktəbində Məmmədov Mirzə Məmmədəli ilahiyyat müəllimi, Məlik Axnazarov Usub bəy müəllim və gimnast, Bakı Mixaylovski şəhər məktəbində Seyid Məmmədov Mir Cəfər ilahiyyat müəllimi, II Bakı şəhər məktəbi Qəniyev Sultan Məcid müdir, Əfəndiyev Şükür bəy müəllim, Əfəndiyev Abdulla bəy, Qiyasbəyov Nəsib

bəy, Əbdürrəhmanbəyov Süleyman bəy, Mövsümov Hacı Mirzə Ağa ilahiyyat, Cəfərov Əliskəndər müəllim.

Kitabın II hissəsində xatırlanan müəllimlərdən: Tiflis Quberniyasının Aruklu İbtidai məktəbininin müdiri Əfəndiyev Hüseyn, Ağdam ibtidai məktəbinin nəzarətçisi İbrahimbəyov Bağır, şəriət müəllimi Dərgahov Mirzə Dadaş, Tuğ kəndi ibtidai məktəbinin şəriət müəllimi Mir Həmzə Mir Q-zadə, Bərdə ibtidai məktəbinin nəzarətçisi Quliyev Musa, Xaldan kənd İbtidai məktəbinin nəzarətçisi Məmmədov Allahverdi, ilahiyyat müəllimi Bala əfəndi, Abdulla Əfəndi, Vəndam kəndi ibtidai məktəbin nəzarətçisi Musabəyov İbrahim bəy, ilahiyyat müəllimi Rasim oğlu; Goynik kəndi ibtidai məktəbin nəzarətçisi Qiyasbəyov Muxtar, ilahiyyat müəllimi Hacı Həbibulla Əfəndiyev, Şelli kənd ibtidai məktəbin ilahiyyat müəllimi Molla Gülməmməd oğlu M.-İ., İrəvan quberniyası rus-tatar ictimai-şəhər ibtidai məktəbin nəzarətçisi Nərimanbəyov Haşım bəy, müəllim Şahtaxtinski Həmid bəy, İrəvan seminariyasında azərbaycan və rus dili müəllimi Həmid ağa bəy (bu fəaliyyəti ASE-də öz əksini tapmamışdır), ilahiyyat müəllimi Qazıyev Mirzə Abdulla, Lənkəran şəhər ikiillik məktəbin nəzarətçisi Bayraməlibəyov Teymur bəy, ilahiyyat müəllimi Mirzə Əhməd Molla Hüseyn, 22-ci Bakı ikisinifli məktəbin gimnastika müəllimi Məmmədov Məmməd bəy, 1-ci Rus-tatar məktəbinin ilahiyyat müəllimi Əlizadə Mirzə Yaqub, müdir Mahmudbəyov Həbib bəy, müəllim Minasazov Abbas bəy, müəllim Hacıbababəyov Mehdi bəy, tatar dili müəllimi Atakişiyev Məmmədtağı, 3-cü rus-tatar məktəbinin fəxri nəzarətçisi Məlikov Həsən bəy (bu fəaliyyəti ASE-də öz əksini tapmamışdır), 4-cü rus-tatar məktəbinin müdiri Mahmudbəyov Mahmud bəy, müəllimlər Axundov Süleyman bəy, Orucalıyev Əli Cabbar, ilahiyyat müəllimi Talıbzadə Molla Yusif (bu fakt ASE-də yoxdur), Keşlə kəndi birsinifli məktəbin müəllimi Məmmədov Lütfəli, Buzovna birsinifli məktəbin ilahiyyat müəllimi Əbdül Səlim oğlu, Sabunçu birsinifli qadın məktəbinin qəyyumlar şurasının üzvləri Aşurbəyov İbrahim bəy, Masallı qeyri-xristian ibtidai məktəbin müəllimi Talışxanov Mir C.b., ilahiyyat müəllimi Burqan oğlu Molla Dayaq, Bakı Qızlar (Aleksandr) məktəbinin müdiri Məlikova Hənifə xanım, müəllimi Sulkeviç Mariya Mustafa, tatar dili müəllimləri Şəfiqə xanım Şeyxzadə, Axundova Səkinə xanım, xarici dil müəllimi Şeyxzadə, müəllimlər Terequlova Rəhilə xanım, Əbdürrəhmanova Xədicə xanımın adları qeyd olunur.

Siyahıdan məlum olduğu kimi Azərbaycandan kənarda fəaliyyət göstərən məktəblərdə də azərbaycanlı müəllimlərə rast gəlmək olar.

## ŞAH I ABBAS DÖVRÜNDƏ SƏFƏVİ-OSMANLI DİPLOMATİQ ƏLAQƏLƏRİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

**Tofiq Nəcəfli**

**AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Orta əsrlər tarixi" şöbəsinin, T.e.d. müdiri. tofignajafli@gmail.com**

***Açar sözlər:*** *Səfəvi, Yaxın Şərq, Xorasan, Abbas Mirzə, İstanbul*

***Key words:*** *Safavid, Middle East, Khorasan, Abbas Mirza, Istanbul*

XVI əsrin son rübü Səfəvi-Osmanlı siyasi münasibətlərinin ən dramatik dövrlərindən biridir. Sultan III Muradın yeritdiyi siyasət Amasya sülhünün şərtlərinin pozulmasına və Yaxın Şərqin iki qüdrətli dövləti arasında müharibənin yenidən başlamasına gətirib çıxardı. Osmanlı-Səfəvi müharibəsinin gedişində Osmanlı ordusunun əldə etdiyi uğurlar bir-birinin ardınca Azərbaycan torpaqlarının ələ keçirilməsi ilə nəticələndi. Bu dövrdə qızılbaş əmirləri arasında hələ də davam etməkdə olan çəkişmələr mərkəzi hakimiyyəti zəiflətdiyi üçün cəbhədəki uğursuzluqlar daha da dərinləşdi. Belə bir vəziyyətdə 1587-ci

il mayın sonunda Abbas Mirzə Qəzvində taxt-taca gətirildi. Bununla da sülhə tərəfdar olan əmirlər cəzalandırıldı və Osmanlı dövləti ilə başlanılan sülh danışıqları kəsildi.

1588-1589-cu illərdə əksər Azərbaycan torpaqları Osmanlı ordusu tərəfindən ələ keçirildi. Osmanlıların müvəffəqiyyətini Özbək hakimlərinin Xorasana basqınları təmin etdi. Bu dövrdə ölkədə qızılbaş əmirləri arasındakı çəkişmələrin davam etməsi, şərqdən özbəklərin, qərbdən Osmanlı təhlükəsinin davam etməsi Şah I Abbası sultanla sülh danışıqlarına başlamağa vadar etdi. 1590-cı il martın 21-də İstanbulda Osmanlı-Səfəvi müharibəsinə son qoyan sülh müqaviləsi bağlandı. İstanbul sülhünün bağlanması ilə Səfəvi dövləti şərqdə Özbək xanlarının təhdidlərindən xilas olmaq, daxildə baş qaldıran üsyanları yatırmaq, Osmanlı ordusunun uzun müddət həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində dağılmış təsərrüfatı bərpa etmək və mərkəzi hakimiyyəti möhkəmləndirmək imkanı qazandı.

İstanbul sülhü iki dövlət arasında müharibəyə son qoymaqla yanaşı, diplomatik əlaqələri genişləndirmək üçün geniş imkanlar yaratdı. Türkiyə tarixşünaslığında İstanbul sülhünün bağlanmasından sonra Səfəvi-Osmanlı diplomatik əlaqələrinə xüsusi diqqət yetirilmişdir. İ.H.Uzunçarşılının, B.Kütükoğlunun, Y.Öztunanın, R.Kılıçın, A.Gündoğdunun, C.Aydoğmuşoğlunun tədqiqatlarında bu məsələ araşdırılmisdir.

Sülhünün bağlanmasından sonra iki dövlət arasında sülhə görə müəyyən edilən sərhədlərin təyin olunması məsələsi gündəmə gəldi. Türkiyə tarixçilərinin qənaətinə görə, Azərbaycandakı Osmanlı-Səfəvi sərhədlərinin dəqiqləşdirilməsində heç bir problem yaranmasa da, Nihavənd vilayətinin hüdudları ilə bağlı müəyyən narazılıq ortaya çıxdı. İstanbul sülhünə görə Nihavənd Osmanlılara verilmişdi. Lakin sərhədlər təsbit olunan zaman Nihavənd qalasının bölgədəki əmirlər arasında narazılıq yaratdığı irəli sürülərək Osmanlı dövlətinə verilmədiyi ortaya çıxdı. Tərəflər arasında yaranmış anlaşılmazlığı həll etmək üçün iki dövlət arasında məktublaşmalar bu bölgədə sərhədin təyin olunmasını xeyli uzatdı.

Bu dövrdə Səfəvi-Osmanlı münasibətlərinə, xüsusən də diplomatik əlaqələrə Gilan məsələsi öz təsirini göstərdi. Şah Abbasdan narazı əmirlərin Gilana qaçması və yerli hakim Xanəhməd tərəfindən himayə edilməsi, şahın onları qaytarmaq tələbinə rədd cavabı verilməsi Şah Abbasla Xanəhməd arasındakı münasibətləri xeyli gərginləşdirdi. Gilan hakiminin Osmanlı sultanları ilə məktublaşması və özlərinin irsi hakimiyyətlərini saxlamaq niyyəti ilə onlara bel bağlaması, Gilan hakiminin müstəqillik və Səfəvi xanədanına qarşı bəzi “ağılsız və müxalif” hərəkətləri Şah Abbasın nəzərindən qaça bilməzdi. Buna görə də, Şah Abbasın göndərdiyi qoşun Xanəhmədin qüvvələrini məğlub edərək Gilanı nəzarət altına aldı. Gilan hakiminin Şirvan bəylərbəyi Həsən paşaya sığınması iki dövlət arasındakı münasibətləri gərginləşdirdi və diplomatik əlaqələrin güclənməsinə təsir göstərdi.

Osmanlı dövlətinin Gilan hakimini müdafiə etməsinin həqiqi səbəblərinə C.Aydoğmuşoğlu müəyyən aydınlıq gətirmişdir. O, yazır ki, İranın ən zəngin ipəkçilik vilayəti olan Gilan Osmanlı ticarət karvanlarının gedib gəldiyi bir bölgə idi. Səfəvilərin paytaxtı olan Qəzvinə yaxın olduğu üçün Gilan strateji baxımdan da mühüm əhəmiyyət daşıyırdı. İstanbul sülhündən sonra İstanbulda girov saxlanılan Heydər Mirzə ilə bağlı hadisələr də Səfəvi-Osmanlı diplomatik əlaqələrinə öz təsirini göstərmişdi. 1595-ci il dekabrın 21-də Heydər Mirzənin İstanbulda vəba xəstəliyindən ölməsi Səfəvi sarayında bir rahatlıq yaranmasına səbəb oldu.

Türkiyə tarixçilərinin qənaətinə görə, Səfəvi-Osmanlı münasibətləri 1590-cı il sülhünə görə ortaya çıxan bəzi məsələlərə baxmayaraq, yaxşı tərzdə davam etmişdir. Tərəflər sülhün qorunub saxlanmasında maraqlı olmuşlar. Osmanlı dövləti qərbdə Avstriya ilə uzun illər davam edən yorucu müharibəni davam etdirdiyi üçün şərq sərhədlərinin toxunulmaz qalması üçün sülhün şərtlərini pozmamağa çalışmışdı. Buna görə də, İstanbula gələn Səfəvi elçiləri çox yaxşı qarşılanmış, hədiyyələr və dostluq məktubları

göndərilmişdir. Səfəvi hökuməti də İstanbula bol hədiyyələr və mübaliğəli dostluq məktubları və elçilər göndərmişdir.

## İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏKİ TARİXİ QƏLƏBƏ GƏNCLƏRİMİZİN ƏSL VƏTƏNPƏRVƏRLİK MƏKTƏBİDİR

**Mətanət Məmmədova**
**Bakı Dövlət Universiteti,t.ü.f.d.,dosent**
**metanet.memmedova.61@mail.ru**

***Açar sözlər:*** *Qarabağ, zəfər, milli dəyər, vətənpərvərlik, gənclik*
***Keywords:*** *Karabakh, victory, national value, patriotism, youth*

44 günlük Qarabağ müharibəsi Azərbaycan xalqının 30 illik torpaq həsrətinə son qoydu, Qarabağ torpağı rəşadətli ordumuz tərəfindən azad edildi, Azərbaycanin faktlara əsaslanan yeni tarixi yazılmağa başladı.Azərbaycan gəncliyi bütün dövrlərdə milli təəssübkeşliyini, Vətənə sevgisini, milli-mənəvi dəyərlərə hörmətini bu və ya başqa formada ifadə edə bilmişdir.İkinci dünya müharibəsindəki milli legionerlərimiz Vətəndən uzaqda həmişə Ana torpaq sevgisi ilə yaşamış, bir azərbaycanlı kimi doğma Vətəni düşünmüş, qəhrəmanlıqlar nümayiş etdirmiş, tarixin səhifələrinə öz adlarını yaza bilmişlər.Birinci Qarabağ müharibəsində, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə də yüzlərlə gəncimiz fədakarlıq göstərmiş, Vətən uğrunda canlarından, qanlarından keçmişlər. İkinci Qarabağ savaşı isə daha böyük şücaət, daha böyük qəhrəmanlıqdır.İqtidarla xalq birliyi, xalqın bir yumruq kimi birləşməsi, indiki gənclərimizin hər bir sahədə, xüsusilə hərb sahəsində mükəmməl bilik və bacarıqlara sahib olmaları, öz təhsilini, nailiyyətləri ilə qazandıqları karyeralarını arxa plana qoyaraq, Vətən uğrunda mənfur düşmənlə vuruşmaq üçün ön cəbhəyə getmələri, bu yolda canlarını fəda etmələri əsl vətənpərvəlik məktəbidir, gələcək nəsillərə örnəkdir, nümunədir. Belə Vətən qəhrəmanları haqqında şerlər, poemalar, əsərlər, tarixi kitablar yazılacaq, tarix dərsliklərində tərənnüm olunacaqlar.

Millətin milli ruhunu, milli kimliyini şəhidlərimiz,qazilərimiz,zabitlərimizlə hər mənada geri qaytaran Ali Baş Komandan İlham Əliyev bundan sonra tarix dərsliklərimizin də dəyişəcəyini qürurla ifadə etmişdir. Şagirdlərimizə Azıx mağarasından danışanda hansısa bir köhnə şəkli deyil, indi çəkilən şəkli verəcəyik. Eyni zamanda Xudafərin körpüsü, digər tarixi abidələr, Qarabağ xanlığı haqqında danışanda artıq daha geniş, orijinal təhlillər aparılacaqdır. Bununla yanaşı, bütün təhsil müəssisələrində Vətən müharibəsində Azərbaycanın qələbəsini təmin edən amillərin təhlil olunması, "Qarabağ dərsləri", "Milli qəhrəmanlar", "Qarabağ müharibəsi qəhrəmanları", "Şuşa əməliyyatı" adlı ustad dərslərinin təşkil edilməsi, müharibə şəhidləri və qazilərin daha yaxşı tanıdılması məqsədəuyğundur.

Bu müharibədə biz şücaət göstərən tarix müəllimlərinin, Bakı Dövlət Universitetinin şəhid olmuş 18 və onlar içərisində 3 Tarix fakültəsi tələbələrinin adlarını iftixarla çəkirik. Ailədə, universitetdə, ictimai həyatda öz savad və bacarıqları ilə hörmət qazanan, hamının sevimlisinə çevrilən tələbələrimizi qürurla anırıq.İndiki gənclik xoşbəxtdir, çünki onlar torpaqları işğaldan azad olan bir Vətənin övladlarıdırlar, başlarını qürurla dik tutub gəzə bilirlər, onlarda vətənpərvərlik daha yüksək səviyyədədir. Mən bir müəllim kimi bu müzəffər xalqı tələbələrimə tanıtdığım üçün çox şanslıyam. Mənim fikrimcə nəinki tarix kitabları, bütün dərsliklərin ilk səhifələrində Zəfər tariximiz və torpaqlarımızın işğaldan azad olunmaları haqqında qısa məlumat olmalıdır. Bu tarix unudulmamalıdır.Kiçikdən böyüyə hər bir şəxs, Azərbaycan gəncliyi bu tarixi zəfəri unutmamalıdır. Şünki İkinci Qarabağ müharibəsindəki qələbəmiz bizim həm qan yaddaşımız, həm də Zəfər yaddaşımızdır. Azərbaycan gəncliyinə ərməğandır.

# AZƏRBAYCAN XALÇALARINDAKI NAXIŞLARDA TARİXİ DEMOQRAFİYA ELEMENTLƏRİ

**Aydın Məmmədov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent**
**E-mail*:* aydin.mmmdov.67@ mail.ru**

***Açar sözlər:*** *Azərbaycan xalçaları, əhali artımı, ailə modeli, demoqrafik elementlər, adət və ənənələr*
***Keywords:*** *Azerbaijani carpets, population growth, family model, demographic elements, customs and traditions*

Azərbaycan xalçaları təbiətimizi, doğma yurdumuzun tarixini, etnoqrafik özəlliklərini, adət-ənənələrimizi, həyat fəlsəfəmizi zəngin rəng çalarları ilə orijinal bir tərzdə əks etdirən unikal sənət nümunələridir. Azərbaycan xalçaları xalqımızın bəşər tarixinin ən qədim zamanlardan çağdaş dövrümüzə qədər məskun olduğu əraziləri və ictimai inkişaf tariximizi əks etdirən etibarlı mənbələrdən biri olmaqla yanaşı, buradakı çoxsaylı nəbati və həndəsi naxışlar xalqımızın həyat və ölümə, nəsil artımını himayə edən hami qüvvələrə etiqadını ehtiva edən həyat fəlsəfəmizi əks etdirir. Azərbaycan xalçalarında tez-tez rast gəlinən ağac, şanagüllə (lotos), buta, bir-birilə düz bucaq altında kəsişən iki xətt, romb, buynuz, o cümlədən bir vaxtlar ulu əcdadlarımızın müqəddəsləşdirdiyi, totemləşdirdiyi at, qoyun, öküz, maral, şir və s. bu kimi milli naxışlarımız ulu əcdadlarımızın ətraf mühitə -təbiətə və cəmiyyətə münasibətini əks etdirən sirli kodlardır.

Azərbaycan xalçalarında tez-tez rast gəlinən ağac – "həyat ağacı" və onun xalça üzərindəki təsvirləri ilk növbədə artıb-törəmə, nəsilvermə kimi xüsusiyyətlərini ehtiva edir. Ulu əcdadlarımızın ağaca sakral bitki kimi yanaşması təbii ki, onun qol-budaq atması, törəyib çoxalması ilə bağlı olmuşdur. Başqa sözlə, ağac və onun xalça üzərindəki təsvirləri ilk növbədə artıb-törəmə, nəsilvermə kimi xüsusiyyətlərini ehtiva edir. Xalçalarımızdakı qara rəng isə, insan artımı ilə dialektik vəhdətdə olan mühüm demoqrafik proseslərdən biri olan ölüm hadisəsini ehtiva edir. Dünya ağacı bütün dünyanın, eləcə də insanların yaradıcısı, hamisi sayılırmış. Belə inam hökm sürürdüsə, deməli, ağacla uşaqları himayə edən ilahə - Umay təbii olaraq ağacla qoşa yad edilməli idi."  Xalçalarımızda ağac təsviri həm də, kainatın yaradıcısı hesab olunduğu üçün sevib-sevilmək, məhəbbət ehtirasını, həyat qüvvəsini, artıb-törəməni ehtiva edən günəş və onun xalçalardakı buta şəklində təsviri ilə də sıx bağlıdır.

Məşhur xalçaçı-rəssam Lətif Kərimov haqlı olaraq, milli xalçalarımızda buta elementinin təsvir olunmasını Günəş kultu və atəşpərəstliklə bağlayır. Xalçalarımızda ən çox rast gələnən bəzək, naxış elementlərindən biri də başını sağa əymiş qönçədir. Bəllidir ki, oğuzlarda sağ həm də günçıxanın (gündoğanın) rəmzi imiş. Günçıxan isə günəşlə bağlıdır. Doğrudan da, Günəş kultu ilk növbədə, xalqımızın qədim inanclar sistemi ilə bağlıdır. Belə ki, xalqımız qışda donmuş torpağın və suyun yazda canlanmasını, təbiətin oyanışını doğumun ölüm üzərində qələbəsi kimi səciyyələndirirdi. Məhz buna görə də, Azərbaycan xalçalarında nəsil artımını, toy-düyünü, məhsuldarlığı himayə edən günəşin, odun, istinin rəngi olan al, qırmızı rəng, suyu ehtiva edən mavi rəng, qaranlığa, şərə qarşı qoyulan ağ rənglər üstünlük təşkil edirdi.

Bundan başqa, Azərbaycanda günəş inancı ilə əlaqədar ər evinə köçən qız-gəlinləri sakral rəqəm sayılan yeddi dəfə günəşin simvolu sayılan çırağın, qəndilin başına dolandırırlar. Təbii ki, bu adət biləvasitə ər evinə köçən gəlinin yeni evə - ocağa xeyir, bərəkət, səadət gətirməsi, həmin ocağın nəslini artırmaq istəyindən, diləyindən irəli gəlirdi. Təbii ki bu, gəlinin köçəcəyi evə övlad sevinci, ailə səadəti gətirməsi üçün qırmızı rəngə - qədim inanclarımızdan olan Günəşə, Al ruha tapınması ilə əlaqədar idi.

Azərbaycan xalçalarında qırmızı rəngin üstünlük təşkil etməsi, biləvasitə qaranlığa, şər qüvvələrə qarşı mübarizə aparan, nəsil artımını, toy-düyünü, yeni doğulan uşaqları, zahı qadınları himayə edən Al ruhla sıx şəkildə bağlıdır. Bu gün də, Azərbaycanın bir çox bölgələrində toy-düyün təşkil edilən həyətlərin darvaza və qapılarında qırmızı parçaların asılması, gəlinin belinə qırmızı lentin bağlanması Al ruha olan inamdan irəli gəlir.

Xalçalarımızda tez-tez rast gəlinən həndəsi təsvir olan və biləvasitə nəsil artımı ilə bağlı buynuz elementi isə, Azərbaycanda qoç, öküz, keçi və s. bu kimi heyvanların müqəddəs sayılması ilə bağlı imiş.

Beləliklə, Azərbaycan xalçalarındakı milli naxış elementlərimiz xalqımızın övladcanlılıq, ailə modeli və ailəyə sədaqət, doğum, ölüm-nəsil artımı ilə bağlı demoqrafik prosesləri son dərəcə obyektiv şəkildə əks etdirir.

## XVI ƏSRIN BİRİNCİ YARISINDA AZƏRBAYCANIN ŞİMAL-QƏRB TORPAQLARININ SİYASİ VƏZİYYƏTİ

**Elvira Lətifova**
**Bakı Dövlət Universiteti, t.e.n.,dosent**
**eletifova@mail.ru**

***Açar sözlər**: Qafqaz, Səfəvilər, Şimal-Qərbi Azərbaycan, Şəki hakimliyi, Saxur-İlisu*
***Keywords:** Caucasus, Safavids, North-West Azerbaijan, Sheki rule, Sakhur-Ilisu*

Azərbaycanın şimal-qərb bölgəsini təşkil edən müasir Şəki, Zaqatala, Qax, Balakən, Oğuz və Qəbələ rayonlarının ərazisi dövlətçilik tariximizin bütün mərhələlərində mühüm hərbi-strateji əhəmiyyətə malik olmuşdur.

Tədqiq etdiyimiz dövr isə orta əsr Azərbaycanının tarixində Qafqaz uğrunda Səfəvi-Osmanlı rəqabətinin başlanması ilə səciyyələnir. Bu dövrdə bir tərəfdən yeni yaranmış Azərbaycan Səfəvi dövləti bütün Azərbaycan torpaqlarını vahid dövlət çərçivəsində birləşdirmək üçün mübarizə aparır, digər tərəfdən isə Osmanlı imperiyası Şərqə genişlənmək siyasətini fəallaşdırır. Nəticədə isə Qafqaz iki imperiayanın mübarizə arenasına çevrilir. Hər iki imperiyanın Qafqaz siyasətində Azərbaycanın şimal-qərb əraziləri mühüm yer tuturdu. Bu ərazilər X-XI əsrlərdən başlayaraq Albaniya dövlətinin, sonralar isə Xilafətin zəifləməsindən və Azərbaycanda bərqərar olmuş siyasi pərakəndəlikdən istifadə edən gürcü çarları tərəfindən işğal edilmiş və bir neçə əsr ərzində onların təsir dairəsində olmuşdur. XIV-XV əsrlərdə yenidən güclənməyə başlamış Şirvanşahlar dövləti həmin ərazilərdən müəyyən qədər gürcü hakimlərini sıxışdıraraq çıxarmağa müvəffəq olmuşdular. Azərbaycan Səfəvi dövlətinin yaranması ilə isə bu proses tədricən başa çatdırıldı.

XVI əsrin əvvəllərindən Gürcüstanda möhkəmlənmək uğrunda rəqabət aparmağa başlayan Səfəvi və Osmanlı dövlətləri bu siyasətlərində Gürcüstana qonşu olan Azərbaycanın həmin şimal-qərb bölgələrindəki müsəlman hakimliklərini möhkəmləndirmək siyasətinə xüsusi diqqət verirlər. İlk addım isə Şah I İsmayılın Gürcüstana qarşı təşkil etdiyi yürüşlərində Şəki Hakimi Həsən bəyin yer alması oldu. Şəki hakimliyinin ardınca bu siyasətdə qonşu Saxur-İlisu hakimləri də fəal rol oynamağa başlayır.

Hazırki tədqiqatımızın əsas məqsədi məhz Şimal-Qərbi Azərbaycan hakimliklərinin XVI əsrin birinci yarısında Qafqazda cərəyan edən hərbi-siyasi hadisələrdə oynadıqları rolu dövrün başlıca mənbələri olan İsgəndər Münşi, Həsən bəy Rumlu, Vaxuşti Baqrationi, Hacı Səid Əbdülhəmid, Kərimağa Fatehin əsərləri və Səfəvi şahlarının fərmanları əsasında işıqlandırmaqdan ibarətdir.

# AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN TƏŞƏKKÜLÜ ƏRƏFƏSİNDƏ SİYASİ-İDEOLOJİ CƏRƏYANLAR (1901-1918-Cİ İLLƏR)

**Faiq Qəzənfər oğlu Ələkbərli,**
**dosent, fəlsəfə üzrə fəlsəfə doktoru,**
**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi**

***Açar sözlər:*** *türkçülük, islamçılıq, sosial-demokratizm, maarifçilik*
***Keywords:****Turkizm, islamizm, social democracy, enlightenment*

XX əsrin əvvəllərində Quzey Azərbaycan türkləri milli azadlıqlarını yenidən əldə etmək üçün bir neçə istiqamətdə iş aparırdılar: 1) Milli kapital ya da milli iqtisadiyyatın formalaşması, 2) Milli haqlar ugrunda mübarizə və Dövlət Dumasında Türk millət (Güney Qafqaz, o cümlədən Quzey Azərbaycan) vəkillərinin təmsilçiliyi, 3) Milli təşkilatlar və partiyaların yaranması, 4) Milli mətbuatın yenidən canlanması, 5) Milli məktəblərin çoxalması fonunda Türk dilində tədrisin inkişafı, 6) Milli ədəbiyyatın yeni mərhələyə qədəm qoyması və milli fəlsəfi fikrin təcəssümü.

Ötən 80-90 il ərzində çarizmin ortaya atdığı “parçala və hökm sür!” siyasətinin, eləcə də real şərtlərin nəticəsi olmalı idi ki, XX əsrin ilk illərində Türk ziyalılarından bir qismi Quzey Azərbaycanın gələcəyini konstitusiyalı ya da sosial-demokrat (marksist) Rusiyayla, digər bir qismi isə “İslam birliyi” ya da “Türk birliyi” inancıyla Osmanlıyla birləşməkdə görürdülər. Xüsusilə də, 1905-ci il birinci Rusiya inqilabına qədər və inqilab illərində (1905-1907) Quzey Azərbaycan Türk ziyalılarının qabaqcılları arasında İslamçılıqla Türkçülük (Osmanlıyla birləşmə) və sosial-demokratizmlə liberal-demokratizm (Rusiyayla birgəliyə davam) ideyaları daha geniş yayılmışdır. Bu anlamda XX əsrin ilk on illiyində Quzey Azərbaycan türklərinin yeniləşməsi, inkişafı məsələsi böyük ölçüdə iki istiqamətli idi. Türk aydınlarından bir qismi xalqın yeniləşməsində ana prinsip kimi İslamçılıqla Türkçülüyü götürüb üzünü Osmanlı İmperiyasına tutduğu halda, digər bir qisim isə sosial-demokratizmi ya da liberal-demokratizmi qəbul edərək Rusiyanın tərkibində qalmağa üstünlük verirdilər. Həmin dövrdə ziyalılar arasında Qacarlarla birləşmək ya da müstəqillik ideyalarının tərəfdarları yetrincə deyildi.

Quzey Azərbaycanda milli fəlsəfi fikir aşağı-yuxarı məhz bu ideyaların əsaslandırılması, həmin ideyalar arasında oxşarlıqlar və ziddiyyətlərin ortaya çıxarılmasıyla bağlı olmuşdur. Hər halda Azərbaycan milli ideyasının (Azərbaycan türkçülüyünün) və onun bariz təcəssümü olan Azərbaycan Cümhuriyyətinin yaranmasında Türkçülüklə İslamçılı qədər olmasa da, sosial-demokratizmlə liberal-demokratizm ideyalarının da bəlli rolu olmuşdur. Bizcə, milli fəlsəfi fikrin mahiyyəti, inkişaf yolları da məhz bir-birinə zidd görünən, ancaq bir çox hallarda da həmin ziddiyyətlərin bütünlüyündə öz ifadəsini tapmışdır. Bu anlamda Azərbaycanda fəlsəfi fikrin inkişafındakı təzadları, o cümlədən həmin təzadlı düşüncələrin müəlliflərini əsasən, anlamaq çətin deyildir. Bizim məqsədimiz, Türk aydınlarını təzadlı, bir-birinə zidd olan düşüncələrinə, yəni sosial-demokrat, liberal-demokrat, milli-demokrat, islamçı, türkçü, pozitivist və başqa bir cərəyana aid olmasından, bunlar arasında yer dəyişdirmələrindən asılı olmayaraq ana prinsipə, yəni sözün həqiqi mənasında daima Azərbaycan türklərinin maraqlarına, milli mənafeyinə sadiq qalmalarıdır. Başqa sözlə, önəmli olan daxildən və kənardan qaynaqlanmasından asılı olmayaraq hər hansı bir ideyaya tapınan Azərbaycan Türk ziyalısının həmin ideyadan öz millətinin maraq və mənafeyi naminə xidmət etməsidir. Çünki həmin ideyalar fəlsəfi və ictimai fikrə də çox ciddi təsir göstərmişdir. Hər halda milli kapitaldan tutmuş milli təşkilatların yaranması, ya da milli mətbuatdan tutmuş Türk dilinin öz varlığını hansı formada ortaya qoyması biri-birilə bu və ya digər dərəcədə bağlı olmuşdur. Burada həmin məsələlərin (milli kapital, milli mətbuat, milli təşkilatlar) geniş izahına varmadan əsasən fəlsəfi və sosial-siyasi fikrə öz təsirini göstərmiş mühüm məqamlara nəzər yetirəcəyik.

I Rusiya inqilabına qədər (1905) və inqilab illərində Quzey Azərbaycanın **siyasi-ideoloji** vəziyyət olduqca mürəkkəb və ziddiyyətli olmuşdu. Ötən əsrin əvvəllərində, özəlliklə birinci Rusiya inqilabından sonra (1905) Quzey Azərbaycan türkləri siyasi-ideoloji həyatda əsasən, üç istiqamətdə iş aparırdılar:

1. Maarifçilik (realistlər, romantiklər),
2. Mill-demokratik (islamçılıq, türkçülük, müasirlik və b.)
3. Sosial-demoktariya ya da marksizm (milli inqilabçılar, menşevizm, bolşevizm, sosialist inqilabçılar).

İlk növbədə Quzey Azərbaycanda maarifçilik cərəyanı geniş yayılmışdı. Azərbaycan Türk ziyalılarından bir qismi mövcud problemlərə tənqidi yanaşdıqları üçün realist (C.Məmmədquluzadə, Ö.F.Nemanzadə və b.), digər bir qismi (M.Hadi, A.Səhhət, H.Cavid və b.) isə daha çox utopistik düşüncələrdən çıxış etdikləri üçün romantizmə meyil göstərirdilər. Maarifçi-demokrat ziyalılar milli-demokratizmlə sosial-demokratizm arasında tərəddüd edirdilər. Çünki onlara görə, hər iki cərəyanda bir sıra məsələlərə baxışda fikirləri üst-üstə düşürdülər. Bu baxımdan sonralar onlardan xeyli bir qismi milli-demokratik, bəziləri isə marksizmə (xüsusilə bolşevizmə) üz tutdular.

Milli-demokratik cərəyan milli-dini ənənələr əsasında yaranmış, Türk millətinin həyatında həlledici rola malik olmuşdur. Çünki milli-demokratik cərəyanın başlıca qaynağı, mənbəyi Azərbaycan xalqı özü, onun XIX əsrdə yetişdirdiyi aydınlarının elmi-fəlsəfi əsərləri və görüşləri olmuşdur. I rus inqilabına qədər (1905) milli-demokratik cərəyanın müəllifləri (Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Həsən bəy Zərdabi və b.) əsasən, "Kaspi" qəzeti ətrafında toplaşaraq müasir ruhlu islamçılıq, türkçülük ideyalarını yayırdılar. Daha sonra Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli və başqalrı da bu prosesə qoşuldular.

I Rusiya inqilabına qədər və inqilabdan sonra Azərbaycanda ən geniş yayılan ideyalardan biri sosial-demokratizm ya da marksizm idi. Sove ədəbiyyatında Quzey Azərbaycan türkləri arasında ilk sosial-demokratlar kimi S.M.Əfəndiyev, A.Axundov, M.Q.Mövsümov, M.Ə.Əzizbəyovun adları çəkilir. Ancaq həmin dövrdə sosial-demokratizmin bəzi müddəalarına rəğbət bəsləyən M.Ə.Rəsulzadə, M.A.Mirqasımov, M.Hacınski, A.Kazımzadə və başqaları da olub. Daha sonra Azərbaycanda sosial-demokratizmin ən tanınmış siması N.Nərimanov olub.

## DÜNYA KÜTLƏVİ İNFORMAİYA VASİTƏLƏRİNDƏ 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNƏ MÜNASİBƏT HAQQINDA MÜLAHİZƏLƏR

**İsmayılov Firdovsi Sabir oğlu**
**BDU-nun Slavyan ölkələrinin tarixi kafedrasının baş müəllimi**
**firdovsi.ismailov54@mail.ru**

***Açar sözlər:*** *Almaniya, Dağlıq Qarabağ, Rusiya, Avropa İttifaqı*
***Key words:*** *Germany, Nagorno-Karabakh, Russia, European Union*

Azərbaycan Vətən müharibəsinin 2020-ci il sentyabrın 27-də başlanmış 44 günlük ikinci mərhələsində ərazi bütövlüyünü, tarixi ədaləti bərpa etmişdir. Təəssüf ki, dünya kütləvi informasiya vasitələrinin bir hissəsi məsələyə müəyyən qədər obyektiv yanaşmış, qalanlar heç də həmişə, bu haqda düzgün mövqe nümayiş etdirməmişlər. Bu yazıda onların hamısını araşdırmaq mümükün olmadığı üçün konkret Almaniyanın bəzi siyasətçiləri və politoqlarının mövqeyini araşdırırq.

Almaniyadakı Fridrix Ebert fondunun Cənubi Qafqaz üzrə regional bürosunun rəhbəri Feliks Hett demişdir ki, 2020-ci ildə Dağlıq Qarabağda müharibədən sonra bölgənin ermənilərin yaşadığı və atəşkəs imzalandıqdan sonra Azərbaycana qaytarılmayan

hissəsi faktiki olaraq Rusiyanın protektoratına çevrilib, eyni zamanda Avropa İttifaqının regionda nüfuzu pisləşib. Bu ifadənin ilk hissəsi ən azı qərəzlidir.

Bildirməliyik ki, 2014-cü ildə Fondun Azərbaycandakı nümayəndəliyinin bağlanması və Fondun Yerevanla sıx əlaqələr saxlaması onun Azərbaycana münasibətdə obyektivliyinin dərəcəsini əvvəlcədən müəyyən edir.

Fondun bu məlumatı ilə də razılaşmaq olmur ki, atəşkəsdən sonra Ermənistana qaçanların 70 mini geri qayıtmışdır. Rəqəmlərin hər ikisi saxtadır. Çünki Azərbaycan dəfələrlə bildirmişdir ki, keçmiş vilayət ərazisində cəmi 25 minə yaxın erməni var.

Fondun qabartdığı məsələlərdən biri də beynəlxalq hüquqa görə, tanınmamış Dağlıq Qarabağ respublikasında geri qayıdan ermənilərin məişət problemlərinin həllinə Qırmızı Xaçdan başqa heç bir beynəlxalq təşkilat yardım göstərmir.

Burada "Dağlıq Qarabağ respublikası" ifadəsinin yenə də işlənməsi ən azı beynəlxalq hüquqdan danışanın özünün buna hörmətsizliyidir.

Fondun bu mövqeyi doğrudur ki, bölgədə sülhməramlılarının sayı 4 mindən çoxdur (üçtərəfli bəyanatda razılaşdırılmış 1960 əvəzində) və rus hərbçilərinin bölgədə qalmaları haqda müqavilə 5 il müddətinə bağlansa da, görünən budur ki, ruslar bölgədə uzun müddət qalmaq niyyətindədirlər.

Fondunun Cənubi Qafqaz üzrə regional ofisinin rəhbərinin sözlərinə görə, Qarabağ müharibəsindən sonra Aİ və Almaniyanın bu regiondakı reputasiyası xeyli zəifləmişdir.

## ДЕТСКАЯ ОБРЯДНОСТЬ У НАРОДОВ КАВКАЗА

**Рена Ибрагимова**
**доктор философии по истории, доцент**
**Бакинский Государственный Университет**
**renaibrahimova.historian@gmail.com**

***Ключевые слова:*** *Кавказ, выбор и наречение имени, обряды*
***Keywords:*** *Caucasus, choice and pronoun, rhymes*

Одним из самых знаменательных событий в жизни любой семьи является рождение ребенка. Выбору и обряду наречения имени на Северном Кавказе, в том числе в Дагестане придавалось большое значение, так как имя, которое давали младенцу сразу после рождения, согласно народным верованиям, должно было оградить его от нечистой силы, которая легче справится с безымянным, не наделенным человеческим именем человеком. Стремясь связать имя с добрыми пожеланиями в жизни, мальчикам давали имена, олицетворяющие мужество, силу храбрость, а девочкам – означающие красоту, нежность, положительные черты. Желанием каждого члена семьи было, чтобы в новом представителе рода и фамилии воплотились черты человека, служившего для всех образцом для подражания. Давая имя умершего родственника, как бы возрождая его в роду, сохраняется некая преемственность поколений. В связи с этим андийцы верили в то, что имя передает качества его прежнего носителя. Осетины считали, что от удачного выбора имени зависит очень многое в жизни ребенка, определяет как его судьбу, так и привычки. Через имя передается ребенку (его новому владельцу) те же положительные или отрицательные качества, которыми при жизни обладал владелец. Когда ребенка называли именем безвременно умершего человека или подростка, то к нему чаще добавляли имена пророка Мухаммеда или Али (например, Али-Султан, Али-Акбар, Магомед-Султан, Магомед-Али и т.д.) или называли этим именем несколько детей. Двумя именами сразу нарекали ребенка в том случае, когда требовалось присвоить имена двух умерших родственников.

Если ребенок часто болел, то причину этого нередко видели в неудачном выборе имени и его меняли. По народным представлениям меняли имя и для «запутывания» нечистой силы, которая вредила ребенку, насылая на него болезни. У абазин с рождением ребенка связано немало обрядов, во время которых произносится немало пожеланий: «с рождением нового человека, пусть в ваш дом счастье течет рекой», «долголетия, огромного счастья, куда бы он не шел, пусть всегда ему сопутствует удача», «пусть ребенок, рожденный сегодня, принесет вам добро, пусть Бог даст его родителям сил и здоровья!». Обычай давать имя предоставлялось дедушке или бабушке, и при этом желали: «да будет твое имя счастливым и пусть Бог сделает твое имя значимым для тебя и людей». В случае частой смертности детей в семье, давали обычно специальные имена, которые, якобы, должны были ввести в обман злых духов, смертельно вредивших детям. Таким именам суеверие приписывает счастье, здоровье и долголетие. Так хорошими именами у ингушей, осетин, в Дагестане считались и очень многим детям давались: «Саукуыдз» - «Черная собака», «Хаевдын» - «Щенок», «Саулает» - «Черный человек», «Хъаендил», «Фындынд» - «Некрасивый» и др. В честь живых родственников имя не давали, но именем живущего дорогого близкого друга или кунака ребенка могли назвать. Предпочитали давать ребенку имя в честь умершего родственника (деда, бабушки) и т.д., особенно если он был известен при жизни своими положительными или героическими поступками. Многие мужские имена кумыков, теракеминцев, ногайцев имеют качественные характеристики: Темирболат; Бийболат; Бекболат, Эсенбулат, Бекмурза, Мирзабек; Алкъмурза, Джанболат, Таштемир, Биймурза и др. У балкарцев часто давались магические имена – Жаша (Живи), Батыр (Герой), Волду (Достаток), Балкъыз (Медовая) и др. Имена-обереги у осетин были: «Фидар» (Крепкий), «Мамжла» (Бессмертный), «Цзера» (Живи) должны были наградить ребенка этими соответствующими качествами. Среди мусульманского населения первое место занимали имена пророков, святых.

## İRƏVAN QƏZASININ ƏHALİSİ VƏ SAY DİNAMİKASI (1850-1917-Cİ İLLƏR) RUSDİLLİ MƏNBƏLƏRDƏ

**Ziyad Əmrahov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent**
**AMEA Elm Tarixi İnstitutunun Tarixşünaslıq və mənbəşünaslıq şöbəsinin müdiri**
**zamrahov@gmail.com,**
**https://orcid.org/0000-0001-6853-3311**

***Açar sözlər:*** *İrəvan qəzası, əhali, say dinamikası, rusdilli mənbələr*
***Keywords:*** *İrevan uyezd, population, population dynamics, Russian-language sources*

Tezisdə rusdilli mənbələr əsasında İrəvan quberniyasının qəzalarından biri olan İrəvan qəzasının 1850-ci ildən 1917-ci ilədək əhalisi və say dinamikası öyrənilmişdir. Məlumdur ki, Türkmənçay müqaviləsi Azərbaycanın təkcə coğrafi mənzərəsini dəyişdirmədi, müqavilənin 15-ci maddəsi isə onun əsasən, əksər bölgələrinin gələcək etnik mənzərəsinə də ciddi təsir etdi. Keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazilərinə kütləvi şəkildə həm İran, həm də Osmanlı imperiyasından erməni köçləri 1849-cu ildə yaradılmış İrəvan quberniyasında demoqrafik dəyişikliyiklərə gətirib çıxardı. Quberniyanın əksər bölgələrində 1850-ci ildən özünü göstərən bu dəyişikliklər XX əsrin

əvvəllərinə doğru etnik təmizləmə ilə müşahidə olundu. Bununla belə, XIX-XX əsrin əvvəllərində işıq üzü görmüş rusdilli mənbələr quberniyanın əsas etnosunun, say üstünlüyünün yenə də Azərbaycan türkləri (tatarlar) olduğunu təsdiqləyir. Bunu biz quberniyanın mərkəzi şəhərləri, qəza mərkəzləri, qəzaları, mahalları, kəndləri üzrə kameral təsvirlərdən, eləcə də əhali siyahıyaalınmasının nəticələrindən aydın şəkildə görə bilərik.

İrəvan quberniyası 1849-cu il iyunun 9-da yaradılmışdı. İrəvan quberniyası inzibati-ərazi cəhətdən qəzalara bölünmüşdü. Əvvəlcə İrəvan quberniyasında beş qəza var idi. Qəzalar isə sahələrə (hissələrə) ayrılırdı. Sahələr isə öz növbəsində kəndlərə bölünmüşdü. İrəvan quberniyasının ilk qəzalarından biri İrəvan qəzası idi. İrəvan qəzası 4 (sahədən) hissədən ibarət idi. Bunlar Zəngibasar, Sürməli, Şərur, Sərdar-Abad sahələri idi.

İrəvan quberniyası və onun qəzalarının əhalisi ilə bağlı ilkin məlumatlar 1853-cü ildə Sankt-Peterburqda işıq üzü görmüş "Rusiya imperiyasının hərbi-statistik icmalı"nın 16-cı cildinin 6-cı hissəsi olan "İrəvan quberniyasının icmalı"dır. İrəvan qəzası üzrə evlərin sayı 12.049 idi. İrəvan qəzasının ümumi əhalisi 114.000 nəfər idi.

1853-cü ildən sonra İrəvan qəzasında əhalinin etnik, dini, sosial və sinfi tərkibinin izlənilməsi və üzə çıxarılmasında 1879-cu ildə Tiflisdə işıq üzü görmüş "Qafqaz haqqında məlumat toplusu"nun 5-ci cildinin 1-ci hissəsi mühüm rol oynayır. Qafqaz Statistika Komitəsinin baş redaktoru N.Zeydliçin rəhbərliyi altında nəşr olunmuş toplunun 5-ci cildinin 1-ci hissəsi "Qafqaz diyarı əhalisinin yaşayış yerlərinin siyahısı (İrəvan, Kutaisi, Bakı, Stavropol və Tersk quberniyaları)" adlanır.

1873-cü il məlumatlarından aydın olur ki, İrəvan şəhərində 2.552 ev var idi. İrəvan şəhərinin əhalisi 11.938 nəfər (6.400 kişi, 5.538 qadın) idi. İrəvan qəzasında 11.457 ev var idi. İrəvan qəzasının əhalisi 84.174 nəfər (45.513 kişi, 38.661 qadın) idi. 1873-cü il məlumatlarına görə, İrəvan qəzasının əhalisi şəhərlə birlikdə 96.112 nəfər idi. Etnik tərkibinə görə, bunlardan 322 nəfəri rus, 2 nəfəri gürcü, 35.743 nəfəri erməni, 1 nəfəri polyak, 52.231 nəfəri tatar, 6.802 nəfəri kürd, 21 nəfəri yəhudi, 990 nəfəri isə aysor idi. Tatarlar 54%-lə birinci yerdə, ermənilər 37%-lə ikinci yerdə, kürdlər 7%-lə üçüncü yerdə gəlirdi.

İrəvan quberniyası, o cümlədən onun qəzalarının əhalisinin 1873-cu ildən sonrakı sayı, artımı, etnik, yaş, cins və sosial tərkibinin öyrənilməsində 1886-cı ildə ailə siyahılarından çıxarışlar əsasında tərtib olunmuş və Tiflisdə 1893-cü ildə işıq üzü görmüş "Zaqafqaziya diyarının əhalisi haqqında statistik məlumatlar toplusu" mühüm rol oynayır. 1886-cı il məlumatlarından aydın olur ki, İrəvan qəzasında 14.004 ev var idi. Qəza əhalisinin sayı 113.614 nəfər idi ki, bunun 14.738 nəfəri İrəvan şəhəri, 98.876 nəfəri isə (54.608 kişi, 44.268 nəfər qadın) İrəvan qəzasının digər bölgələrinin payına düşürdü. Həm İrəvan qəzasında, həm də qəzanın baş şəhəri olan İrəvan şəhərində tatarlar birinci, ermənilər ikinci, digər millətlər isə sonrakı yerləri bölüşürdü. Bütövlükdə, XIX-XX əsrin əvvəllərində işıq üzü görmüş rusdilli mənbələrdən aydın olur ki, İrəvan qəzasının əhalisi 1853-cü ildə 114.000 nəfər, 1873-cü ildə 96.112 nəfər, 1886-cı ildə 113.614 nəfər, 1897-ci il əhali siyahıyaalınmasının nəticələrinə görə, 150.879 nəfər olmuşdu. Məlumatlardan o da aydın olur ki, 1853-cü ildən sonra İrəvan qəzasının əhalisinin sayında kəskin azalma var idi. Bu azalmanın əsas səbəbi əvvəlcə İrəvan qəzasının 1859-cu ildə 2 qəzaya, İrəvan və Eçmiədzin qəzalarına bölünməsi, 1867-ci ildə isə Eçmiədzin qəzasının yaradılması idi. XIX əsrin sonlarından isə bölgədə erməni terrorçu şəbəkələrinin millətçilik zəminində yerli əhalini soyqırımlara məruz qoyması, sağ qalan əhalinin isə bölgəni tərk etməyə məcbur qalması İrəvan qəzasının əhalisinin həm say, həm də etnik tərkibində nəzərəçarpacaq dəyişikliklərə gətirib çıxarmışdı. 1909-cu ildə İrəvan qəzasının əhalisi (şəhərsiz) 120.486 nəfər, 1910-cu ildə İrəvan qəzasının əhalisi 156.444 nəfər, 1914-cü ildə 176.592 nəfər, 1916-cı ildə isə İrəvan qəzasının əhalisi 205.617 nəfər idi. İrəvan qəzasının əhalisinin sayı ilə bağlı 1914-cü

ildən 1916-cı ilədək keçən 2 illik dövr ərzində 20.000 nəfərlik artım var idi. Əlbəttə, bütün bunlar təbii artım hesabına baş verməmişdi. İki il ərzində bu sayda təbii artımın olması da real görünmür. Bu artım gəlmələr hesabına çoxalmışdı. Xüsusilə, 1905-1906-cı illər, eləcə də sonrakı dövr ərzində erməni terrorçu dəstələrinin bölgədə soyqırımlar törətməsi, yerli əhalinin bir bölgədən digər bölgəyə qaçmasına gətirib çıxarmışdı. Nəticədə quberniyanın bəzi qəzalarının, qəza şəhərlərinin yerli əhalisinin, tatarların sayında kəskin azalma, gəlmələrin, ermənilərin sayında isə kəskin artma müşahidə olunurdu. Bütün bunların həm 1914-cü il, həm də 1916-cı il məlumatlarında birbaşa olmasa da, "müvəqqəti yaşayanlar" başlığı altında göstərilməsi, xüsusilə bu başlıq altında ermənilərin çoxluq təşkil etməsi, deyilənləri əyani şəkildə göstərir. Bununla belə, istər bütövlükdə İrəvan qəzasının, istərsə də İrəvan şəhərinin əhalisinin say və etnik tərkibində 1917-ci ilədək tatarların üstünlüyü qalırdı.

## MİRZƏ FƏTƏLİ AXUNDOV VƏ SEYİD ƏZİM ŞİRVANİNİN BƏDİİ YARADICILIĞINDA "ERMƏNİ MƏSƏLƏSİ"NİN ƏKSİ

**Sevda İsmayılova**
**Bakı Dövlət Universiteti**
**Azərbaycan tarixi(humanitar fakültələr üzrə) kafedrası**
**tarix üzrə fəlsəfə doktoru, dosent**
**sevdaismayilova@rambler.ru**

***Açar sözlər:*** *Bədii əsərlər, tarixi gerçəkliklər çarizmin köçürmə siyasəti, "erməni məsələsi", yalançı "bəylər"*

***Keywords:*** *Fiction, historical realities, tsarist resettlement policy, "Armenian issue", false "gentlemen"*

Azərbaycan tarixinin öyrənilməsi üçün ədəbi əsərlərin tarixi baxımdan araşdırılması aktual problemlərdəndir. Belə ki, XIX əsrin II yarısı Azərbaycan bədii ədəbiyyatı Azərbaycan tarixi məsələlərinə münasibət baxımından və öyrənilməsi qaynaqlarından biri kimi önəmli rola malik olmuşdur. Azərbaycanın çar Rusiyası tərəfindən işğalı dövründə başlamış və bütün XIX əsr boyu davam etmiş köçürmə siyasəti müstəmləkəçi siyasi xəttin tərkib hissələrindən birini təşkil edirdi. Bölgədə xristianlardan ibarət hərbi-sosial dayaq yaratmaq, demoqrafik dəyişikliklərlə assimilyasiyanı gücləndirmək, iqtisadiyyatın müəyyən sahələrini inkişaf etdirmək,İran və Osmanlı dövləti ilə sərhəd boyu xristianlardan ibarət kordon (sədd) yaratmaq məqsədilə Rusiya hökuməti 1828-ci ildə İranla bağladığı Türkmənçay və 1829-cu ildə Osmanlı dövləti ilə bağladığı Ədirnə müqavilələri əsasında bu dövlətlərdən erməni əhalisini kütləvi şəkildə Şimali Azərbaycana köçürməyə başlamışdı. Köçürmə və onun ağır nəticələri XIX yüzilliyin bədii ədəbiyyatında da öz əksini tapmışdır. Ermənilərin çarizmə sədaqətlə xidmət göstərməklə yanaşı, müsəlman əhalisinə qarşı öz məkrli siyasətlərini həyata keçirməsi, əsil-nəcabətli müsəlman zadəganlarına rus hökuməti etibar etmədiyi halda, Azərbaycanda gəlmə ermənilərdən çoxlu yalançı "bəylər" yaranması və s. kimi tarixi gerçəkliklər M.F.Axundovun, S.Ə.Şirvaninin əsərlərində çox dəqiq və real şəkildə təsvir edilmişdir. Göründüyü kimi, XIX əsrin II yarısında yaşayıb yaratmış görkəmli ədiblərimizin bədii əsərləri, haqqında danışılan dövrün əsas sosial-siyasi hadisələri, rus işğalından sonra çar hökumətinin Şimali Azərbaycanda həyata keçirdiyi müstəmləkəçi siyasətin başlıca məsələləri barədə, o cümlədən ermənilərin kütləvi şəkildə köçürülüb Şimali Azərbaycan torpaqlarına yerləşdirilməsi kimi qiymətli tarixi faktlarla da zəngindir.

# ИСТОРИОГРАФИЯ ВОПРОСОВ ВОЕННОЙ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ПЕРИОД НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА

**Нармина Шовкет гызы Амирбекова**
**НАН Азербайджана Институт истории им. А.А. Бакиханова**
**Доктор философии по истории, доцент**
**zamburek@mai.ru**

***Ключевые слова:*** *Военная история Азербайджана, историография, военное искусство, стратегия*
***Keywords:*** *Military history of Azerbaijan, historiography, martial arts, strategy*

Военная история Азербайджана своими корнями уходит вглубь веков. Военно-исторические события, происходившие в Азербайджане на протяжении последних двух тысячелетий, отличались своей насыщенностью и драматизмом. Начиная с античного периода и до наших дней, Азербайджан был и продолжает до сих пор оставаться в центре острого геополитического соперничества между ведущими державами мира. Бурные военно-политические события, происходившие в Азербайджане, как столетия назад, так и в сравнительно недалеком прошлом, оказали глубокое влияние на судьбу азербайджанского народа. В многочисленных и многолетних кровопролитных войнах с иноземными завоевателями азербайджанскому народу удалось не только выжить, но сохранить и развить свою национальную самобытность и культуру.

Приобретение Азербайджаном независимости в 1991 году явилось эпохальным событием в многовековой истории азербайджанского народа. Одним из основных направлений в деле национально-государственного строительства становится создание национальных Вооруженных Сил, призванных и способных обеспечить надежную защиту независимости и территориальной целостности страны. В настоящее время Президент страны Верховный Главнокомандующий Вооруженными Силами Азербайджанской Республики И.Г. Алиев, с уверенность заявил, что у независимого Азербайджана есть достойные его Вооруженные Силы, способные защитить и укрепить его независимость.

Всестороннее и глубокое изучение богатейшего военно-исторического прошлого азербайджанского народа, особенно актуально в наши дни. В период независимости интерес к военной истории возрос. В результате появились много исследовательских работ в этой области. Эти работы можно разделить на две группы. К первой группе относятся работы обобщающего характера. К ним относятся работы С. Мамедова (Военная история Азербайджана с древнейших времен до XVII в), М. Сулейманова (Военная история Азербайджана в трех томах), Н. Алиева ( «Военна-морская история Азербайджана» «Военная история Азербайджана: ч.1. Военно-исторические события в Азербайджане в древний период»), С. Ахмедов (“100 личностей в истории Азербайджана”). Ко второй группе относятся историографические работы конкретных военно- исторических событий Азербайджана. К ним можно отнести работы Ш. Назирли (Генералы Азербайджана), М. Сулейманова («Кавказская исламская армия и Азербайджан», Армия Азербайджана (1918–1920) и др.), Н. Амирбековой «(Вопросы военной истории Азербайджана в период ханств» и др.) С. Ахмедова ( “Азербайджанская армия (1918- 1920 гг.): униформа, символы, знаки” «Азербайджанское оружие в IX—XVII вв. : эволюция и развитие» и др.), Э. Исмайлова («Азербайджанцы в конвое российских императоров» и др.), Ф. Гусейнли (Османо-Сефевидская война 1578 - 1590 гг.), И. Мамедовой («История Ленкоранского ханства в период первой русско-иранской войны»). Труды этих и других авторов раскрывают аспекты развития военного дела в разные эпохи истории Азербайджана, историю войн,

военного строительства вооруженных сил наших государств, историю военной мысли и военного искусства, историю отдельных военных личностей.

## TEYMURİ SARAYINDA AZƏRBAYCAN TARİXİNİ ƏKS ETDİRƏN SALNAMƏÇİ

**Ülviyyə Əjdər qızı İbrahimova**
**BDU, Azərbaycan Tarixi (Təbiət Fakultələri Üzrə Kafedrası)**
**dosent, t.ü.f.d.,**
**ulviya_ajdar@mail.ru**

***Açar sözlər:*** *Fəsih Xəvafi, "Mücməl-i Fəsıhı" salnaməsi, Teymurilər sarayı, Azərbaycan*

***Key words****: Fasikh Khafave, "Mujmal-I Fasikhi"s chronicle, Timured palace, Azerbaijan*

XIV əsrin sonu – XV əsrin əvvəlləri Yaxın və Orta Şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının tarixində siyasi, sosial-iqtisadi hadisələrlə son dərəcə zəngin olan dövrdür. Bu dövrün kifayət qədər mürəkkəb və qarmaqarışıq siyasi tarixinə ilkin qaynaqların, xüsusilə də narrativ mənbələrin yaxından yardımı olmadan aydınlıq gətir-mək, demək olar ki, mümkün deyildir. Bu dövrün çoxsaylı qaynaqları içərisində Fəsih Xəvafinin «Mücməli Fəsihi» xronikasının özünəməxsus yeri vardır. Azərbaycan tarixinin bu dövrünü Teymurilər sarayında yaşamış, mühüm vəzifələrdə çalışmış, dövrünün savadlı və yaradıcı şəxslərindən biri olan Fəsih Xəvafi müasiri olduğu dövrü olduqca sərrast və dəqiq ifadələrlə istifadə etdiyi qaynaqlara istinadən salnaməsində əks etdirmişdir. Bu məruzədə "Mücməl-i Fəsihi" əsərinin müəllifinin həyatı tədqiq edilmiş, onun kimliyi, fəaliyyəti məhz özünün qələmə aldığı əsərə və dövrünün digər qaynaqlarına əsasən müəyyən edilmişdir.

Fəsih Xəvafinin həyatı, onun ictimai-siyasi fəaliyyəti haqqında məlumatlar olduqca azdır. Bir qayda olaraq, orta əsr salnaməçilərinin həyatı haqqında məlumatları onların əsərlərindən əldə etmək mümkün olur. Müəllifin dövrümüzədək gəlib çatmış yeganə əsəri «Mücməli Fəsihi» də onun həyatı haqqında məlumatlar həddindən artıq az və ötəri xarakterlidir. Fəsih Xəvafinin müasirləri olmuş Muinəd-din İsfizari, Katib Turşizi Nişapuri, Əlişir Nəvai və başqaları isə onun haqqında çox qısa məlumatlar verirlər. Bütün bunlara baxmayaraq, müəllifin bioqrafiyası haqqında bəzi məlumatları müəyyənləşdirmişik.

Azərbaycan tarixinin XIV-XV əsrlər dövrünün tədqiqində Fəsih Xəvafinin "Mücməl-i Fəsihi" əsəri yeni məlumatların, artıq elmə məlum olan bir sıra tarixi siyasi hadisələrin və inzibati idarəçilikdə istifadə edilən vəzifələrin dəqiqləşdirilməsinə kömək etmişdir. Azərbaycan tarixini özündə əks etdirən farsdilli qaynaqlar sırasında "Mücməl-i Fəsıhı"nin özünəməxsusluğundan biri də bu əsər vasitəsilə bizim dövrümüzədək gəlib çatmayan, ancaq Fəsih Xəvafinin istifadə etdiyi əsərlər haqqında məlumatların da əldə edilməsidir. «Mücməli Fəsihi» salnaməsində tədqiq olunan dövrdə Azərbaycanda mövcud olan torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyət sistemi haqqında da maraqlı materiallar öz əksini tapmışdır. Salnamənin materialları iqta torpaq mülkiyyəti formasının soyurğalla əvəzlənməsi prosesini izləməyə imkan verir. Araşdırma nəticə-sində müəyyən edilmişdir ki, bəzi tədqiqatçıların iddia etdiyi kimi Azərbaycanda soyurğal torpaq sahibliyi forması heç də XIV əsrin son rübündə meydana çıxmamışdır. F.Xəvafinin faktları sübut edir ki, XIV əsrin 60-cı illərindən Azərbaycanda soyurğal torpaq mülkiyyəti anlayışı mövcud olmuşdur.

F. Xəvafinin salnaməsi XIV-XV əsrlərdə Teymurilər dövlətinin, o cümlədən Azərbaycanın inzibati idarə sistemi haqqında məlumatlarla zəngindir. Salnamədə mühüm dövlət təsisatı olan divan, onun ayrı-ayrı növləri, mərkəzi idarəçilik aparatında

ali mülki mənsəb olan vəzir, onun hüquq və səlahiyyətləri haqqında maraq doğuran faktlar verilmişdir. F.Xəvafinin materialları XIV-XV əsrlərdə Azərbaycan dövlətlərinin idarəetmə iyerarxiyasında mühüm mövqe tutan əmir əl-üməra, əmir, şeyxülislam, qazi, naib, inaq, nəqib və s. mənsəblərin, inzibati idarə aparatının təvaçi, daruğə, şihnə, əsəs, kutval, bəkavul, sərkar, çuxra və s. mahiyyətinin açılmasında mühüm rol oynayır.

F. Xəvafinin «Mücməli Fəsihi» salnaməsi XIV əsrin sonu-XV əsrin əvvəllərində Teymurilər dövləti ilə yanaşı, Azərbaycanın siyasi, sosial-iqtisadi, ictimai münasibətlərinin, inzibati idarəetmə sisteminin öyrənilməsi üçün mühüm qaynaqlardan biridir.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ SİLAHLI QÜVVƏLƏRİNİN FORMALAŞDIRILMASI VƏ TƏŞKİLİ MƏSƏLƏLƏRİ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN PARLAMENT SƏNƏDLƏRİNDƏ

**Samir İsmayılov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent əvəzi**
**BDU-nun Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası**
**samir.ismayilov@mail.ru**

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, parlament, müzakirə, ordu quruculuğu, qanun*

***Keywords:*** *Azerbaijan Democratic Republic, parliament, discussion, army formation, law*

Tezisdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə silahlı qüvvələrin formalaşdırılması və təşkili məsələləri Azərbaycan Xalq Cümhuriyyətinin Parlament sənədləri əsasında araşdırılır. Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı tarixi şərait, bu dövrdə regionda cərəyan edən proseslər xalqın müstəqilliyini və ölkənin ərazi bütövlüyünü qorumağa qadir olan ordunun formalaşdırılmasını tələb edirdi. Buna görə də ordunun yaradılması məsələsi yarandığı gündən xarici müdaxiləyə-bolşevik təcavüzünə məruz qalmış Azərbaycan Xalq Cümhuriyyəti üçün ən vacib məsələyə çevrilmişdi.

Ordu quruculuğu, mövcud hərbi hissələrin komplektləşdirilməsi, onları vahid rəhbərlik altında birləşdirmək, mərkəzi hərbi idarəetmə orqanlarını yaratmaq və s. bu kimi məsələlərin həllinin və məsuliyyətinin bir qismi də qanunverici orqanın-parlamentin payına düşürdü.

Mudros barışığının şərtlərinə əsasən türk hərbi qüvvələri Azərbaycanı tərk etdikdən sonra ölkənin müdafiəsinin təşkilində yeni mərhələ başlandı. Bu mərhələdə bütün ağırlıq Azərbaycan Hökumətinin üzərinə düşdü. Türk hərbi qüvvələri Azərbaycanı tərk edəndə ölkənin müdafiəsini öz üzərinə götürməyə qadir olan müstəqil milli ordu hələ formalaşmamışdı. Bir tərəfdən əsas diqqətin döyüşlərin aparılmasına yönəldilməsi, digər tərəfdən də, milli ordu quruculuğuna rəhbərlik edən bəzi türk zabitlərinin əsaslandırılmamış struktur eksperimentlərinə, xidmətin təşkilində və çağırış-səfərbərlik işlərinin aparılmasında nöqsanlara yol verməlari Azərbaycan ordusu hissələrinin formalaşmasını ləngidirdi. Bu vəzifənin həllinə nail olmadan ölkənin müdafiəsini də etibarlı şəkildə təşkil etmək mümkün deyildi. Ona görə də Nazirlər Şurası Hərbi Nazirliyin yaradılması haqqında qərar qəbul etdi. Hökumətin və Hərbi Nazirliyin ölkənin müdafiəsinin təşkili və ordu quruculuğu istiqamətində ümumdövlət mənafelərini əks etdirən qarşılıqlı fəaliyyəti güclü hərbi qüvvələrin yaradılmasına yol açdı.

Azərbaycan Xalq Cümhuriyyəti silahlı qüvvələrinin formalaşdırılması və təşkili məsələləri bu və ya digər dərəcədə parlament sənədlərində öz əksini tapmışdır. Bu

sənədlərdə ilk növbədə parlament üzvləri və hökumət nümayəndələrinin hərbi quruculuq işinə münasibəti, ordunun mövcud durumu, ümumi vəziyyəti və problemləri, ölkədə aparılan hərbi quruculuq işləri haqqında qiymətli məlumatlar əks olunmuşdur.

## BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ "DÖRDLƏR İTTİFAQI"NA DAXİL OLAN DÖVLƏTLƏRİN QARŞILIQLI MÜNASİBƏTLƏRİ

**Zərifə Nəzirli**
**BDU, t.ü.f.d.**
**nezirli.zerife@gmail.com**

***Açar sözlər:*** *Dördlər İttifaqı, Osmanlı, Almaniya, Avstrya-Macarıstan, müttəfiq, toqquşan maraqlar*
***Keywords:*** *Central Power, Ottoman, Germany, Austria-Hungary, ally, conflicting interests*

Dövlətçilik və siyasi baxımdan dövlətlər arasında birliklər, ittifaqlar tarixin ən qədim dövrlərindən mövcud olmuştur. Həmin ittifaqlar dövlətlərin başqa dövlətlərin hərbi müdaxiləsi, işğalçılıq siyasəti zamanı öz ərazilərini və xalqlarını, vətəndaşlarını birgə qorumaq məqsədi daşımışdır. Bununla yanaşı, ittifaqların bağlanmasında əsas məqsədlərdən biridə digər ərazilər hesabına dövlətin ərazisini böyütmək olmuşdur. Həm də regionda digər dövlətlər üzərində təsir imkanlarını bölüşdürmək istəyinidə buna aid etmək olar. Belə ittifqalara yaxın tariximizdə gördüyümüz "Antanta" və Dördlər İttifaqı"-nı misal göstərə bilərik. Bu ittifaqlar Avropanın eləcədə, dünyanın bölüşdürülməsi uğrunda bir biriylə müharibəyə getmişlər.

Dördlər İttifaqının tarixi **1879**-cu ilin oktyabr ayının 7-də Alman imperiyası ilə Avstriya-Macarıstan arasında yaradılan ikili ittifaqa dayanır. Beləki, Balkanlardakı siyasi gərginlikdən istifadə edən Avstriya-Macarıstan 1878-ci ildə **Bosniya**-Hersoqovinanı işğal edir və sonradan birbaşa Vyanaya tabeçiliyini elan edir. Ümumilikdə Avropadakı Rus və Fransız mənafelərinə qarşı mübarizə apara bilmək üçün Avstriya 1879-cu ilin oktyabrında Almaniya ilə ittifaqa girmişdir.

İtaliyanın Tunisə hücuma hazırlaşdığı bir vaxtda **Fransa Tunisi** işğal etdi (1881). Bu zamana qədər qaydasında olmayan Fransa-İtaliya münasibətləri daha da pisləşdi. Belə vəziyyətdə Fransa kimi güclü bir rəqibə qarşı İtaliya Almaniyaya ittifaq təklif etdi. İtalyanın Tiyest və Trentino üzərindəki iddialarından əl çəkməsi şərtiylə İtalya 1882-ci ildə ittifaqa qoşulur. 2 Noyabr 1914-cü ildə isə Osmanlı İmperiyası ittifaqa qoşulur.

1914-cü ildə Avstriya-Macarıstan və Almaniya Britaniya, Rusiya, Fransa ittifaqına qarşı müharibəyə başlayır. Lakin Üçlü ittifaq ilk əvvəllər müdafiə məqsədli yaradılan ittifaq olsa da Almaniya və Avstriya-Macarıstan hücuma keçdikdə İtaliya müharibəyə qoşulmaqdan imtina edir. İtaliya daha sonra müharibəyə Antanta tərəfindən qoşulmuşdu. 1915-ci ilin mayın 3-də İtaliya Üçlər ittifaqından çıxır və mayın 23-də isə Avstriya-Macarıstana müharibə elan edir. 1915-ci ildə Bolgarıstan Krallığınında ittifaqa qoşulması ilə "Dördlər İttifaqı" tamamlanır.

Müharibə dövründə ittifaq dövlətləri arasında siyasi, ticari və ən əsası hərbi münasibətlər qarşılıqlı şəkildə davam etmişdir. Ölkələr arasında cəbhələrə orduların göndərilməsi və qida yardımları qələbənin təmin olunması üçün çox vacib amillərdən olmuşdur. Tədqiqat işində, "Dördlər ittifaqının" Birinci Dünya Müharibəsinin başlanğıc dövrü, müharibə illəri və Paris sülh Konfransını əhatə edən tarixi şəraiti araşdırılmışdır. Müharibə əsnasındakı ölkələr arası münasibətlər, fərqli dildən və aspektdən yanaşan qanyaqlara istidan edilərək tədqiq edilmişdir.

Arxiv sənədləri və yayınlanmış qəzetlərin təhqiqiylə əldə olunan resurslar, tezisin əsas yeniliyini təşkil etməkdədir. Rusiya dövlət arxivi və Başbakanlık Osmanlı arxivindən əldə edilən təhqiqat bazasıyla məsələyə yenidən daha dəqiq çərçivəli və əhatəli baxılacaqdır.

## XIII-XIV ƏSRLƏR AZƏRBAYCAN TARİXİNİN İNGİLİSDİLLİ TARİXŞÜNASLIQDA TƏDQİQİNƏ BAXIŞ

**Nurlan Nəsirov**
**Qərbi Kaspi Universiteti, t.ü.f.d**
**Nurlan.pasha@wcu.edu.az**

***Açar sözlər:*** *Azərbaycan tarixi, ingilisdilli, tarixşünaslıq, İlxanlılar*
***Keywords:*** *Azerbaijani history, English - language, historiography, Ilkhanate*

Azərbaycanın XIII –XIV əsrlər tarixi ötən əsrin əvvəllərində Sovet tarixşünaslığında, əsrin ikinci yarısında isə Azərbaycan tarixçiləri tərəfindən tədqiq edilmiş və fundamental elmi əsərlər ərsəyə gətirilmişdir. Ancaq bu tədqiqatlarda dövrün ideoloji tələblərinə görə “burjua” adlandırılmış Qərb tarixçilərinin əsərlərindən cox az istifadə olunmuşdur. Bu da dövrə aid tarixi proseslərə kompleks yanaşmağa imkan vermir. Halbuki, ingilisdilli tarixçilərin müxtəlif məsələlərə (xüsusilə siyasi, dini, beynəlxalq münasibətlər) yeni və fərqli yanaşmaları Sovet tarixçilərinin araşdırmaya cəlb etmədikləri problemləri öyrənməyə imkanlar yaradır. Hal-hazırda ideoloji basqılardan azad olan müstəqil Vətən tarixşünaslığında Qərb tarixçilərinin (xüsusilə ingilisdilli) əsərlərini də tədqiqata cəlb edərək problemi daha dərindən araşdırmağa münbit şərait yaranmışdır. Məqalədə qeyd olunan dövrdə Azərbaycanın etnik, siyasi, dövlət quruluşu, tarixi-coğrafiyası, mədəniyyətinə aid bəzi məsələlər ingilisdilli tarixşünaslıq əsasında təhlil olunmuşdur.

## RUY GONZALES DE KLAVİXONUN “SƏYƏHATNAMƏ”Sİ AZƏRBAYCAN TARİXİNİN MƏNBƏSİ KİMİ

**Zəhra İslamova**
**Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası, t.f.d., zahraislamova@bsu.edu.az**

***Açar sözlər:*** *XV əsr, Ruy Gonzales de Klavixo, səyahətnamə, Əmir Teymur, Azərbaycan*
***Keywords:*** *XV century, Rui Gonzales de Clavijo, travelogue, Amir Temur, Azerbaijan*

Bir dövlətdən digər dövlətlərin ərazisinə göndərilən səyyah, tacir və diplomatik nümayəndələr öz səyahətləri ərzində yolda gördüklərini, qarşılaşdığı şəxslər, siyasi hadisələri, eşitdikləri məsələləri öz gündəliklərində - səyahətnamələrində qeyd edirdilər. Səyahətnamələrdə təkcə rəsmi siyasi məsələlər deyil, eləcə də iqtisadi, sosial, mədəni, etnoqrafik və linqvistik məlumatlar da qeyd edilirdi. Səyahətnamələrdəki məlumatların sistemli olmayıb, pərakəndə şəkildə olması tədqiqat zamanı müəyyən çətinliklər yaratsa da, ilkin mənbə olaraq burada verilən məlumatlar dövrün öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycandan keçən hər bir tacir, səyyah, diplomatlar öz gündəlik vəsəyahətnamələrində keçdiyi bölgələr haqqında məlumatlar qeyd etmişdilər.

Tarixdə baş vermiş siyasi prosesləri izləmək və müqayisəli təhlillər aparmaq məqsədilə bu səyahətnamələrin tədqiqi mühüm əhəmiyyət kəsb edir.

Ruy Gonzalez de Klavixo (?-1412) ispan səyyah və diplomatı olmuş, Əmir Teymur ilə diplomatik münasibətlər yaratmaq məqsədilə Kastilio sarayı tərəfindən Səmərqəndə göndərilmişdi. Mühüm missiyanın rəhbəri olaraq diplomatik nümayəndə heyəti ilə Mərkəzi Asiyaya yollanan de Klavixo Azərbaycan ərazisindən keçmiş və ölkə haqqında mühüm məlumatlar vermişdi. Məhz bu səbəbdən XV əsrin ilk illərinin tarixinin və Azərbaycanda gedən siyasi proseslərin öyrənilməsi, bölgənin iqtisadi, topqrafik, linqvistik və mədəni problemlərinin tədqiqi üçün Ruy Gonzales de Klavixonun "Səyahətnamə"sinin araşdırılması vacibdir. Səyahətnamədə səfir tərəfindən elə məsələlər işıqlandırılmışdı ki, dövrün digər mənbələrində bunu izləmək mümkün deyil. Səyahətnamənin bu cəhəti ilkin mənbənin mahiyyətini daha da artırır. Siyasi, iqtisadi, sosial və əlalxüsus da etnoqrafik, toponimik, linqvistik baxımdan səyahətnamədə verilən məlumatlar Azərbaycanın XV əsr tarixinin öyrənilməsi baxımından xüsusi əhəmiyyətlidir. Klavixonun Səmərqəndə səyahəti zamanı beynəlxalq vəziyyətin mürəkkəbliyi, siyasi hadisələrin zənginliyi, Əmir Teymur ilə İldırım Bəyazidin siyasi mübarizəsi və bu münaqişə ətrafında ətraf bölgə hakimlərinin, xüsusilə Anadolu bəyliklərinin, Baharlıların, Bayandurluların fəaliyyəti və siyasi addımlarını bu səyahətnamə əsasında izləmək mümkündür.

## XIX ƏSRDƏ ŞAMAXIDA İNZİBATİ-ƏRAZİ DƏYİŞİKLİKLƏRİ VƏ ƏHALİNİN SAY TƏRKİBİNƏ DAIR

**Ulduz Miri qızı Paşayeva**
**BDU, Tarix fakültəsi ETL-nin böyük elmi işçisi**
**star.miri@mail.ru**

***Açar sözlər:*** *Şamaxı, XIX əsr, Qafqaz inzibati idarəsi*
***Key words:*** *Shamakhi, XIX century, Caucasus administrative department*

1747-1820-ci illərdə Azərbaycan ərazisində mövcud olan Şamaxı xanlığının (Şirvan xanlığı da adlanıb) P.Q.Butkovun 1869-cu ildə Sankt-Peterburqda nəşr olunan "Qafqazın yeni tarixinin materiallarına dair 1722-ci ildən 1803-cü ilə qədər" əsərində Şirvan Şamaxı xanlığı kimi qeyd edilirdi.

Azərbaycanın ən iri xanlıqlarından olan Şamaxı xanlığının tabe edilməsi çar Rusiyası üçün bütün Şimali Azərbaycanın ələ keçirilməsində mühüm əhəmiyyət kəsb edirdi. Azərbaycan torpaqlarında öz işğalçı siyasətini yeridən Rusiya 1805-ci il may ayının 14-də bağlanmış Kürəkçay müqaviləsinin şərtlərinə görə, həmin ilin dekabrın 25-də Şamaxı xanı Mustafa xanı Rusiya imperiyasını tanımağa məcbur edir.

Şamaxı xanlığı digər xanlıqlar arasında mərkəzi mövqe tuturdu. Rusiya ilə Qacarlar İranı arasında bağlanan 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay sülh müqavilələrinə görə, bütün Şimali Azərbaycan və İrəvan xanlığı da daxil olmaqla Rusiya imperiyasının tabeliyinə keçdi. Rusiya imperiyasının Şimali Azərbaycanda apardığı hərbi-strateji və sosial-iqtisadi siyasət Şamaxının da inzibati-ərazi bölgüsünə və əhalisinin say tərkibinə ciddi təsir göstərmişdi.

Güclü zəlzələlərin (1192, 1667, 1669, 1845, 1859, 1872 və 1902-ci illər) təsiri nəticəsində Şamaxı şəhəri tamamilə dağılmış, bu da minlərlə insan tələfatına gətirib çıxartmışdı. Bu zəlzələlərin törətdiyi dağıntılar nəticəsində sağ qalan əhali başqa ərazilərə köçürülmüş və Şamaxı bərpa olunduqdan sonra əksəriyyəti yenidən şəhər, mahal və obalarına qayıtmışdı.

Çar Rusiyasının 1840-cı il 10 aprel tarixli inzibati islahatına əsasən Kaspi vilayətinin tərkibində yaradılmış Şamaxı qəzası Quba, Bakı, Cavad və Göyçay qəzaları ilə həmsərhəd idi.

Çar I Nikolayın 1846-cı il 14 dekabr tarixli inzibati islahatına əsasən Cənubi Qafqaz Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyalarına bölünürdü. Kaspi vilayətinə daxil olan qəzalar isə Şamaxı quberniyasına birləşdirildi. Azərbaycanın ərazisinin əsas hissəsi isə Şamaxı quberniyasının tərkibinə daxil edildi.

1849-1850-ci il Qafqaz təqviminin materiallarına əsasən Şamaxı qəzasında əhalinin yerləşməsini araşdırarkən aydın olur ki, şəhərdə hər iki cinsə aid - 20.150 nəfər əhali qeydə alınmışdır. Onlardan 10.351 nəfəri kişi, 9.798 nəfəri isə qadın cinsinə mənsub olmuşdur. Əhalinin əsas hissəsi bəylərdən, ruhanilərdən, tacirlərdən, sənətkarlardan ibarət idi. Digər bir məlumata əsasən, Şamaxıda hər iki cins daxil olmaqla əhalinin sayı 20 min nəfər qeyd edilmişdir. Bakı quberniyasının Göyçay qəzasının sahəsi 4.156 kvadrat verst və ya 86 kvadrat mil, Bakı qəzasının sahəsi 5.768 kvadrat verst və ya 118 kvadrat mil təşkil edirdi. Nəticə etibarilə Göyçay qəzası bütün quberniyanın 12.22 %-ni, Şamaxı qəzası isə 16.73 %-ni təşkil etmişdi.

1851-ci ildə Rusiyada əhali sayının araşdırılması ilə əlaqədar həyata keçirilmiş IX təftiş komissiyasının məlumatlarına əsasən inzibati-ərazi baxımından Bakı, Şamaxı, Lənkəran, Nuxa və Şuşa qəzalarını əhatə edən Şamaxı quberniyasının əhalisi 603.006 nəfər idi ki, onların 319.923 nəfəri kişi, 283.083 nəfəri isə qadın olduğu qeyd edilmişdir.

1867-ci il dekabrın 9-da "Qafqaz və Cənubi Qafqaz idarəçiliyinin yenidən təşkil olunmasına dair" fərmanı ilə Şimali Azərbaycan torpaqları hesabına Yelizavetpol quberniyası yaradılmışdı.

Qafqaz təqviminin statistik göstəricilərinə əsasən, Şamaxı şəhərində 1885-ci ildə əhalinin ümumi sayı 28.312 nəfər, 1886-cı ildə 22.139 nəfər olmuşdur. 1893-cü ildə mərkəzi Şamaxı şəhəri olan qəza 3 bölgədən, 99 icmadan, 209 yaşayış məntəqəsindən, 14.088 evdən ibarət idi. Qəzada 51.789 nəfər kişi, 42.591 nəfər qadın olmaqla, cəmi 94.380 nəfər əhali yaşayırdı. Şəhər əhalisinin sayı 22.139 nəfər idi. Lakin Ümumrusiya siyahıyaalma materiallarına əsasən 1897-ci ildə Şamaxı şəhərində əhalinin ümumi sayı 20.008 nəfər göstərilirdi. Burdan belə məlum olur ki, əvvəlki illərə nisbətən XIX əsrin sonunda əhalinin sayında azalma müşaiyət olunurdu.

XIX əsrin axırlarında Şamaxı şəhərində on beş məhəllə olmuşdur: Ərəblər, Ərdəbilli, Dərə, Cuhud, İmamlı, Qala bazar, Kürd, Meydanlı, Sarı torpaq, Talış, Ucarlı, Şeyx Zahirli, Şeyx Namaz, Şapirli və Yuxarı qala. Hər bir məhəllə də müxtəlif küçə və dalanlara ayrılırdı.

1897-ci ildə Şamaxı qəzasının sahəsi 6.653 kv. km., əhalisi isə 123.610 nəfər idi. Şamaxı qəzasının mərkəzi Şamaxı şəhəri idi.

Beləliklə, Şamaxı şəhəri xanlıqlar dövründə həm paytaxt statusunu, həm də iqtisadi, siyasi və mədəni əhəmiyyətini qoruyub saxlamışdır. Müharibələrə, işğallara, dağıntılara və təbii fəlakətlərin törətdiyi itkilərə baxmayaraq Şamaxı şəhəri həmişə strateji məkan kimi qonşu dövlətlərin diqqət mərkəzində olmuşdu. Şamaxının ipək yolu üzərində yerləşməsi isə şəhərin iqtisadi inkişafı üçün əlverişli şərait yaratmışdı. İnzibati islahatların keçirilməsi və əhalinin say tərkibinin dəyişməsi də bu bölgənin sosial-iqtisadi və demoqrafik vəziyyətinə əsaslı təsir göstərmişdir.

## XIX ƏSRDƏ AZƏRBAYCANDA BAŞ VERƏN TARİXİ-DEMOQRAFİK PROSESLƏRİ ÖYRƏNMƏK ÜÇÜN MƏNBƏLƏR VƏ TƏDQİQATLAR

**Səidə Quliyeva**
**Bakı Dövlət Universiteti, "Dünya azərbaycanlıları: tarixi demoqrafiya elmi tədqiqat laboratoriyasının böyük elmi işçisi, dosent**
**saidaquliyeva@bsu.edu.az**

***Açar sözlər**: tarixi-demoqrafiya, Azərbaycan tarixi, XIX əsrə aid mənbələr, Rusiya imperiyası*
***Keywords:** historical-demography, history of Azerbaijan, sources of the XIX century, Russian empire*

XIX əsrdə baş verən hərbi-siyasi və sosial-iqtisadi prosesləri dövrün mənbələri əsasında araşdırmaq, bu mövzuda olan tədqiqatları təhlil etmək Azərbaycanın tarixi-demoqrafik vəziyyətini aydınlaşdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Bunun üçün əsas vəzifələr mənbələrin xarakteristikasını müəyyən etmək, mənbələrdə və onların əsasında yazılan tədqiqatlarda əks olunan mövzuları tədqiq etməkdir.

**Mənbələr:** Rusiya imperiyası Qafqazı, xüsusilə Şimali Azərbaycanı işğal etdikdən sonra ərazinin təbii sərvətləri, iqtisadi potensialı və əhalisi barədə məlumatlar əldə etmək üçün tədbirlər görməyə başlandı. İmperiyanın müstəmləkələyə olan münasibəti regionun öyrənilməsi məqsədlərində aydın təzahür olunur. Mənbələr də bu fikri təsdiq edir. Tədqiqatçılar XIX əsrə aid mənbələri Qanunvericilik aktları, Rəsmi dövlət sənədləri, iqtisadi münasibətləri əks etdirən materiallar, statistik-demoqrafik qaynaqlar və yerli tarixi əsərlər deyə qruplaşdırırlar. Yeni siyasi, sosial-iqtisadi proseslərlərlə əlaqədar həm mənbələrin sayı artır, həm də rus dilli mənbələr yaranır.

XIX əsr mənbələrinin əsas hissəsi rəsmi sənədlər olduğu üçün tarixi-demoqrafik tədqiqatlar zamanı ciddi nəticələr əldə etmək olur. Bu mənbələr sırasında demoqrafik vəziyyəti aydınlaşdırmaq üçün istifadə ediləcək bir sıra mühüm mənbələr vardır.

**Tədqiqatlar.** Əldə edilən mənbələr əsasında həm sovet, həm də müstəqllik dövründə Azərbaycan tarixinin bir çox aktual məsələləri tədqiqata cəlb edilmişdir. Bu materialları təhlil etməklə tarixi-demoqrafik proseslərin nə dərəcədə əks edildiyini araşdıra bilirik. Qeyd etmək vacibdir ki, Azərbaycan əhalisinin tarixi-demoqrafik tarixi əsasən Bakı Dövlət Universitetinin Tarix fakültəsində fəaliyyət göstərən "Dünya azərbaycanlıları: tarixi demoqrafiya" elmi tədqiqat laboratoriyasında və AMEA-nın A.A.Bakıxanov adına tarix İnstitutunda tədqiq edilmişdir.

Sonda belə nəticəyə gəlmək olur ki, Azərbaycan tarixinin XIX əsr dövrünə aid yazılan ümumi əsərlərdə və digər tədqiqatlarda siyasi hadisələrin, xüsusilə hərbi əməliyyatların, sosial-iqtisadi münasibətlərin əhalinin say dinamikasına və miqrasiyasına təsiri qısmən araşdırılmışdır. XIX əsrdə Azərbaycan əhalisinin tarixi-demoqrafik proseslərinin kompleks tədqiqinə geniş ehtiyac vardır.

## "KİTABİ-DƏDƏ QORQUD" EPOSU TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

**Nurlan Abbasov**
**BDU, Tarix fakültəsi, "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrası, dosent**

***Açar sözlər:** Dədə Qorqud, mənbə, epos, Türkiyə*
***Keywords:** Dada Gorgud, source, epic, Turkey*

Dünya təcrübəsindən məlumdur ki, hər bir ölkənin tarixini öyrənmək üçün müvafiq mənbələr mühüm əhəmiyyət kəsb edir. Bu mənada "Kitabi-Dədə Qorqud" eposu oğuz

türklərinin, o cümlədən Azərbaycan xalqının tarixini öyrənmək üçün misilsiz mənbədir. Bu qəhrəmanlıq eposı Azərbaycanın tarixidir. “Kitabi-Dədə Qorqud” boylarındakı çox qiymətli məlumatlar, real tarixi faktlar, bu istiqamətdə aparılan müqayisəli elmi araşdırmalar sübut edir ki, oğuz türkləri dünyanın ən qədim, həm də çox zəngin maddi və mənəvi mədəniyyət yaratmış xalqlarındandır.

Azərbaycan xalqının tarixinin, etnik yaddaşının güzgüsü olan “Kitabi Dədə Qorqud” nitqimizin, dilimizin, mənəviyyatımızın, ruhumuzun nəğməsi kimi də böyük mədəni-estetik əhəmiyyət kəsb edir.

Bu baxımdan Azərbaycan xalqının ana qaynağı olan “Kitabi-Dədə Qorqud” eposu XX əsrin əvvəllərindən başlayaraq Türkiyəə tədqiq və nəşr olunmağa başlayır. 1916-cı ildə Kilisli müəllim Rüfət Drezden nüsxəsini Berlin Kral kitabxanasındakı surətinə əsasən İstanbulda ilk dəfə bütövlükdə nəşr etdirir. Bu hadisədən 22 il sonra 1938-ci ildə Orxan Şaiq Kökyay Drezden nüsxəsinin özünü o vaxta qədər təsadüf etdiyi bütün tədqiqat əsərlərinin xülasəsindən ibarət böyük bir müqəddimə ilə yeni türk əlifbasında çap etdirmişdir.

Eposun tədqiqi sahəsində Türkiyə Cümhuriyyətində növbəti addım Məhərrəm Ergin tərəfindən atılmışdır. Müəllif Drezden və Vatikan nüsxələrinin fotofaksimilesini 1963-cü ildə nəşr etdirmişdir. Qeyd etmək lazımdır ki, ən çox tədqiqat işi aparılan Türkiyə Cümhuriyyətində “Kitabi-Dədə Qorqud” ya bütünlüklə türk-osmanlı ədəbiyyatı nümunəsi, ya Azərbaycan ərazisində baş verən hadisələrin inikası kimi götürülür, ya da tədqiqatçılar Dədə Qorqud eposlarını Osmanlı torpağı ilə bağlamağa çalışırlar. Bu, çox zaman yer adlarının təhrifi yolu ilə edilir. Məsələn, boylarda “xalq”, “camaat” mənasında olan “ümmət” sözü Amid şəhərinin adı kimi götürülür və bununla da əslində “ümmət soyunun aslanı”, yəni xalq kütləsinin dayağı, tərəfdarı, qəhrəmanı adlanan Qazan xan və Bayandur xan “Amid soyunun aslanı” kimi təqdim olunur. Halbuki, “Amid” yaxud “Həmid” qalası Dədə Qorqud qəhrəmanlarının dağıtdığı düşmən qalalarından biridir. Deməli, oğuz qəhrəmanları olan Qazan xan, yaxud Bayandur xan heç də özünə doğma olmayan bir yerin aslanı kimi mədh edilə bilməzdi.

## AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAF TARİXİ

**Dəyanət Musayev Musa oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**“Ümumi tarix və tarixin tədrisi texnologiyası” kafedrasının baş müəllimi,**
**pedaqogika üzrə fəlsəfə doktoru**

***Açar sözlər:*** *təhsil, məktəb, müasir təlim, təhsil tarixi, qabaqcıl təcrübə*
***Keywords***: *education, school, modern training, educational history, best practices*

Tarixi mənbələrdə qeyd olunur ki, Azərbaycanda ibtidai savad təlimi verən ilk məktəblərin yaranması yeni eranın əvvəllərinə təsadüf edir. VII əsrdə artıq təhsil sistemi formalaşmaqda idi. X-XIII əsrlərdə Azərbaycanın bir çox şəhərləri, o cümlədən Təbriz, Marağa, Gəncə, Naxçıvan, Şamaxı, Ərdəbil, Şərq aləmində elm, təhsil, incəsənət və mədəniyyət mərkəzləri kimi tanınırdı. XIII-XIV əsrlərində təhsil və elm sahəsindəki canlanma və inkişaf, bir sıra tanınmış təhsil ocaqlarının fəaliyyəti diqqəti cəlb edir. Onlardan Təbrizdə "Qazaniyyə", "Şeyx Kəmaləddin Xocəndi", "Fələkiyyə", "Qazi Şeyx Əli", "Dəməşqiyyə", "Məqsudiyyə", "Nəsriyyə", "Müzəffəriyyə" mədrəsələri geniş fəaliyyət göstərmişlər. Bakıda "Şah məscidi" yanında mədrəsə, Seyid Yəhya mədrəsəsi, Ərdəbildə Şeyx Səfi məqbərəsi nəzdindəki "Darül-irşad", Dərbənddə məhəllə məscidi yanındakı mədrəsənin fəaliyyəti daha qabarıq şəkildə özünü büruzə verirdi.

Bu dövrdə orta təhsillə yanaşı, geniş ərazidə tanınmış ali təhsil müəssisələrinin də fəaliyyət göstərdiyi xəbər verilir. Təbrizdə "Rəbi-Rəşididə" darülfünunu Yaxın və Orta Şərqin ən böyük təhsil ocağı idi. Bu ali məktəbdə 7 min tələbə təhsil alırdı. Burada Çin, Hindistan, Misir və Suriyadan dəvət olunmuş 500 nəfər alim tədris işilə yanaşı, həm də əhalinin müalicəsilə məşğul olmuşlar.

XVI-XVII əsrlərdə elmlə yanaşı təhsil də inkişaf etmiş, bir sıra yeniliklər baş vermişdir. Keçən əsrlərdə olduğu kimi, bu dövrdə də təlim-təhsil məsələlərinə din xadimləri rəhbərlik edirdi. Tələbələr yenə də məscidlərdə, şəxsi evlərdə təşkil edilən məktəb və mədrəsələrdə təhsil alırdılar. Uşaqlar əvvəlcə ana dilində, yuxarı siniflərdə isə ərəb və fars dillərində təhsillərini davam etdirirdilər. Əlifbanı tamam- kamal öyrəndikdən sonra "Quran"ı əzbərləyirdilər. Təhsil ocaqlarında ilahiyyat dərsi geniş tədris edilsə də, ictimai və təbiət elmləri də keçilirdi. XVIII əsrdə Təbrizdə 600 məhəllə məktəbi və 47 mədrəsə, Şamaxıda 40-a qədər məktəb və 7 mədrəsə, Ərdəbildə Şeyx Səfi məqbərəsində xüsusi mədrəsə fəaliyyət göstərmişdir.

Məscidlərin və digər dini ocaqların nəzdində məktəb və mədrəsələr fəaliyyət göstərirdi. Çoxillik ənənəvi təhsil öz işini, inkişafını davam etdirirdi. Lakin zamanın tələbinə uyğun olaraq qabaqcıl və daha mütərəqqi təhsilə böyük ehtiyac duyulurdu. 1829-cu ildə təqdim olunan təhsil nizamnaməsi bu vacib məsələni bir qədər də tezləşdirdi. Tədricən Şamaxı, Bakı, Şuşa, Gəncə, Şəki, Naxçıvan, Ordubad, Quba, Lənkəran və digər qəza məktəbləri yarandı və fəaliyyətə başladı. Bu ikisinifli məktəblərdə şəriət, qiraət, hüsnxət, hesab, rus və Azərbaycan dili tədris edilirdi.

Müstəqil Azərbaycanın bugünkü inkişaf səviyyəsinə çatmasında, dünya birliyində layiqli yer tutmasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

Ümummilli lider Heydər Əliyev hələ 1970-80-ci illər də SSRİ-nin 50-dən artıq şəhərinin 170-dən çox ali məktəbində ölkəmizin elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına köməklik göstərmişdir. Ulu öndər Heydər Əliyev hər zaman bütün sahələrə olduğu kimi, gənclərə və gənclərin təhsilinin yüksək səviyyədə olmasına böyük qayğı və diqqət göstərib. Bütün görülən bu işlər Azərbaycan xalqının gələcəyi və gəncliyi üçün idi. Bir faktı yada salmaq lazımdır ki, 1970-ci ilə qədər ölkədən kənarda təhsil alanların 40% azərbaycanlı idisə, 1970-ci illərin sonu və 80-ci illərin əvvəllərində bu rəqəm 97,7% yüksəlmişdi.

Bu gün YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva Azərbaycan təhsilinə xüsusi diqqət və qayğı ilə yanaşaraq ölkədə yeni məktəblərin tikilərək istifadəyə verilməsində öz köməyini əsirgəmir. Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən "Yeniləşən Azərbaycana-yeni məktəb" proqramı çərçivəsində onlarla yeni məktəb tikilib şagirdlərin ixtiyarına verilib.

Ölkəmizin müxtəlif maliyyə mənbələrindən, xüsusilə yeni neft strategiyasının həyata keçirilməsi nəticəsində əldə edilən gəlirlər sayəsində təhsilə ayrılan vəsait hər il davamlı olaraq artır. Bu gün dövlət büdcəsinin maddələri arasında təhsil sahəsinə ayrılan vəsait həcminə görə ikinci yer tutur.

Müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələri əsasında, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi strateji kursla inkişaf edir.

# BÖYÜK BRİTANİYA HƏRBİ KOMANDANLIĞININ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DÖVLƏT HƏYATINA MÜDAXİLƏSİ

**Arifə Adıgözəlova**
**BDU, Azərbaycanın yeni və ən yeni tarixi kafedrası, t.ü.f.d. dosent**
**adigezelova@bk.ru**

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, Böyük Britaniya, hərbi general qubernator*
***Keywords:*** *Azerbaijan Democracy Republic, Great Britain, military general governor*

Birinci dünya müharibəsində məğlub tərəf kimi Mudros müqaviləsini imzalayan Osmanlı Türkiyəsi öz qoşunlarını Azərbaycandan çıxarmalı olmuş, Cənubi Qafqaz Böyük Britaniyanın təsir dairəsinə qatılmışdı. Azərbaycan Cümhuriyyəti Hökuməti istiqlal prinsiplərindən geri çəkilməmək şərti ilə general V.İ.Tomsonla danışıqlar aparmaq üçün öz nümayəndə heyətini – N.Yusifbəylini, Ə.Ağayevi və M. Rəfiyevi Ənzəliyə göndərdi. Görüş zamanı məlum oldu ki, müttəfiq dövlətlər öz qarşılarına Rusiyanı bolşevizmdən azad etmək və Vilson prinsiplərinə uyğun yeni əsasda təşkil etmək kimi vəzifə qoymuşdur. Azərbaycan nümayəndə heyəti və general V.İ.Tomson arasında Ənzəlidə imzalanmış müqavilənin şərtlərinə görə, müttəfiq qoşunların komandanlığı hakimiyyətini yalnız Bakı quberniyasına aid etməyi və Azərbaycan hökumətinin daxili işlərinə qarışmayacaqlarına söz verirdilər.

1918-ci il noyabr ayının 17-də general Tomsonun başçılığı ilə ingilis qoşunları Bakıya daxil oldu. Müttəfiq qoşunların Bakıya gəlişi ilə keçmiş qradonaçalnikliyin ərazisinin radiusu 15 verst (15 km-dən bir qədər çox) olan sahəsi DİN-nin sərəncamından çıxarılaraq, general Tomsona tabe edildi. O, özünü həmin rayonun hərbi qubernatoru elan etdi. Polkovnik F.P.Kokkerel müttəfiq dövlətlərin Bakıda komissarı təyin edildi. Bu komissar öz əmrləri ilə bir çox halda Azərbaycan hökumətinin sərəncamlarını ləğv edirdi. Bakıda ingilis qoşunlarının ümumi sayı 5 min əsgərdən ibarət idi.

İngilis hərbi komandanlığı Bakıya yerləşdiyi vaxtdan ölkənin ictimai-siyasi və iqtisadi həyatının bütün sahələrinə müdaxilə etməyə başladı. General Tomsonun əmri ilə Bakıda hərbi vəziyyət elan edildi. 1918-ci il noyabr ayının 19-da general Tomson hərbi dövr qanunlarının pozulmasına görə cəzalar haqqında əmr verdi. Bu əmrə görə, müttəfiq orduların hərbi rütbəli şəxsləri və Rusiya hökumətinə xidmət edən şəxslər (ağqvardiyaçı zabitlər nəzərdə tutulurdu) istisna olmaqla, xüsusi icazə olmadan silah gəzdirmək, iclas və tətil keçirmək qadağan edilir, xüsusilə ciddi cinayətlərə görə ölüm cəzası nəzərdə tutulurdu.

Neft sənayesini də nəzarətdə saxlamağa çalışan ingilislər tezliklə ”Britaniya Neft idarəsi”ni təsis etdilər. 1918-ci ilin dekabrından 1919-cu ilin avqustuna qədər ingilislər Bakıdan 113,5 milyon manatlıq 30 milyon puda qədər neft aparmışdılar. Mülki idarəçilik sahələrinə də müdaxilə edən ingilislər pul əskinazlarının buraxılmasını öz nəzarətinə götürmüş, əhalinin ərzaqla təminatı sistemini yenidən qurmuşdu, neft hasilatı və dəmir yolu sahələrində mövcud əmək münaqişələrini həll etmək üçün Əmək idarəsi yaratmışdılar.

Mudros sülhü şərtlərinə görə, ingilislər Batumu tutdular və Zaqafqaziya Dəmir Yolunu öz nəzarətləri altına götürdülər. Beləliklə, Qara dənizdən Xəzər dənizinə qədər mühüm strateji əməliyyat meydanı onların əlinə keçdi. İngilislərin Qarabağ, Zəngəzur və Naxçıvana dair ziddiyyətli siyasəti Azərbaycan dövlətçiliyinin maraqlarına uyğun gəlmirdi X.Sultanov Zəngəzurun idarəçiliyini erməni milli şurasına vermiş ingilislərin Qarabağ məsələsinin həllinə də ancaq maneçilik törətdiklərini qeyd edərək, bu məsələdə onların köməyindən imtina etməyi zəruri sayırdı.

Azərbaycan hökuməti Paris sülh konfransındakı nümayəndə heyətinin başçısı Əlimərdan bəy Topçubaşova tapşırmışdı ki, ingilis general-qubernatorluğunun ləğvinə çalışsın. Xarici İşlər Nazirliyi Azərbaycan Xalq Cümhuriyyətinin suverenliyini pozan bu məsələ ilə bağlı Avropa və Amerika dövlətlərinə etiraz notası göndərilməsini, Avropa mətbuatında bunun Azərbaycanın daxili işlərinə müdaxilə olduğu barədə yazı verilməsini vacib sayırdı.

1919-cu il iyunun 13-də Bakıda ingilis qoşunlarının Azərbaycanda saxlanılmasına qarşı izdihamlı mitinq oldu. İngilis komandanlığı Azərbaycanı tərk etməzdən əvvəl hərbi ləvazimatı Könüllü orduya, Xəzər hərbi donanmasını isə 1919-cu ilin əvvəllərində Denikinə vermişdi. Azərbaycan hökuməti buna qarşı kəskin etiraz notası ilə çıxış etdi. İngilislər Bakını tərk edərkən şəhər limanının idarəçiliyini, hərbi hissələrin radiostansiyalarını, ordunun hərbi sursatını və hərbi gəmilərinin bir hissəsini Azərbaycan hökumətinə qaytarmışdılar.

1919-cu ilin iyulunda Müttəfiq qoşunları Azərbaycan Cümhuriyyətinin ərazisindən çıxdı.

## MÜASİR DÖVRDƏ AZƏRBAYCAN VƏ TÜRKİYƏ ƏMƏKDAŞLIĞININ DƏRİNLƏŞMƏSİNDƏ ENERJİ SİYASƏTİNİN ROLU

**Arzu Xəlilzadə**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, t.u.f.d., dosent.**
**azerbaijan@rambler.ru**

***Açar sözlər:*** *Azərbaycan, Türkiyə, enerji siyasəti, əməkdaşlıq*
***Key words:*** *Azerbaijan, Turkey, energy policy, cooperation*

Azərbaycan dünyada ilk neft istehsal edən və enerji qaynaqları baxımından ən zəngin ölkələrdən sayılır. 1991-ci ildə Azərbaycan müstəqilliyini elan etdikdən sonra enerji siyasətinin şaxələndirilməsi prosesinə start verilmişdir. Bu baxımdan 1994-cü ildə imzalanan “Əsrin müqaviləsi” böyük əhəmiyyət daşımaqla "Azəri", "Çıraq", "Günəşli" yataqlarının birgə istismarını təmin etmiş və "Yeni neft strategiyası"nın əsasını qoymuşdur. 1997-ci ildə Bakı-Supsa neft kəməri, 2006-cı ildə Bakı-Tiflis-Ceyhan neft xəttinin açılışı olmuş və Türkiyənin Ceyhan limanından Azərbaycan neftinin nəqlinə başlanılmışdır. 2011-ci ildə Azərbaycan və Avropa Komissiyası arasında imzalanan Birgə Bəyannamə ilə başlanğıcı qoyulan “Cənub Qaz Dəhlizi” layihəsinin əsas elementlərindən biri olan Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi başa çatdıqdan sonra, “Şahdəniz-2” çərçivəsində Türkiyəyə kommersiya təyinatlı qaz həcmlərinin nəqlinə başlanılmışdır. Beynəlxalq arenada Azərbaycan enerji sahəsində əməkdaşlıqda, strateji müttəfiq kimi Türkiyə respublikasına xüsusi önəm verir. Türkiyə uzun illərdir enerji resursları qıtlığından əziyyət çəksə də, öz coğrafi mövqeyinin üstünlüklərini imkanlara çevirməklə “enerji mərkəzi” olmaq yolunda ciddi addımlar atıb. Bu baxımdan Türkiyə Azərbaycanla müştərək bir çox yeni trans-layihələrə imza ataraq, Azərbaycanla əməkdaşlıq çərçivəsində Cənub Qaz Dəhlizi və Trans Anadolu Qaz Boru Kəməri (TANAP) və onun tərkib hissəsi olan TAP layihələrinin icrasını təmin etmişdir. Bu layihələr həm Türkiyənin enerji təhlükəsizliyi və resurslarının şaxələndirilməsində, həm də Türkiyənin enerji mərkəzinə çevrilməsində mühüm əhəmiyyətə malikdir. Nəticə etibarıyla, Azərbaycanın müstəqil enerji siyasəti həm də Türkiyənin Cənubi Qafqazda geosiyasi mövqeyinin güclənməsinə və Şərq-Qərb enerji dəhlizində aparıcı ölkəyə çevrilməsinə təkan vermişdir. Azərbaycanın və Türkiyənin beynəlxalq aləmdə iqtisadi mövqelərinin daha da möhkəmlənməsi və strateji əməkdaşlığının dərinləşməsi kontekstində iki ölkənin birgə apardığı enerji strategiyasının araşdırılması aktual

mövzudur. Məqalənin yazılmasında məqsəd müasir dövrdə Azərbaycanın enerji siyasətini incələmək, Türkiyə ilə birgə layihələrin əhəmiyyətini vurğulamaq, iki dövlət arasında dərinləşən inteqrasiya çərçivəsidə enerji strategiyasının yerini və rolunu müəyyənləşdirməkdir.

## II DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCAN LEGİONUNUN MƏTBU ORQANLARINDAN OLAN "AZƏRBAYCAN" QƏZETİ TARİXİ MƏNBƏ KİMİ

**Kəmalə Məmmədova**
**Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının böyük laborantı**

***Açar sözlər:*** *mətbuat, II dünya müharibəsi, legioner, "Azərbaycan" qəzeti, mənbə*
***Key words:*** *press, World War II, legionnaire, "Azerbaijan" newspaper, source*

II dünya müharibəsi illərində Hitler Almaniyası Vermaxtın tərkibində Sovet İttifaqının müxtəlif millətlərinin nümayəndələrindən ibarət milli birliklər təşkil etdi ki, bu birliklərdən SSRİ-yə qarşı istifadə nəzərdə tutulurdu. Həmin illərdə yaranan belə birliklərdən biri də Azərbaycan legionu idi. Azərbaycan legionu sadəcə əldə silahla döyüşlərdə iştirak etmədi, eyni zamanda əldə qələmlə də sovet zülmünə qarşı mübarizəyə qalxdı. Qeyd edək ki, Almaniyada hökm sürən nasist rejimi şəraitində, dövlət strukturlarının ciddi nəzarəti altında "Azərbaycan", "Türk birliyi", "Hücum" qəzetləri, "Gənc yaradıcılar ", "Milli birlik" jurnalları çap edilir, radio verilişləri hazırlanır, teatral və musiqili çıxışlar təşkil olunurdu.

"Azərbaycan" Azərbaycan legionunun həftəlik qəzeti idi. Qəzetin İlk sayı 1942-ci il iyunun 7-də dərc olunmuşdu. Qəzet 1945-ci ilin mart ayına qədər nəşr edilmişdir. 6-8 səhifə aralığında ən çox tirajla çıxan qəzet idi. İlk 9 sayı mühacirlər tərəfindən latın şriftləri və türk dilinin Anadolu dialektinə məxsus ayrı-ayrı sözlərin işlədilməsi ilə çap olunan qəzet öncə Şərq əraziləri üzrə reyx komissarlığının hamiliyi altında çap olunurdu. Lakin azərbaycanlı legionçular Anadolu türkcəsinin Azərbaycan türkcəsi ilə əvəz olunmasını inadla təkid etdikləri üçün redaksiya heyətinin tərkibinə alman əsirliyindən azad edilmiş azərbaycan legionerləri daxil edilir, qəzet Vermaxt Baş Təbliğat idarəsinin hamiliyinə keçir və əvvəllər Azərbaycanda tətbiq olunan latın əlifbası ilə nəşrini davam etdirir. Qəzetin tiraji 10, 12 mindən 20 minə qədər yüksəlir. Qəzet Berlində çap olunurdu. Vermaxt Baş Təbliğat idarəsinin göstərişinə əsasən qəzetdə 10 işçi çalışırdı ki, onlar da alman ordusunun hərbi qulluqçuları hesab edilirdilər. Bu səbəbdən hərbi qulluqçulara verilən imtiyazlar qəzet əməkdaşlarına da şamil olunurdu. Onlar əmək haqqı alır və geyimlə təmin edilirdilər. Bakı Dövlət Universitetinin tarix fakültəsinin məzunu Məcid Karsalani (Musayev-Musazadə) qəzetin redaktoru, Bakı Pedaqoji İnstitutunun məzunu, vaxtı ilə Naxcıvanda Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyən Cəlil İsgəndərli redaktorun müavini idi. O, həmçinin "Milli birlik" və "Gənc yaradıcılar" jurnallarının redaktoru olmuşdur. "Azərbaycan" qəzeti redaksiyasının mətbəə işləri üzrə texniki əməkdaşları arasında bir neçə alman çalışırdı.

Müharibə şəraitdə fəaliyyət göstərən qəzet əməkdaşları oxucularına maraqlı və obyektiv məlumatlar çatdırmağa çalışırdılar. Qəzetdə milli istiqlalımız, milli ədat-ənələrimiz, milli tariximiz, ədəbiyyatımız, folklorumuz, incəsənətimiz və s. bağlı çoxlu yazılar çap olunurdu. Eyni zamanda qəzetdə çap olunan yazılarda legionerlərin həyatı və fəaliyyətləri əks olunmuşdur. Buna görə biz tarixçilər üçün həmin mətbuat müəyyən məsələlərin, eyni zamanda Azərbaycan legionunun yaranması və fəaliyyətinin öyrənilməsinə dair əsas əhatəli mənbələrdən biridir. Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən Mehdi Hüseynzadə də bəzi məlumatlara görə legioner olmuş və

"Azərbaycan" qəzetində "Qürbətzadə" təxəllüsü ilə yazılar çap etdirmişdir. Qəzetdə informasiyanın sənədli, xronoloji, şəxsi və s. kimi müxtəlif formaları təmsil olunurdu.

"Azərbaycan" qəzetində bir çox hadisələrlə bağlı operativliyi ilə səciyyələnən yazılara rast gəlmək olur. Bunlar içərisində sovet dövri mətbuatında işıqlandırılması ümumiyyətlə qadağan edilən mövzuların verilməsi maraq doğuran məqamlardandır. Bu xüsusda biz Azərbaycan Xalq Cümhuriyyəti, Qurban bayramına həsr olunan yazıları misal çəkə bilərik. Qəzet səhifələrində eyni zamanda həmin dövrdə dünyada baş verən proseslərə də münasibət bildirilməyə çalışılıb. Bu isə həmin dövr üçün dünya siyasi sistemində baş verən hadisələrin tarixinin öyrənilməsinin tədqiqi baxımından da "Azərbaycan" qəzeti materiallarının həmin dövrdə nəşr edilən digər müxtəlif yönümlü qəzet və jurnalları ehtiva edən məlumatlarla müqayisəli təhlillə cəlb edilməklə mənbə kimi dəyərini artırır.

Məlumdur ki, qəzet Hitler Almaniyasının SSRİ-yə qarşı təxribat vasitəsi idi. Bu baxımdan "Azərbaycan" qəzetini mənbə kimi araşdırarkən nəzərə almaq lazımdır ki, qəzetdə verilən məlumatların dolğunluq və obyektivlik səviyyəsinə müəlliflərin və redaksiya heyətinin peşəkarlığı ilə yanaşı, eyni zamanda hansı şəraitdə və hansı şərtlər altında çap olunması da təsir göstərirdi. Azərbaycan qəzetinin materiallarından istifadə edərkən həmin dövrdə legionerlərin tərtib etdiyi müxtəlif qəzet və jurnallarda çap olunan məlumatların müqayisəli təhlilini tətbiq etmək də məqsədəuyğundur. Belə yanaşma mənbələrin obyektiv qiymətləndirilməsi və hadisələrin doğru işıqlandırılmasının açarı ola bilər. Mövzu ilə bağlı hazırlanan məqalədə sadaladığımız məsələlərin geniş şəkildə işıqlandırılması nəzərdə tutulur.

## QARABAĞIN XIX ƏSR TARİXİ COĞRAFİYASININ ÖYRƏNİLMƏSİNDƏ MƏNBƏLƏRİN ROLU

**Elşən Nəsib oğlu Aslanov**
**Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müəllimi, t.ü.f.d.**

***Açar sözlər:*** *XIX əsr, Qarabağ xanlığı, "Qarabağnamə"lər, "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları", "Qarabağ əyalətinin təsviri"*

***Key words:*** *XIX century, Karabakh khanate, "Karabakh letters", "Acts of the Caucasus Archaeological Commission", "Description of Karabakh province"*

XIX əsrin əvvəllərində feodal pərakəndəliyinin hökm sürdüyü Azərbaycanda ölkə ərazisinin dövlət qurumları kimi xanlıqlara, məlikliklərə və sultanlıqlara bölünməsi əslində Azərbaycanın gələcəkdə vahid dövlət kimi varlığına ağır zərbə idi. Bu isə tarixi gedişatda öz bəhrəsini verdi və XIX əsrin I rübündə cərəyan edən hadisələr Azərbaycanın tarixi-coğrafiyasına öz təsirini göstərdi. O zaman isti dənizlərə - Hindistana yol açmaq siyasəti yeridən, bu məqsədlə Qacarlar İranı və Osmanlı imperiyası ilə Cənubi Qafqazın işğalı uğrunda mübarizə aparan Rusiya imperiyası bu mübarizədən qalib çıxdı. Rusiyanın hakim dairələrində dövlətin cənub sərhədlərinin Kür və Araz çaylarına, qərb sərhədlərinin Qara dənizə qədər uzadılması qərara alınmışdı. Eyni zamanda, Cənubi Qafqazda özünə güclü bir xristian istinadgahı, xristian həmrəyliyi yaratmağa çalışan Rusiya imperiyasının qəddar müstəmləkəçilik siyasətinin başlıca hədəfi isə regionun türk-müsəlman əhalisi və Azərbaycan idi. 1801-ci ildə Şərqi Gürcüstanla birlikdə Borçalı, Qazax, Şəmşəddil sultanlıqlarının da Rusiyaya birləşdirilməsi ilə Azərbaycanın işğalının əsası qoyuldu. Rusiya imperiyası Cənubi Qafqazda özünün işğalçılıq siyasətini həyata keçirmək məqsədilə Azərbaycan xanlarını müxtəlif yollarla öz tərəfinə çəkməyə çalışırdı. Həmin dövrdə belə xanlıqlardan biri də Qarabağ xanlığı idi.

XIX əsrdə Azərbaycanın dövlət qurumlarından biri olan Qarabağ xanlığının və ümumilikdə, Azərbaycan torpağının ayrılmaz tərkib hissəsi olan Qarabağ bölgəsinin tarixi-coğrafiyasının bu gün tutarlı qaynaqlar əsasında obyektiv şəkildə öyrənilməsi aktuallıq kəsb edir. Bu mənbələr içərisində yerli mənbə kimi "Qarabağnamələr", bunların sırasında isə xüsusi olaraq Əhməd bəy Cavanşirin "Qarabağ xanlığının 1747- 1805-ci illərdə siyasi vəziyyətinə dair", Mirzə Yusif Qarabağinin "Tarixi Safi", Mirmehdi Xəzaninin «Kitabi-tarixi Qarabağ», Mirzə Rəhim Fənanın «Tarixi-cədidi Qarabağ» əsərləri həmin dövrdə Qarabağ xanlığının tarixi coğrafiyası öyrənmək baxımından mühüm əhəmiyyət daşıyırlar.

Qarabağ xanlığının 1747-ci ildən 1813-cü llədək siyasi tarixinin bir sıra mühüm məsələlərinin tədqiqində mühüm mənbələrdən biri də Azərbaycan tarixşünaslığının banisi Abbasqulu Ağa Bakıxanovun «Gülüstani İrəm» əsəridir. Qeyd edək ki, o 1823-cü ildə Qafqazın baş komandanı A.P.Yermolov tərəfindən Qarabağ əyalətini tədqiq edən komissiyanın üzvü təyin olunmşdu. Bu səbəbdən də əsərdə Qarabağın tarixi, coğrafiyası haqqında topladığı materialları çox diqqətlə təhlil etmişdir.

Adolf Berjenin redaktorluğu ilə çap edilmiş 12 cilddən ibarət "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları" adlı sənədlər toplusunun ayrı-ayrı cildlərində də Qarabağ xanlığı ilə Rusiya arasında qarşılıqlı münasibətlər, Sisianov və digər Rusiya müstəmləkəçilərinin mənfur siyasəti, 1805-ci ildə bağlanmış Kürəkçay müqaviləsi, müqavilənin hər iki tərəfdən yerinə yetirilmə vəziyyəti, xanlığın ləğv edilməsi və əyalətə çevrilməsi, Qarabağ əyalətinin 1822-ci ildən sonrakı rus idarəçiliyi dövründə vəziyyəti, əhalisi, təsərrüfatı və digər məsələlər haqqında çox qiymətli məlumatlar verilir. Bu məlumatların öyrənilməsi isə bizə Qarabağa aid salnamələrdəki məlumatları dəqiqləşdirməyə və tamamlamağa, həmçinin müqayisəli təhlil aparmağa, Qarabağ tarixinin salnamələrdə verilən xronologiyasını bir qədər də genişləndirməyə və hadisələrin sonrakı axarını öyrənməyə imkan verir.

Həmin dövrdə Qarabağın tarixi coğrafiyasında demoqrafik prosesləri izləməyə imkan verən mənbələrdən bir digəri isə 1823-cü ildə Qafqazın baş hakimi Yermolovun göstərişi ilə xanlıqdan Rusiyanın əyalətinə çevrilmiş Qarabağda keçirilən siyahıyaalmanın materiallarıdır. "Qarabağ əyalətinin təsviri" adlanan bu materiallar xanlığın əhalisinin sayını, etnik və sosial-silki tərkibini öyrənməyə imkan verir. Eyni zamanda bu materiallar Qarabağın həmin dövrdəki şəhər və kəndləri, torpaq sahibliyi formaları, maliyyə-vergi sistemi və digər s. məsələlərinin öyrənilməsi baxımından da çox əhəmiyyətlidir.

Azərbaycan xanlıqlarının, o cümlədən Qarabağ xanlığınln işğalından sonra Rusiya hakim dairələri bir-birinin ardınca Cənubi Qafqazda, o cümlədən Azərbaycanda inzibati-ərazi islahatları həyata keçirdilər. Məqsəd Azərbaycanın Cənubi Qafqazda min illər boyu davam edən dövlətçilik ənənələrini və inzibati-ərazi sərhədlərini məhv etmək idi.

Məqalədə bu mənbələrin tədqiqi əsasında Qarabağın XIX əsr tarixi-coğrafiyasının mənzərəsini yaratmaqla yanaşı qeyd olunan məsələlərlə bağlı araşdırmaların üzə çıxarılması nəzərdə tutulur.

## URARTU KİTABƏSİNDƏ ALBAN ÖLKƏSİ ($^{KUR}$qu-’a-al-ba-né) HAQQINDA İLK MƏLUMAT (E.Ə. VIII ƏSRİN ORTALARI)

**Ramin Əlizadə**
**AMEA Tarix İnstitutunun “Qədim tarix” şöbəsinin böyük elmi işçisi**
**raminalizadeh17@gmail.com**

***Açar sözlər**: Azərbaycan, Aşşur, Urartu, Etiuni, Albaniya*
***Key words** : Azerbaijan, Assyria, Urartu, Etiúni, Albania*

E.ə. IX əsrin ortalarında Şərqi Anadolu ərazisində yaranmış Urartu dövləti bir əsrdən artıq müddət ərzində Cənubi Qafqaza, eləcə də Azərbaycan ərazisinə hücumlar etmişdir. Urartu dövlətinin başlıca rəqibi Yaxın Şərqin ən güclü dövlətlərindən biri olan Aşşur imperiyası idi. Aşşurların aramsız hücumları qarşısında duruş gətirə bilməyən urartulular əsasən Van gölü hövzəsindən şimal və şərq istiqamətində hücumlara başladılar. Urartuluların Cənubi Qafqaza ilk hücumları e.ə. IX əsin sonlarında baş vermişdi. Urartu hökmdarı İşpuini ilk dəfə şimal və şərq istiqamətində hərbi yürüşləri nəticəsində öz dövlətinin sərhədlərini genişləndirmiş, onun oğlu Minua isə Cənubi Qafqazın erkən tayfa ittifaqları və dövlət qurumlarına qarşı dağıdıcı hücumlar təşkil etmişdir. Azərbaycanın tarixi-coğrafiyasının mühüm tərkib hissəsi olan Göyçə gölü hövzəsinə hücumlar edən urartuluların başlıca məqsədi talançılıq idi. Bu yürüşlər çox zaman yerli tayfaların heyvan sürülərini yaylaqlara gətirdiyi zaman baş veririddi.

E.ə. VIII əsrin ortalarında Urartu qoşunlarının Cənubi Qafqaza hücumları artdı. Van gölü yaxınlığında qayalıq ərazinin şimalında Urartu hökmdarı II Sardurinin hücumlarından bəhs edən Xəzinə qapısı (Analıqız) kitabəsində Göyçə gölü ətrafında yaşayan qədim Azərbaycan tayfalarının adları çəkilmişdir. Xəzinə qapısı kitabəsi ilk dəfə 1827-ci ildə “Fransa Asiya cəmiyyəti” tərəfindən Şərqi Anadoluya göndərilən tədqiqatçı F. E. Şults tərəfindən qeydə alınmışdır. 1864-cü ildə isə N. Sarkisyan adında erməni keşişi Venesiyada nəşr etdiyi kitabında bu kitabəni yanlış olaraq qədim erməni yazılı abidəsi kimi təqdim etmişdir. Lakin həmin əsrin sonlarında A. Seys bu kitabənin ermənilərə yox, urartululara aid olduğunu müəyyən etmişdir.

Xəzinə qapısı kitabəsinin ilk sətirlərində əvvəlcə II Sardurinin Azərbaycanın cənubunda Manna ölkəsinə, sonra isə Azərbaycanın şimalında yaşayan yerli tayfalara qarşı hücum etməsindən bəhs edilir. Bu hücum nəticəsində Göyçə gölünün qərbini əhatə edən Etiuni ölkəsi ($^{KUR}$e-ti-ú-né, $^{KUR}$e-ti-ú-hi-né) dağıdılmış, İqani ölkəsinin ($^{KUR}$i-GA-né) hökmdarı Kaparun məğlub edilərək, 35 qalası və 200 yaşayış məntəqəsi ələ keçirilmiş, əhalisinin bir hissəsi isə Şərqi Anadoluya – Urartunun mərkəzi vilayətlərinə sürgün edilmişdir. Bu kitabədə ilk dəfə olaraq Göyçə gölünün cənub-şərqində Ku’alban ölkəsinin ($^{KUR}$qu-’a-al-ba-ni) adı çəkilir. Kitabədə II Sardurinin adından deyilir: *“Elə həmin ildə üçüncü dəfə Arkukini ölkəsinə hücum etdim, Arkukini ölkəsini, Adahuni ölkəsini, Luipruni ölkəsini, Eşuma ölkəsini, Kamniu ölkəsini, Ku’alban ölkəsini, Uhuni ölkəsini, Teriani ölkəsini məğlub etdim. Bir gündə döyüşlə 20 qalanı 120 yaşayış məskənini (şəhəri?) ələ keçirdim, qalalarını dağıtdım, yaşayış məskənlərini yandırdım, ölkəni xaraba qoydum, kişiləri və qadınları əsir götürdüm”*. II Sardurinin bu hücumu e.ə. VIII əsrin 40-cı illərinin sonlarında baş vermişdir. Azərbaycan xalqının etnogenezində mühüm rol oynamış albanların adı bu kitabədə ku’alban, utilərin adı isə etiu kimi çəkilmişdir. Qeyd edək ki, hələ e.ə. IX əsrin sonlarından başlayaraq Urartu hökmdarı İşpuinin hakimiyyəti dövrünə aid kitabələrdə Etiuni ölkəsindən daha böyük və bir neçə hökmdarı olan ölkə kimi bəhs edilmişdir. Bu fakt Azərbaycanın şimal-qərbində yaşayan

qədim tayfaların konfederasiya halında birləşərək yaratdığı ilk hərbi-siyasi qurumun Etiuni dövlət qurumu olduğunu söyləməyə imkan verir.

Beləliklə, Xəzinə qapısı kitabəsində verilən məlumatlardan aydın olur ki, albanlar e.ə. VIII əsrin ortalarında Göyçə gölü ətrafında yaşamış və zəngin maddi-mədəni irs yaratmışlar. Onların burada xeyli sayda qalaları və yaşayış məskənləri olmuşdur. Urartu kitabələrində albanların və utilərin adları çəkildiyi halda, erməni və ya hay adlı hansısa bir toplumdan bəhs edilmir.

## AZƏRBAYCANIN ETNİK MƏNZƏRƏSİ ANTİK YUNAN-ROMA TARİXİ-COĞRAFİ ƏDƏBİYYATINDA

**Rüxsarə Bəxtiyar qızı Quliyeva**
**Xəzər Universitetinin müəllimi, t.ü.f.d.**
**rukhsare.guliyeva@khazar.org**;
**ruxsaraguliyeva@gmail.com**

***Açar sözlər:*** *Yunan- Roma Tarixi, etnos, coğrafi ədəbiyyat*
***Keywords****: Greco-Roman history, ethnos, geographical literature*

Tarixşünaslıqda çox böyük maraq doğuran problemlərdən biri tarixi Azərbaycan torpaqlarında yaşayan əhalinin etnik tərkibi ilə bağlı məsələdir. Dünyanın bir çox ölkələri kimi Azərbaycan da tarixən müxtəlif xalqların yaşadığı bir ölkə olmuşdur. Heç şübhəsiz ki, problemin araşdırılması üçün müstəsna əhəmiyyətə malik olan yazılı qaynaqların bir qrupunu qədim yunan – Roma qaynaqları təşkil edir.

Məlumdur ki, e.ə. IV əsrdən etibarən Yunan və Roma imperiyalarının şərqə işğalçı yürüşləri başlayır. Bu yürüşlər nəticəsində yunan – roma dünyası ordunun olduğu ölkələr haqqında yeni informasiyalar əldə edir. Hər bir yürüşdə hadisələri qeydə alan xüsusi tarixçilər də iştirak edirdi. Onlar şahidi olduqları və mötəbər mənbələrdən eşitdikləri məlumatları toplayıb öz əsərlərində təsvir etmişdilər. Bu müəlliflər içərisində yaşdıqları dövrə görə istisna təşkil edən Miletli Hekatey (qədim yunanca *Ἑκαταῖος*, latınca *Hecataeus*; təxminən b.e.ə. 550 – 490) və Herodot (qədim yunanca. *Ἡρόδοτος Ἁλικαρνᾱσσεύς*, təxminən b.e.ə. 484 – 425) ilk dəfə olaraq tarixi Azərbaycan torpaqlarında yaşayan saqarti, mik, uti, parikan, dareyt, pantimat, pavsik, kaspi, matien və s. tayfalar haqqında məlumat vermişdilər. Sonrakı müəlliflər siyahını daha da genişləndirərək alban, qel, leq, qarqar, udin, Ipin, çilb, kadusi, mard, anariak, pars və digər tayfaların adlarını çəkmişdilər. Bu məlumatlara Polibinin (b.e.ə. 205 – 123) "Tarixlər", Siciliyalı Diodorun (b.e.ə. 80–29) ″Tarixi kitabxana″, Kvint Kursi Rufun (b.e.ə. I əsr) ″Makedoniyalı İsgəndərin tarixi″, Tit Livinin (b.e.ə. 59 – b.e. 17–ci ili) "Roma tarixi", Pompey Troqun (b.e.ə. I əsr – b.e. I) "Filippin tarixi", Pomponi Melanın (b.e. 45-ci ilində vəfat etmişdir) "Yerin təsviri", Qay Plini Sekundun (23 – 79) "Təbii tarix", İosif Flavinin (təxminən b.e. 37 – ci ilində doğulmuşdur) "İudey müharibəsi haqqında" və "İudey qədimliyi", Sekst Yuli Frontinin (44 – 103) "Strateqlər", Plutarxın (46 – 120) "Paralel tərcümeyihallar", Korneli Tasitin (55 – 117) "Annallar", Ptolemeyin (70 – 147) "Coğrafiya", Flavi Arrianın (b.e. II əsri) "Aleksandrın yürüşü ", Appianın (100 – 170) "Roma tarixi", Dionisi Periegetin (II – III əsrlər) "Yer əhalisinin təsviri", Dion Kassinin (150 – 235) "Roma tarixi", Klavdi Elianın (II əsrin sonu – III əsrin əvvəli) "Heyvanlar haqqında" əsərlərində rast gəlinir.

Sadalanan müəlliflər daha da uzağa gedərək Azərbaycan ərazisində yaşayan tayfaların siyahısı ilə yanaşı, qonşu vilayətlər, çaylar, dağ keçidləri, təbii zənginliklər, əhalinin məşğuliyyəti və digər məsələlər haqqında da məlumatlar vermişdilər.

Tarixi Azərbaycan torpaqlarında mövcud olan Albaniya və Atropatena dövlətlərinin tarixinə aid yerli yazılı mənbələr aşkar edilmədiyindən, məhdud xüsusiyyətlərinə baxmayaraq bu mənbələr müstəsna əhəmiyyət kəsb edir və olduqca mühümdür. Bir neçə əsr bundan əvvəl yaşamış yazıçılar və coğrafiyaşünaslar Azərbaycanda yaşayan əhali haqqında bir sıra qiymətli məlumatlar vermişdilər ki, bunlarsız ölkəmizin etnik tərkibi haqqında hər hansı bir söz demək çətin olardı.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN PARLAMENTİNDƏ BAKI DÖVLƏT UNİVERSİTETİ İLƏ BAĞLI MÜZAKIRƏLƏR

**Samir İsmayılov**
**BDU-nun Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müəllimi, t.ü.f.d., dos.**
**samir.ismayilov@mail.ru**

***Açar sözlər:*** *Parlament, müzakirə, fraksiya, Bakı Dövlət Universiteti, ali təhsil müəssisəsi*
***Keywords:*** *Parliament, discussion, faction, Baku State University, higher education institution*

Bəhs olunan məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində Azərbaycanda universitet tipli ilk ali təhsil müəssisəsinin yaradılması uğrunda gedən müzakirələr, parlament fraksiyalarının bu məsələdə ardıcıl və qətiyyətli mövqeləri, eyni zamanda fərqli yanaşmaları araşdırılmışdır. Qeyd etmək lazımdır ki, Universitet komissiyasının hazırladığı layihəni Cümhuriyyət hökuməti 1919-cu il 7 iyulda müzakirə edib 10 bənddən ibarət qərar qəbul etdikdən sonra Bakı Dövlət Universitetinin açılıb-açılmaması məsələsi ilə bağlı müzakirələr Azərbaycan Cümhuriyyətinin Parlamentində müzakirəyə çıxarıldı. Parlamentdə müzakirələr üç aya qədər davam etdirildi. Parlamentdə universitetin açılmasına əksəriyyətin tərəfdar olması ilə yanaşı, onun əleyhdarları da var idi. Yüksək ixtisaslı, hazırlıqlı milli kadrların olmaması əsas mübahisə doğuran səbəblər idi. Bu işə xüsusilə İttihad, Əhrar partiyalarından olan nümayəndələr ciddi müqavimət göstərirdilər. Onlar Universitetin rus dilində açılmasını Azərbaycanda ruslaşdırma siyasətinin davam etdirilməsi kimi başa düşürdülər. Müsavat, Sosialistlər fraksiyasından olan deputatlar isə universitetin rus dilində açılmasının heç bir təhlükə törətmədiyini qeyd edərək vurğulayırdılar ki, universitetə daha çox azərbaycanlı tələbələr cəlb olunmalı, onlar tərbiyə edilib milli kadrlar yetişdirildikdən sonra tədricən universitetdə tədrisin azərbaycanlaşdırılması prosesinə keçilməlidir.
Bakı Dövlət Universitetinin açılması ilə bağlı parlament müzakirələri 1919-cu il avqustun 25-də parlamentin 68-ci iclasında da davam etdirildi və 1919-cu il noyabrın 15-də Azərbaycan xalqı daha bir tarixi hadisəyə şahidlik etdi. Azərbaycanda, Bakıda müsəlman Şərqində ilk Avropa tipli ali məktəb Bakı Dövlət Universiteti fəaliyyətə başladı.

# QLOBALLAŞMA DÖVRÜNDƏ MƏDƏNİ İRSİN MÜHAFİZƏSİNDƏ, TƏDQİQİNDƏ VƏ TƏBLİĞİNDƏ MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN ROLU

**Nasir Vaqif oğlu Quluzadə**
**Milli Azərbaycan Tarixi Muzeyi, t.ü.f.d., dos.**

***Açar sözlər:*** *sosial-iqtisadi, ziddiyyətli, maddi-mədəniyyət abidələri*
***Keywords:*** *socio-economic, contradictory, material-cultural monuments*

Müasir qloballaşma şəraitində müxtəlif mədəniyyətlərin sürətlə bir-birinə qarşılıqlı təsiri artıq danılmaz faktdır. Mədəni, sosial-iqtisadi, texnoloji, kommunikasiya və digər proseslərin inteqrasiyası həyat fəaliyyətinin ən müxtəlif sahələrində qüvvələri birləşdirməyi zəruri edir. Çağdaş dünyamızda baş verən bu proseslərin mürəkkəb və çox ziddiyyətli səciyyə daşıması cəmiyyətlərin mədəni irs probleminə diqqətini bir qədər də artırmışdır. Belə ki, məhz bu diqqət saysız-hesabsız minilliklər ərzindəki mədəni-tarixi inkişafın qanunauyğunluqlarını üzə çıxarmağa və onların nəticələrindən səmərəli şəkildə istifadə etməyə geniş imkanlar yaradır. Bütün bunlar isə müasir cəmiyyətlər üçün fövqəl əhəmiyyət kəsb edir. Məhz bu baxımdan son dövrlərdə mədəni irs probleminin öyrənilməsi mühüm məsələlərdən birinə çevrilmişdir.

Araşdırmalar göstərir ki, Azərbaycan ərazisində onun zəngin tarixi keçmişinə müvafiq çoxsaylı və olduqca müxtəlif maddi-mədəniyyət abidələri qalmışdır. Həmin abidələrin və əşyavi dəlillərin öyrənilməsilə Azərbaycanın yüksək mədəni irsə malik qədim mədəni mərkəzlərdən biri olması sübuta yetirilmişdir. Uzun zaman kəsiyində bu mədəni irs sabit ənənəçiliyə və varisliyə əsaslanaraq inkişaf etmiş, zənginləşmiş və ümumbəşəri mədəni irsin tərkib hissəsinə çevrilmişdir.

Qlobal standartlaşma ənənəsinin beyin və qəlblərə amansızcasına hakim olduğu bir vaxtda tarixi-mədəni irsin mühafizəsi, tədqiqi və təbliği vəzifəsində əsasən ölkə muzeyləri çıxış edirlər. Təsadüfi deyil ki, bu gün Azərbaycanda 180-ə yaxın muzey fəaliyyət göstərir. Bu muzeylər tarixin müəyyən məqamını özündə yaşadan, ötən əsrlərin müxtəlif olaylarından xəbər verən eksponatları komplektləşdirən, qoruyan, saxlayan, öyrənən, nümayiş etdirən maddi-mənəvi xəzinə sayılırlar. Muzeylərin müstəsna əhəmiyyətini nəzərə alan ölkə rəhbərliyi onların mövcud vəziyyətini daha da yaxşılaşdırmaq məqsədilə daim zəruri addımlar atır. Belə ki, prezident İlham Əliyevin 2007-ci il martın 6-da «Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında» imzaladığı sərəncam dediklərimizə nümunə ola bilər.

Beləliklə, qloballaşma dövründə mədəni irsin mühafizəsini, tədqiqini və təbliğini təşkil edən ölkə muzeyləri şərəfli bir missiyanı həyata keçirirlər. Bu baxımdan Milli Azərbaycan Tarixi Muzeyi istisna deyil. Bu muzeyin 11 fondunda və əksəriyyəti nadir kitablardan ibarət zəngin kitabxanasında 300 mindən artıq maddi abidə qorunur. Muzeyin kolleksiyası tamaşaçıya və tədqiqatçıya ölkənin ən qədim dövrdən bu günədək tarixini, məişətini və mədəniyyətini öyrənmək, tarixlə bağlı istənilən məsələni araşdırmaq imkanı verir. Muzeydə aparılan elmi-tədqiqat işləri Azərbaycanda tarix elmini inkişaf etdirməklə yanaşı özünün başlıca vəzifəsini yerinə yetirir: muzeyin simasını – onun ekspozisiyasını formalaşdırır. Müxtəlif ekspedisiyaların nəticələri, gərgin axtarışlardan sonra əldə edilən qiymətli arxeoloji, etnoqrafik, numizmatik, sənədli və əşyavi materiallar ekspozisiya və xüsusi sərgilərdə nümayiş etdirilir, eləcə də Azərbaycan xalqının özünəməxsus çoxəsrlik mədəniyyətinə və tarixinə şəhadətlik edir. Muzeydə hal-hazırda fondlarla yanaşı 8 elmi şöbə, o cümlədən, arxeologiya, etnoqrafiya, numizmatika və digər elmi-fond şöbələri, eləcə də bərpa laboratoriyası fəaliyyət göstərir.

## SSRİ ELMLƏR AKADEMİYASININ ZAQAFQAZİYA FİLİALININ AZƏRBAYCAN ŞÖBƏSİNİN NƏZDİNDƏKİ İNSTİTUTLAR VƏ ONLARIN FƏALİYYƏTİ

**Gülnarə Abidi**
**AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı**
**Elmi rəhbər İlqar Niftalıyev**
**Gulnare_semedova@mail.ru**

***Açar sözlər:*** *EAZFAŞ, institut, elmi ziyalı kadrların, tarixşünaslıq*
***Keywords:*** *EAZFAŞ, institute, scientific intelligentsia, historiography*

Azərbaycanda ictimai-siyasi və humanitar elmlər o dövrdə hakim «proletariat diktaturası» «dünya inqilabı» konsepsiyasına uyğun «ideologiyalaşdırma», «siyasətləşdirmə» ilə məşğul olaraq, özünün ziddiyyətli günlərini keçirirdi. Bu çətinliklərə baxmayaraq, ictimai və humanitar elmlərin ənənəvi sahələrində elmi işlər davam etdirilirdi. 1935-ci ildə hələ EAZFAŞ-ın nəzdində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu yaradıldı. Qədim zamanlardan yeni dövrədək Azərbaycan tarixinə, Azərbaycan xalqının sosial-iqtisadi həyatına dair yeni-yeni əsərlər meydana gəldi, sənədli məcmuələr nəşr edildi.

1936-cı ilin fevralın 27-də tarix bölməsi, tarix, arxeologiya və etnoqrafiya institutuna çevrildi. İnstitut iki şöbədə fəaliyyət göstərirdi. 1.Tarix və maddi mədəniyyət etnoqrafiya sektoru ilə birlikdə və 2.Azərbaycan arxitekturası və incəsənət tarixi. İnstitut Azərbaycan xalqının tarixi problemlərinin öyrənilməsi və Azərbaycanın maddi-mədəniyyət tarixinin tədqiqi prosesini daha da qüvvətləndirdi. Azərbaycan tarixşünaslığına dair tədqiqatlar bu dövrdə çox azlıq təşkil edirdi. 30-cu illərdən ilk tarixşünaslıq tədqiqatları yaranmağa başladı.

Azərbaycan tarixinin ayrı-ayrı dövrləri üzrə bir sıra problemlərə həsr olunmuş elmi əsərlərin meydana gəlməsi işi məqalənin əsas ideyasını təşkil edir. Eyni zamanda bu dövrdə müxtəlif institutlarda elmi əsərlərin yazılması tarixşünaslıq elminin bir elm kimi formalaşmasında əsas rol oynamağa başladı. Bu da mövzunun aktuallığını ön plana çıxardı. EAZFAŞ yaradıldıqdan sonra Azərbaycanda elmi-tədqiqat işlərinin aparılması daha sistemli xarakter alır və daha dərin elmi-tədqiqat işləri meydana gəlirdi. Digər tərəfdən 1929-1930-cu illərdə bir sıra yeni ali məktəblər yaradılır, əvvəlcədən mövcud olanların fəaliyyət dairəsi daha da genişləndirilmişdi. Onların əksəriyyətində aspirantura şöbələri var idi, bundan başqa bu ali məktbələrə qəbul planı da ildən-ilə artırılırdı. Bu isə ölkədə elmi ziyalı kadrların yetişdirilməsi üçün real uğurlu zəmin yaradırdı.

Məqalədə nəticə etibarı ilə istər elm ocaqlarına, istər tarixşünaslığın formalaşmasına istərsə də, elmi ziyalı kadrların bu elm ocaqlarındakı fəaliyyətlərinə qısa toxunaraq ümumiləşdirmə aparılmış, müasir dövrə uyğun olaraq tarixi bir nəzər salınmışdır.

## ALBAN ƏLİFBASININ NÜSXƏLƏRİ

**Əsədzadə Ləman Eynulla qızı**
**AMEA Tarix institutunun baş laborantı,**
**BDU-nin Azərbaycan tarixinin tarixşünaslığı və mənbəşünaslığı ixtisasının II kurs magistri**
**Email: asadzadeh@mail.ru**

***Açar sözlər:*** *Alban əlifbası, Matenadaran, Mingəçevir, Sinay palimpsetsləri*
***Key words****: Albanian alphabet, Matenadaran, Mingachevir, Sinai palimpsest*

İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan xalqının 30 ilə yaxın Qarabağ həsrətinə son qoyuldu. İşğaldan azad olunmuş qədim Azərbaycan torpaqlarında

xalqımızın şanlı və əzəmətli tarixi yatmaqdadır. Azərbayacanın ərazi bütövlüyünün bərpa edilməsi və tarixi torpaqların yenidən qaytarılması həmin ərazilərdə vaxtilə mövcud olmuş qədim Azərbaycan dövlətlərinin tarixinə marağı yenidən oyatdı. Baş vermiş hadisələr Azərbaycanın qədim dövləti Albaniya dövlətinin tarixinin , mədəniyyətinin yenidən tədqiqata cəlb olunması məsələsini aktuallaşdırdı. Albanların yazı mədəniyyətinin öyrənilməsi, tədqiqata cəlb olunması dövrümüz üçün olduqca əhəmiyyətli məsələdir.

Alban əlifbasının günümüzə qədər gəlib çatmış və bizə məlum olan nüsxələri 3 cografi ariala uyğun olaraq qruplaşdırılır: 1. Matenadaran; 2. Mingəçevir; 3. Sinay palimpsetsləri

*Matenadaran nəşri*. Bu nüsxə ilk dəfə 1924-cu ildə erməni alimi Nerses Akinyan tərəfindən aşkar edilmişdir. Akinyan əlifbanın nüsxəsini qədim erməni mənbəsində tapsa da, onun müəllimi Mseriants əlifbanın dünya ilə tanış etdirmək istəmir. Onun ölümündən sonra əlifba Matenadarana göndərilir və 1937-ci ildə İliya Abuladze tərəfindən aşkar olunur. Erməni dərsliyi 1442-ci ildə ruhani Mkrtıçın göstərişi ilə dərslik kimi Metsoplu Tovma tərəfindən tərtib edilib [2, s 1]. Əlyazmada ərəb, suriya, gürcü, 52 hərflik alban yazıları var. İliya Abuladze tapılmış nüsxəni tədqiq etmək üçün Şanidzeyə göndərmişdir. İlk dəfə Şanidze tapılan Alban yazılarını araşdıraraq bu dilin fonoloji quruluşu ilə Udin dili arasında oxşarlıq kəşf etmişdir.

*Mingəçevirdə tapılan maddi nümunələr üzərindəki yazılar*. Bu yazıların tapılması azərbaycanlı arxeoloq Saleh Qazıyevin adı ilə bağlı olmuşdur. O, 1948-ci ildə Mingəçevirdə Sudağılan adlı məbədin otaqlarının birində 56 hərflik xaç daşı aşkar etmişdir. Lövhənin hündürlüyü 5,5-5 sm-dir [4, s 2]. Gippert bu daş üzərində '*Ağamız İsanın adı ilə! Bu sütunun üzərindəki xaç'* ifadələrini oxumuşdur. Mingəçevirdə tapılan 21 işarə və 4 sətrdən ibarət olan iki ədəd şamdamların tədqiqi ilə Abramyan məşqul olsa da, yazıları tam deşifrə edə bilməmişdir. O, yalnız ilk 11 səsin tərkibini izah edə bilmişdir. Mingəçevir yazılarını tamamilə deçifrə edən alman alimi Josh Gippert olmuşdur. Mingəçevir kilsə kompleksində tapılmış yazılı əşyalardan biri də məişət qablarıdır. Bu məişət qablarından birinin üzərindəki yazı hələ 1967-ci ildə Georgi Klimov tərəfindən 'Manas' kimi oxunmuşdur. Jost Gippert "Manas"ın **Manasse** adının qısaldılmış variantı olduğunu düşünür. Jost Gippert şamdamlar üzərindəki mətni "*Dəyərlim, sevgilim, bu şamdanı sənin üçün hazırladım*" kimi tərcümə edib [5, s 120].

*Sinay palimpsetsləri.* Sinay yarımadasında Ketrin monastrında 1975-ci ildə palimpsetslər aşkar edilmişdir. Sinay palimpsetslərin tapılması Alban yazılarının tədqiq olunması istiqamətində işıq rolunu oynamışdır. 1975-ci ildə tapılan palimpsetslərdə bir çox qədim yazılar tapılmışdır. Onların geniş tədqiqi üçün Zaza Aleksidze 3 ekspedsiya təşkil edir və ikinci ekspedisiyada artıq xüsusi restavatorlardan istifadə edilmişdir. Ketrin orta əsrlərdə dağıdıcı yürüşlərə məruz qalmadığı üçün əlyazmalar qorunmuşdur. Alban yazılarını tədqiq etmək üçün xüsusi infraqırmızı şüalardan istifadə olunub və müəyyən olunmuşdur ki, palimpsetslərin altında şaquli şəkildə yazılan mətnlər Alban yazıları ilə yazılmışdır. Palimpsetslər ekspedisiya zamanı nömrələnmiş və siyahıya alınmışdır. Sinay N55 nömrəli palimpsets yanğın zamanı zədə aldığı üçün onu bərpa etmişlər və bu nüsxədəki yazıların da Alban yazıları olduğu təsdiqlənmişdir. 2008-2009-cu illərdə Sinay palimpsetsləri Gippert tərəfindən deşifrə edilmiş və məlum olmuşdur ki, bu yazılar albanca yazılmış və Qafqazın ən qədim xristian mətnlərindəndir.

Şanidze Matenadaran nüsxəsi üzərində çalışarkən 1967-ci ildə qədim mədəniyyət mərkəzlərinin birində yenidən albanca yazılmış palimpsetslərin ola biləcəyi fikrini irəli sürmüşdür. Həqiqətən də, 1975-ci ildə Sinayda albanca mətnlərin tapılması ona qədər müvcud olmuş nüsxələrin deşifrə edilməsi üçün böyük təkan olmuşdur. Hal-hazırda Alban əlifbasına aid qədim nüsxələr araşdırılır, dilin fonetik, morfoloji quruluşu üzərindəki tədqiqatlar davam etdirilir.

## ÇALDIRAN DÖYÜŞÜ İNGİLİSDİLLİ TARİXŞÜNASLIQDA

**Ağayeva Bahar Şahin qızı**
**BDU, II kurs magistrant**
**baharagayeva712@gmail.com**

***Açar sözlər:*** *Səfəvilər, Osmanlılar, Çaldıran döyüşü, tarixşünaslıq*
***Keywords:*** *Safavids, Ottomans, Battle of Chaldiran, historiography*

Çaldıran döyüşü Səfəvilərlə Osmanlı imperiyası arasında uzun illər boyunca davam edən dağıdıcı müharibənin başlanğıcı olmaqla tarixdə mühüm yer tutur. Hər iki imperatorluğun ərazisi hazırda mövcud olan bir çox ölkələri əhatə etdiyindən bu savaş onların da tarixşünaslığında geniş əks olunmuşdur. Eyni zamanda iki Şərq imperatorluğunun mübarizəsi Avropanın diqqətindən yayına bilməzdi. Bu mətndə isə Çaldıran döyüşünün ingilisdilli tarixşünaslıqda təsvirinə yer verəcəyik. O cümlədən L.Lockhart, B.Levis, R.P.Lindner, R.Matthee, R.Savory, M.Kunt, G.Sarvar, A.Alloche kimi müəlliflərin əsərlərinə diqqət yetirəcəyik.

Kunt qeyd edir ki, Şah İsmayılın ilk uğurlarından sonra Osmanlı ərazisindəki Səfəvi ardıcıllarının bir çoxu ya çadırlarını söküb onun ərazisinə keçdilər, ya da üsyanlar təşkil etmək üçün geridə qaldılar. Osmanlı Anadolu hakimiyyətini itirmə təhlükəsi qarşısında idi. Alloche da bu faktı tamamlayaraq yazır ki, Səlim ilk olaraq Anadolunun Qızılbaşları ilə məşğul olmaq qərarına gəldi və 40.000 insan qətlə yetirildi və bundan sonra əsas müharibəyə hazırlıq görüldü.

Pakistanlı tarixçi Sərvarın qeyd etdiyi kimi, Osmanlı ordusu açıq-aydın say üstünlüyünə malik idi, ona görə də yalnız Osmanlı şahidi Həkimuddin İdris Bitlisinin yazdığına görə, 40.000 Səfəvi ordusuna I Səlimin 100.000-lik ordusu qarşı çıxdı. Səfəvi mənbələrinə görə, bərabərsizlik daha da böyük idi, Osmanlılar ancaq odlu silahlar hesabına qalib gəldilər. Savory-nin əsərində sitat gətirdiyi Venesiya yazıçısı Katerino Zeno bu anı belə təsvir edir: "Qırğını görən monarx ( Səlim ) geri çəkilməyə və arxaya dönməyə başladı və döyüş meydanından qaçmağa az qalmışdı ki, Sinan lazım olan anda xilas etməyə gələrək, topçu gətirməyi əmr edib və hər iki tərəfə atəş açıb. Əvvəllər heç vaxt bu cəhənnəm maşınlarının nəriltisini eşitməmiş fars atları düzənliyə səpələnib qarışıb...belə bir gurultu eşidən bütün ordu məğlub olub qılıncdan keçirələcəkdi".

L.Lockhart, B.Levis, R.P.Lindner yazır ki, Çaldıran döyüşündən sonra Şah İsmayıl Səfəvi ordusunu odlu silahlarla təchiz etmək qərarına gəldi və Səfəvi ordusunda odlu silahların olması xəbəri Azərbaycana qarşı yeni yürüşdən əvvəl yeniçərilərin qorxusuna çevrildi. Bu, Səlimi 1518-ci ildə Misir yürüşündən qayıtdıqdan sonra Səfəvi imperiyasının təkrar istilasından əl çəkməyə məcbur etdi.

## M. HAYDEGGER FƏLSƏFƏSİNİN MÜASİR DÖVÜRDƏ AKTUALLIĞI

**Arzu Abbasova**
**BDU-nun Tarix fakültəsinin Azərbaycanın maddi-mədəniyyət tarixi ETL-nin əməkdaşı**
**arzu.abbasovahis@gmail.com**

***Açar sözlər:*** *Varlıq, fikir, dil, özünüdərk*
***Key words:*** *existence, thought, language, self-awareness*

Mövzunun aktuallığını şərtləndirən bir neçə cəhət vardır. Onlardan birincisi M.Haydeggerin adı ilə bağlı olmasıdır. Müəllifin fəlsəfəsinin təsiri çox geniş diapazonda və məhsuldar olmuşdur. Bu, müxtəlif tədqiqatçılar tərəfindən dönə-dönə

ifadə edilmişdir. Belə ki, Haydeggerin XX əsr Qərb fəlsəfəsinin formalaşmasında, ekzistensializm, fenomenologiya, neomarksizm, tənqidi nəzəriyyə, hermenevtika, postmodernizm, texnika fəlsəfəsi və ekoloji təfəkkür, analitik fəlsəfə, elm nəzəriyyəsi, sinergetika və s. kimi bir sıra fəlsəfi məktəblərin təşəkkülündə və inkişafında böyük rol oynamışdır. Əlavə olaraq, Haydeggerin təsiri təkcə fəlsəfə ilə məhdudlaşdırılmamış, müasir xristian teologiyasında, ədəbiyyat və ədəbi tənqidçilikdə, psixoanalitikada, o cümlədən fizika kimi təbiət elmlərində də özünü göstərmişdir. Onun fikirlərinin əks-sədası sürətlə Avropa sərhədlərini aşaraq, bütün dünyaya yayılmış və bir çox ölkələrində özünə ardıcıl-lar tapmışdır. Məhz bu səbəbləri əsas gətirərək cəsarətlə demək olar ki, Haydegger bütün XX əsr Qərb fəlsəfəsinin anlaşılması baxımından açar filosoflardan biri, bəl-kə də birincisidir. Nəzərə alsaq ki, bütün XX əsr Qərb fəlsəfəsi tarixində Haydeg-gerin yaradıcılığı öz rəngarəngliyi və zənginliyi baxımından bütün dövrləri üstələ-yir, onda sözü gedən müəllifin fəlsəfi çəkisi bir az da dəyərlənmiş olur. Bu tədqiqat işi Qərb dəyərləri üzərində qloballaşan dünyaya inteqrasiya olunduğumuz bir dövrdə və bunun nəticəsində də milli mənəvi dəyərlərin məzmununda və çəkisində dəyişikliklərin getdiyi bir vaxtda, müasir Qərb təfəkkürünün ən son yeniliklərini tanımaq, müasir dünya fəlsəfəsində gedən müzakirələrə qoşulmaq və ona inteq-rasiya etmək baxımından aktualdır. Mövzunu aktuallaşdıran cəhətlərdən ikincisi qoyulmuş problemlərin qədimliyi,daha doğrusu əbədiliyi ilə əlaqədardır. Sözüge-dən mövzunun əsas məsələsi mövcudluğun analitikası ilə bağlıdır. Haydeggerin Varlıq problematikasına ekzistensional yanaşması, onun müraciət etdiyi bütün fəlsəfi sahələrə ontoloji rəng verməsinə səbəb olmuşdur. Haydeggerin təfəkkür paradiqması nə Orta əsrin dini fəlsəfəsinə xas olan teosendirizm kimi, nə də Yeni dövrün kartezian fəlsəfəsinə xas olan antroposentrizm kimi səciyyələndirilə bilər. Haydegger daim Sokrataqədərki yunan mütəfəkkirin kosmosentrizminə paralel paradiqmadan çıxış etmişdir: bu təfəkkür paradiqmadsı Varlıq mərkəzçiliyidir. Varlıq kateqoriyası Haydeggerin fəlsəfəsinin mərkəzidir, hansıki bütün yollar Var-lığa doğru gedir. Onun məşğul olduğu elə bir fəlsəfi problem (insan, dil, metafizika, fəlsəfə tarixi, ekzistensiya, ölüm, poeziya, zaman, texnika və s,) yoxdur ki, bu mərkəzi problemlə bağlanmamış olsun. Hegeldə Tanrı ilə insanın, sonsuz ilə sonlununvarlığı bir-birinə qarşılıqlı olaraq möhtac olduğu kimi, Haydeggerdə də Varlıq (Mövcud olma) ilə mövcud olan bir-birindən asılıdır. Haydegger Varlıq-Mövcud olan bölgüsünü "ontoloyi diferensiya"adlandırır. Mövcud olma (Сущее) konkret olaraq mövcud olan təkcə bir şey deməkdir. Mövcud olan həmişə nağd olaraq, burada və indi "bu" kimi mövcuddur. Varlıq ilə Mövcud olanın münasibəti aşağıdakı kimidir: Varlıq nə Mövcud olanın özüdür, nə də Mövcud olan kimidir, o sadəcə olaraq Mövcud olanın varlığıdır və əksinə, Mövcud olan da Varlıqdan ayrı deyil, o da Varlıqsız mövcud ola bilməz. İki cür Mövcud olan vardır:a)" Mövcud olan necə var elə" (Сущее как таковое, как оно есть) və ya sadəcə "Özü-özünə mövcud olan" (Сущее само по себе) kimi, məsələn: daş, sevinc, quş kimi konkret bir şey: ) "Bütövlükdə Mövcud olanın Varliqla vəhdəti" (Сущее в целом, совокупность Сущего) dünyadır. Varlıq daim Mövcud olanın varlığı olduğu üçün, onda buna müvafiq olaraq Varlıq da ikimənalıdır: konkret bir şeyin varlığı və dünyanın varlığı.

Mövzunu aktuallığını şərtləndirən əsas cəhət ondan ibarətdir ki, Varlıq və mövcud olanın özünüdərketmə qabiliyyəti məsələsidir. Aparılan tədqiqatın əsas bölümü də məhz budur. Haydegger yazır ki, varlığı konseptualizmdən təmizlənmiş şüurda aşkar etmək mümkündür. Özünüdərk nəticəsində əmələ gələn qüsurları ara dan qaldırmaq mümkündür. İnsanı dərk etmək isə onun mahiyyət və mövcudluq prinsiplərini, varlığın hərəkətverici qüvvələrini ayırd etmək deməkdir. Müasir Qərb fəlsəfəsinin bütün cəhdləri bu strateji məqsədin həyata keçirilməsinə yönəlmişdir.

Mövzunun aktuallığını şərtləndirən sonuncu cəhət dil və varlığınmünasibəti məsələsidir. Təfəkkür və nitq insan enerjisinin öztəcəssümü, onun realizasiya metodu

kimi mövcuddur. Məhz həmən fakt təfəkkür və nitqin fəaliyyət qanunlarının dərkini ön plana çəkmək zərurətini ortalığa atır. Məhz Haydeggerin ekzistensialist analitikasının tədqiqatı insana həyat, mənalılıq, gözəllik, dünyaya və özünə ağıllı münasibət, normal nitq və təfəkkür modeli, insan və dünya haqqında düzgün təsəvvür aşılayır. İnsanın fəth edilməsi onun haqqında müfəssəl təsəvvürün yaradılması öncə təfəkkür və nitqin mövcudluq və fəaliyyətinin fundamental prinsiplərinin, onların qanun və normalarının müəyyənləşdirilməsi, məntiqi linqvistik gerçəkliyin fəaliyyət mexanizminin hərəkətverici qüvvəsini ayırd etməyi tələb edir. Qərb bu vəzifəni yalnız fəlsəfənin deyil, insan haqqında bütün müasir elmin strateji vəzifəsi hesab edir.

## İTALYANDİLLİ SƏYAHƏTNAMƏLƏRİN MƏNBƏŞÜNASLIQ ƏHƏMİYYƏTİ (XV-XVI ƏSRLƏR)

**Orucova Aynur**
**AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı**
**aynur.orucova1995@gmail.com**

***Açar sözlər:*** *səyahətnamələr, mənbəşünaslıq, ordu, orta əsrlər*
***Key words:*** *travelogues, source studies, army, medieval*

XV- XVI əsrlərin tarixi proseslərini öyrənmək üçün istər yerli, istərsə də xarici mənbələr Azərbaycan tarixinin mənbəşünaslığı üçün əhəmiyyətlidir. Bu mənbələrdən biz həm siyasi hadisələr, onların baş vermə səbəbləri, hadisələrin irəliləyişi və xarici siyasət, həm də ölkə daxilində həyata keçirilən tədbirlər, onların məqsədi və nəticələri kimi məsələlərin araşdırılması və aşkara çıxarılmasında yetəri qədər məlumat əldə edirik. Bu da hadisələrin və digər məsələlərin təhlili baxımından önəmini saxlamaqdadır.

Araşdırmamızın əsas tədqiqat obyekti XV və XVI əsrlər ərzində Azərbaycan ərazisində olmuş italyan səfir və diplomatlarının səfərnamələri və eyni zamanda səyahətnamələrində Azərbaycan haqqında məlumatların əks olunduğu digər italyandilli mənbələrdir. Bu mənbələr orta əsrlər dövrümüzün mənbəşünaslığını zənginləşdirin qaynaqlardır. Lakin qəbul ediləsi haldır ki, bu qaynaqlar yerli qaynaqlardan həm yazılması metodunda, həm də bilgilərin əks olunması baxımından fərqlidir.

Bəs niyə görə bu səyahətnamələr Azərbaycan tarixinin mənbəşünaslığı üçün bu qədər önəmlidir. İlkin növbədə qeyd etməliyəm ki, hadisələrə yerli xalq, yerli tarixçi gözü ilə deyil, Avropalı səfir, diplomat və eyni zamanda səyyah kimi yanaşmışlar. Qəbul ediləsi haldır ki, səfir- diplomatlar səyahətnamələrini yazarkən ilk başda tarix kitabı yazmaq niyyətində olmamışdılar. İtalyan səfir və diplomatlar onlara maraqlı gələn, Avropada qarşılaşmadıqları şeyləri yazırdılar.

Onların səyahətnamələrinə diqqətli yanaşdıqda bu yazılarda dövlətlərimizin ordu quruluşları, sayları haqqında bilgilər də mövcuddur. Bu heç də təsadüfi deyildir. Çünki nəzərə alsaq ki, bu səfirlər Azərbaycan dövlətlərini Osmanlıya qarşı müharibəyə təhrik etməkdən ötrü göndərildiklərindən onlar bu qeydləri aparmalı idilər. Eyni zamanda səyahətnamələrin mənbəşünaslıq əhəmiyyətini artıran digər istiqamət isə onlarda şəhərimizlə bağlı məlumatların əks olunmasıdır. Belə ki, bu səyahətnamələrdə fərqli şəhərlərimizin adları çəkilir. Bəziləri haqqında geniş məlumat əks olunsa da, bəzi şəhərlər haqqında isə qısa məlumatlandırıcı xarakterli qeydlər əldə etmək mümkündür. Təbii ki, səyahətnamələrdən biz digər məsələlər barədə də məlumatlar əldə edirik.

Azərbaycan tarixinin mənbəşünaslıq bazasını genişləndirən bu italyandili səfərnamələrin öyrənilməsi olduqca vacibdir. Azərbaycan tarixi elmi qarşısında aktual məsələlərdən biridir. Orta əsrlər dövrümüzün bir çox məsələlərinin araşdırılması və

aydınlanması istiqamətində səyahətnamələrin öyrənilməsi ilkin növbədə tariximizin xarici qaynaqlar əsasında tədqiq edilməsi baxımından önəmlidir.

## SOVET-ALMAN MÜHARİBƏSİ ƏRƏFƏSİNDƏ SSRİ-DƏ HƏRBİ-İQTİSADİ POTENSİALIN VƏ SƏFƏRBƏRLİK QABİLİYYƏTİNİN ARTIRILMASI

**Balamirzə Məmmədli**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Slavyan ölkələri tarixi kafedrasının magistrantı**

***Açar sözlər:*** *İkinci dünya müharibəsi, SSRİ, hərbi-iqtisadi potensial, səfərbərlik, müdafiə sənayesi*
***Key words:*** *World War II, USSR, military-economic potential, mobilization, defense industry*

Tarix boyunca demək olar ki, bütün müharibələrin və hərbi münaqişələrin nəticəsi, dövlətlər arasındakı silahlı qarşıdurmalar arxa cəbhənin vəziyyəti və imkanları, müharibə aparan dövlətin iqtisadi vəziyyəti ilə sıx şəkildə bağlı olmuşdur. Müharibədə qələbənin qazanılması bir sıra digər mühüm amillərdən asılı olsa da, müvəffəqiyyət biləvasitə, mütəşəkkil arxa cəbhəyə, kifayət qədər güclü hərbi-iqtisadi potensiala malik və müasir silahlarla təchiz edilmiş ordu tərəfindən əldə oluna bilər.

1940-cı ilin əvvəllərində müxtəlif mülki məhsullar istehsal edən zavodların müdafiə xalq komissarlıqlarına verilməsi ilə sənayenin qismən səfərbər edilməsi prosesi başladı, çoxlu sayda müəssisə Aviasiya sənayesi üzrə xalq komissarlığının tabeliyinə verildi. 1940-cı ilin sonunda aviasiya texnikasının istehsalı ilə məşğul olan müəssisələrin sayını 1937-ci il ilə müqayisədə 75% artırmağa imkan verdi.

1941-ci il fevralında XVIII partiya konfransının SSRİ xalq təsərrüfatının cari il üçün inkişaf planı və müdafiə sənayesinin artım tempinin yüksəldilməsi, nəqliyyatın işinin təkmilləşdirilməsi ilə bağlı məsələləri müzakirə edən qərarları sovet iqtisadiyyatının gücləndirilməsi işində mühüm rol oynadı. Konfrans zamanı SSRİ Dövlət Plan Komitəsinin sədri N.A.Voznesenski çıxışında deyirdi: “Sovet İttifaqı müasir müharibənin texniki-iqtisadi xüsusiyyətlərini nəzərə almaya bilməz və ona görə də milli iqtisadiyyatını qabaqcıl texnologiya ilə silahlandırmaq, ümumilikdə ölkəni lazımi hazırlıq vəziyyətində saxlamaq üçün tədbirlər görülür”.

Sovet rəhbərliyi müharibə ərəfəsində ölkənin iqtisadi hazırlığına, müdafiə sənayesinin inkişafının zəruriliyinə mühüm əhəmiyyət verməsinin nəticəsi idi ki, ölkənin müdafiəsi üçün ayrılan vəsait 1939-cu ildə 40 milyard rubl idisə, 1940-cı ildə 56 milyard rubla, 1941-ci ildə isə 71 milyard rubla çatdırıldı və bu məbləğ 1939-cu ildə ümumi dövlət büdcəsinin 25,6%-ni təşkil edirdisə bu rəqəm, 1940-cı ildə 32,6%, 1941-ci ildə 43,4%-ə kimi artmışdı.

“Motorlar müharibəsi” sovet dövlətini daima yanacaq bazasının, neft hasilatının və kömür çıxarılmasının artırılmasına xüsusi qayğı göstərməyi tələb edirdi. Neftin əsas hissəsi Qafqazda, xüsusilə Bakıda hasil edilir və emal olunurdu. Lakin, 1940-cı ildə Qafqazın neft emalındakı payı 90-97%-dən 84%-ə düşmüşdü. Buna baxmayaraq, Bakı neftçiləri təkcə 1941-ci ildə respublika sənayesi tarixində rekord sayda – 23 481 000 ton neft istehsal etməyə nail olmuşdular. Bu, həmin il bütün SSRİ-də hasil olunan 33 milyon ton neftin 71,2%-nə bərabər idi.

Beləliklə, Böyük Vətən müharibəsi ərəfəsində artan hücum təhlükəsi şəraitində sovet iqtisadiyyatının hərbi relslər üzərinə keçirilməsinin əsası qoyuldu, səfərbərlik qabiliyyətinin artırılması üçün mühüm tədbirlər həyata keçirildi. Hərbi-iqtisadi potensial bütövlükdə sovet xalqının üzərinə düşəcək ağır sınaq olan uzun və qanlı müharibənin

tələblərinə mümkün qədər uyğunlaşdırıldı. Həyata keçirilən tədbirlər Sovet İttifaqının hərbi-sənaye potensialının gücləndirilməsinə misilsiz töhfələr verdi. Müharibə ərəfəsindəki illərdə həyata keçirilməyən tədbirlər isə, artıq müharibə illərində qələbəyə böyük töhfə verəcək qəhrəman arxa cəbhə zəhmətkeşlərinin çiyinləri üzərinə düşməli oldu.

## XIX ƏSR MƏNBƏLƏRİ ŞƏKİ BÖLGƏSİNDƏ KAPİTALİST SƏNAYESİNİN FORMALAŞMASI HAQQINDA

**Məmmədov Anar Amil oğlu**
**SDU-nun Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının doktorantı 1983anarmemmedov@gmail.com**

***Açar sözlər:*** *Şəki, kapitalist, sənaye, mənbə, statistika, nəşr*
***Key words**: Sheki, capitalist, industry, source, statistics, publication*

XIX əsr mənbələrində Azərbaycanda kapitalist sənayesinin formalaşması haqqında kifayət qədər məlumatlara, faktlara rast gəlinir. Bu dövrdə Şəki bölgəsində kapialist münasibətlərinin formalaşması prosesin ümumi mənzərəsini müəyyət etməkdə əvəzsiz rol oynayır. Şəki bölgəsinin tarixinin öyrənilməsində səlnaməçi tarixçilərdən Şeyx Hasan Mollazada, Kərim ağa Şəkixanov, Rəşid bəy İsmayılovun əsərlərində bölgəyə aid ümumi xarakterli məlumatlarla yanaşı, kapitalist münasibətlərinin yaranması haqda bəzi məqamlar verilir.

Bəhs edilən mövzu üzrə mənbə xarakterli sənədli materiallar, hesabatlar, statistik hesabatlar daha çoxdur. İlk belə sənəd 1836-cı ildə nəşr edilən 4 cildlik "Cənubi Qafqazda rus mülklərinin təsviri" adlanır. "Qafqazda əhalinin və ərazinin təsviri üçün materiallar toplusu" adlı çoxcildlik nəşrin müvafiq cildlərində bizim araşdırdığımız mövzu üzrə bəzi faktlara rast gəlinir. XIX əsrin ortalarından başlayaraq müxtəlif illərdə nəşr edilmiş Qafqaz canişininin hesabatlarında da bizə maraqlı olan rəqəm və faktlara rast gəlmək mümkündür. P.Ququşvilinin redaktorluğu ilə nəşr edilmiş "Cənubi Qafqazda kənd təsərrüfatı və aqrar münasibətlər" adlı 4 cildlik nəşrdəki müəyyən materiallar mövzumuzun araşdırılmasına kömək edir.

1866-1904-cü illərdə nəşr edilmiş 12 cildlik "Qafqaz Arxeoqrqfik Komissiyanın materialları" adlı nəşr də tədqiqatımız üçün əhəmiyyətlidir. 1895-1916-cı illərdə Qafqaz Canişini dəftərxanasının nəşr etdirdiyi illik "Qafqaz təqvimi" adlı stastik nəşrdəki müəyyən materiallar araşdırmalaramıza yardımçı ola bilər. Tədqiq edilən mövzunun araşdırılması üçün zəngin mənbə bazası rolunu oynayan və kifayət qədər məlumatların olduğu nəşrlər arasında Cənubi Qafqazda dövlət kəndlilərinin iqtisadiyyatı və məişətinin öyrənilməsi üçün "...Materiallar" və "...Xülasə" adlı iki mühüm nəşrdəki materiallarının əhəmiyyəti ayrıca qeyd edilməlidir.

XIX əsrdə Şəki bölgəsində kapitalist sənayesinin formalaşmasından bəhs edən, yaxud bunu araşdırmağa kömək edən mənbə xarakterli digər nəşrlər də kifayət qədərdir. Biz onları kompleks şəkildə məqalədə vurğulamağa çalışacağıq.

## ƏBÜL-MƏHASİN İBN TAĞRIBERDİNİN "ƏN-NÜCUM ƏZ-ZAHİRƏ" ƏSƏRİNDƏ ƏMİR TEYMURUN MƏMLÜKLƏRLƏ MÜNASİBƏTLƏRİNİN DƏYƏRLƏNDİRİLMƏSİ

**Nəsibə Mirzəyeva**
**BDU-nun Filologiya fakültəsi, Ümumi Dilçilik kafedrasının müəllimi**
**nasiba.mirza.77@gmail.com**

***Açar sözlər***: *Misir tarixşünaslığı, İbni Tağrıberdi, Ən-Nücum Əz-Zahirə, Məmlüklər, Teymur.*
***Key words:*** *Egyptian historiography, Ibn Taghribirdi, Al-Nujūm al-Zāhirah, Mamluks, Timur*

XIV-XV əsrlərdə Misir Məmlük sultanlığı özünün qüdrətli çağını yaşayırdı. İslam mərkəzi olaraq bilinən bu hakimiyyət öz dönəmində dünyaya hökmdar olmaq istəyən Əmir Teymurun əsas hədəfinə çevrilməkdə idi. Tarixi hadisələr haqqında məlumat almaq istədiyimiz mənbələr hər nə qədər müxtəlif kateqoriyalara ayrılsa da, onları müəyyən bir hadisə haqqında müsbət və ya mənfi məlumat verən qaynaqlar şəklində də sinifləndirə bilərik. Araşdırma mövzumuz olan Əbül-Məhasin Yusif bin Tağrıberdi bin Abdullah əz-Zahirinin "Ən-Nücum Əz-Zahirə Fi'l Mülük Misr Və'l Qahirə" (tərc: "Misir və Qahirə Maliklərinin Parlaq Ulduzları") əsəri Teymur haqqında tarixşünaslığa məlum olandan daha fərqli məlumatlar verən əsas mənbələrdəndir. XV əsr Misir tarixçiliyində önəmli yerlərdən birini tutan İbni Tağrıberdini keçmiş və çağdaş məsləkdaşlarından fərqli edən əsas xüsusiyyət onun dövlət təşkilatının bütün təbəqələrindən olan şəxslərlə münasibətdə olması idi. Araşdırmamızın əsas məqsədi adı keçən Misir tarixçisinin gözündən Teymur şəxsiyyətinə nəzər salmaqdır. Təəssüf ki, İbn Tağrıberdinin bu əsəri V.Q.Tizenhauzenin ərəbcə olan mənbələr siyahısında öz yerini tutmamışdır. Lakin vurğulamaq lazımdır ki, bu əsər orta əsr dövrünün tədqiqatçıları üçün olduqca əhəmiyyətlidir. Hər nə qədər Əmir Teymur kimi şəxsiyyət bu mənbədə fərqli şəkildə təsvir olunsa da, bir o qədər onun Misir səfərinin "Ən-Nücum Əz-Zahirə" kimi mənbədən dəyərləndirilməsi Məmlük tarixşünaslığında Teymura olan münasibəti öyrənməyimizə səbəb olacaqdır.

## QAFQAZDA AZƏRBAYCANIN APARICI DÖVLƏTƏ ÇEVRILMƏSINDƏ HEYDƏR ƏLIYEV FAKTORU

**Nəsrin Famil qızı Abdullayeva**
**Bakı Dövlət Universiteti Tarix Fakültəsi**
**Qafqaz xalqlarının tarixi kafedrasının magistrantı**
**e-mail: nesrin.abdullayeva99@mail.ru**

***Açar sözlər:*** *Ulu öndər, beynəlxalq arena, Bakı-Tbilisi-Ceyhan, inkişaf, neft, Qafqaz*
***Key words:*** *Great Leader, international arena, Baku-Tbilisi-Ceyhan, development, oil, Caucasus*

Azərbaycanın neft sənayesi 150 illik tarixi dövr ərzində böyük bir inkişaf yolu keçmişdir. XX əsrin 70-80-ci illərində Azərbaycanın neft sənayesi böyük nailiyyətlər əldə etdi və maddi-texniki bazası möhkəmləndirildi. Həmin illərdə Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin xidmətləri sayəsində neft sənayesində böyük uğurlar əldə edilmişdir. Heydər Əliyev uzaqgörən siyasətçi idi və başa düşürdü ki, respublikanın inkişafı üçün enerji təminatını yaxşılaşdırmalı, sənaye potensialı yaradılmalı, elm və

mədəniyyət, insan potensialı inkişaf etdirilməlidir. Azərbaycanın 2020-ci ilədək müəyyən olunmuş inkişaf konsepsiyası və buradakı əsas hədəflər Heydər Əliyev ideyalarından bəhrələnmişdir. Bu hədəflər Ulu öndərin layiqli davamçısı İlham Əliyev tərəfindən müasir reallıqlara söykənməklə zənginləşdirilmiş, Ulu öndərin strategiyası, arzuları artıq həqiqət olmuşdur. Azərbaycanın bugünkü enerji siyasəti Ulu öndərin neft strategiyası əsasında qurulmuş və dünyanın müasir tələblərinə uyğunlaşdırılmışdır.

Hələ 70-ci illərin əvvəllərindən başlayaraq Xəzər dənizində planlı şəkildə geoloji-kəşfiyyat işlərinin təşkil olunması Heydər Əliyevin tarixi xidmətlərindən biri idi. Heydər Əliyevin bu illərdə neft sənayesində gördüyü işlər onun uzaqgörən planlarının, xalqımızı müstəqilliyə doğru aparmaq niyyətlərinin əsası idi. Hələ 80-ci illərin axırlarından Azərbaycan neftinə maraq göstərən xarici neft şirkətləri ilə danışıqlar aparılırdı. Xalqın iradəsi və çağırışı ilə 1993-cü ildə heydər Əliyevin hakimiyyətə qayıtmasından sonra Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklər baş verdi. Bakı şəhərində “Gülüstan” sarayında 1994-cü ilin 20 sentyabrında Qərb dövlətlərinin önəmli neft şirkətləri ilə bağlanan neft sazişi Azərbaycanın yeni tarixinin şanlı səhifəsi idi.

Müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olunan bu saziş “Əsrin müqaviləsi” adlandırıldı. Bu müqavilənin imzalanması müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və Heydər Əliyev tərəfindən hazırlanan neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürü idi. Bu tarixi hadisə ilə Azərbaycan öz sərvətlərinin tam sahibi olduğunu bütün dünyaya nümayiş etdirdi və müstəqilliyini bir daha sübut etdi. Uzun bir müddət imperiya maraqlarına xidmət emiş milli sərvətlərimizin, təbii ehtiyatlarımızın dövlətimizin və xalqımızın rifahı üçün istifadə olunması, bu məqsədlə xarici investisiyaların cəlb olunması üçün mühüm siyasi addımlar atılmışdır.

Ümumilli liderin əsasını qoyduğu neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarlarına nəqli məsələsi idi. Regionda neftin hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə böyük əhəmiyyətə malik Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün mühüm işlər həyata keçirilmişdir. Bu layihənin reallaşması Şərq-Qərb enerji dəhlizinin tərkib hissəsi kimi ölkələrarası beynəlxalq əməkdaşlığın genişlənməsinə stimul verdi və regionda iqtisadi yüksəlişə, yeni beynəlxalq iqtisadi əlaqələrin qurulmasına şərait yaratdı. Təkcə Azərbaycanın deyil, Cənubi Qafqazın XXI əsrdəki inkişafının əsasını qoyan Heydər Əliyevin neft konsepsiyası Xəzərdəki zəngin karbohidrogen potensialını hərəkətə gətirərək, inkişaf mərhələsinə yol açdı. Məhz Heydər Əliyevin əsasını qoyduğu milli neft strategiyasının uğurla reallaşması şəraitində karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birlikdə istismarı və ixracı ildən-ilə genişləndi və Azərbaycanın valyuta daxilolmaları sürətlə artdı. Bütün bunların sayəsində bügun Azərbaycan sürətli iqtisadi inkişaf tempinə malikdir və mühüm beynəlxalq layihələrin iştirakçısıdır. Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiya olunması ilə neftdən gələn gəlirlərin idarə edilməsi sahəsində iqtisadiyyatda ən yaxşı təcrübələr tətbiq edildi. 1999-cu ildə Heydər Əliyevin Fərmanı ilə Dövlət Neft Fondunun yaradılmasının məqsədi ölkəyə daxil olan böyük neft gəlirlərinin toplanması və məqsədyönlü şəkildə istifadəsinin təmin edilməsi idi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, iqtisadi resurslar, neft sənayesinin yüksəlişi “məqsəd yox, vasitədir”. Göründüyü kimi Heydər Əliyevin neft konsepsiyası təkcə Azərbaycanın deyil, Cənubi Qafqazın XXI əsrdəki inkişafının əsasını qoymuşdur. Prezident İlham Əliyevin genişmiqyaslı siyasəti nəticəsində görülən bütün işlər Azərbaycanın dinamik inkişafına, dünya miqyasında öz mövqeyini daha da gücləndirməsinə əlverişli zəmin yaradacaqdır.

# VIII QLOBAL BAKI FORUMUNUN ƏHƏMİYYƏTİ

**Orucov Samir**
**Jurnalist-AzTV**
**samirorucov85@gmail.com**

***Açar sözlər:*** *Azərbaycan, Bakı, Qlobal Forum*
***Keywords:*** *Azerbaijan, Baku, Global Forum*

Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə noyabrın 4-dən başlayaraq 3 gün davam edən VIII Qlobal Bakı Forumu öz işini başa vurdu. 2013-cü ildə Cənubi Qafqaz Forumu, 2014-cü ildə Qlobal Açıq Cəmiyyətlər Forumu adı ilə keçirilən bu forum, 2015-ci ildən başlayaraq Qlobal Bakı Forumu adlanır və bu Forumda dünyanın bir sıra ölkələrinin dövlət başçıları, tanınmış siyasətçilər iştirak edirlər. Budəfəki tədbirdə iştirak edən qonaqlar, tanınmış ekspertlər forumun müzakirəyə çıxarılan qlobal problemlərin həllinə fayda verəcəyinə əmin olduqlarını bildirdirlər. Foruma 40-dan artıq ölkədən 300-dən çox nümayəndə heyətlərinin qatılması, müxtəlif sahələr üzrə mütəxəssislərin fərqli platformalar üzrə müzakirələrə qatılması onu göstərir ki, bəşəriyyətin gələcəyini təhdid altına alan çağırışlara qarşı birgə səylər, həmrəylik olmadan müqavimət göstərmək mümkün olmayacaq. Bu isə həm də Azərbaycan Prezidentinin sərəncamı əsasında 2012-ci il sentyabrın 30-da təsis edilən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq dialoqun təşkili, çağdaş dövrün əsas təhdidləri ilə birgə mübarizədə əməkdaşlığın təminində əhəmiyyətli platformalardan birinə çevrildiyindən xəbər verir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri dünya miqyasında özlərini təsdiq edən ictimai xadimlər kimi tanınır, bu səbəbdən onların müzakirələr zamanı irəli sürdüyü arqumentlər qlobal səviyyədə mötəbər hesab edilir. Əlbəttə, klubun ən vacib mövzuların müzakirə platforması statusunu qazanmasında Prezident İlham Əliyevin şəxsi nüfuzu, beynəlxalq səviyyədə ardıcıl şəkildə həmrəylik və əməkdaşlıq təşəbbüsləri ilə çıxış etməsinin özünəməxsus rolu var. Azərbaycanın qlobal problemlərin həllində maraqlı olduğunu 2013-cü ildən etibarən hər il keçirilən foruma qatılan şəxslərin sayı və nüfuzunun artan dinamikası da təsdiq edir. VIII Qlobal Bakı Forumunun ümumi toplantısı və keçirilən panel-iclaslar isə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünyanın və regionun gələcəyini təhdid edən qlobal çağırışlara vaxtında reaksiya verməyi bacaran təşkilata çevrildiyini sübuta yetirir. Bu təhdidlərdən biri də 44 günlük müharibədə ağır məğlubiyyətə uğrayan Ermənistanın irəli sürdüyü revanşist siyasi kursdur. Azərbaycan öz həqiqətlərini çatdırmaq, Ermənistanın 30 il ərzində yürütdüyü işğalçı siyasəti bu kimi platformalarda ifşa etməklə informasiya təhlükəsizliyinin təmininə də qarant alır. Bu gün informasiya cəbhəsində ermənilər və onların havadarlarının irəli sürdüyü tezisləri darmadağın etməkdən ötrü VIII Qlobal Bakı Forumunun işinə qatılan nüfuzlu liderlər diplomatik müstəvidə təsirli rol oynaya bilər.

“COVID-19-dan sonrakı dünya” mövzusunda keçirilən Qlobal Bakı Forumunun sonuncu günü “Cənubi Qafqaz: regional inkişaf və əməkdaşlıq üçün perspektivlər” mövzusunda panel iclasla başladı. İclasın moderatoru Latviyanın sabiq prezidenti Valdis Zatlers Ermənistan-Azərbaycan münaqişəsindən danışdı. Bildirdi ki, 30 il davam edən münaqişəni Azərbaycan öz gücü ilə həll edib. Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev isə diqqətə çatdırdı ki, Zəngəzur dəhlizinin açılması regionda nəqliyyat əlaqələrinin bərpasını təmin edəcək. Azərbaycan Ermənistanla sərhədlərin delimitasiya və demarkasiyasına başlanmasının, sülh müqaviləsinin imzalanmasının tərəfdarıdır. Türkiyənin sabiq Baş naziri Binəli Yıldırım isə Ermənistanın Azərbaycanın təklif etdiyi sülh müqaviləsinə müsbət yanaşmalı olduğunu dedi. ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin sabiq müavini Deyvid Merkel diqqətə çatdırdı ki,

Azərbaycan Qarabağı işğaldan azad etdikdən sonra regional təşəbbüslər bölgəni inkişaf etdirəcək. Lakin forum tək münaqişə və müharibələr deyil, planeti lərzəyə salan digər məsələlərdə də konsensusun əldə edilməsinə təkan verəcək. Belə ki, Bakı forumunda;

-“Yeni erada sülh, təhlükəsizlik və insan haqları”;

-“COVID-19-dan sonra yeni dünya nizamı”;

-“Yeni dünya iqtisadiyyatı”;

-“Ərzaq və qida təhlükəsizliyinin təşviqi”;

- "Şərq Tərəfdaşlığı proqramı: potensialı nədir?”;

-“Cənubi Qafqaz: regional inkişaf və əməkdaşlıq üçün perspektivlər” və digər aktual mövzularda panel-iclasların təşkili göstərir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bu məsələlərə adekvat reaksiya ortaya qoyan platforma kimi seçilir.

Beləliklə, artıq öz işini başa vuran VIII Qlobal Bakı Forumu müzakirə etdiyi mövzularla münaqişələr, pandemiya, ərzaq qıtlığı, iqlim dəyişiklikləri kimi müasir dünyanın əsas problemlərinə adekvat münasibət göstərməsi ilə tarixə düşəcək.

## TARİXİ YADDAŞ RƏMZİMİZ OLAN MADDİ-MƏDƏNİYYƏT ABİDƏLƏRİMİZƏ QARŞI ERMƏNİ VANDALİZMİNİ DÜNYA İCTİMAİYYƏTİNƏ TANIDAQ

**Səkinəxanım Famil qızı Məmmədova**
**BDU, Jurnalistika fakültəsinin məzunu**

**Açar sözlər:** Vətən müharibəsi, tarixi və maddi-mədəniyyət abidələri, erməni vandalizmi, dünya ictimayyəti, xarici mətbuat

**Key words:** Patriotic War, historical and material-cultural monuments, Armenian vandalism, world community, foreign press

Dünya tarixində saysız-hesabsız müharibələr olub. Müharibə isə insan itkiləri ilə yanaşı ölkələr, şəhərlər, kəndlər və infrastrukturun dağılması deməkdir. Lakin “müharibə qanunları” adlanan ifadə müharibə zamanı hər iki tərəfin hərəkətlərinə müəyyən məhdudiyyətlər qoymaqla, “Cenevrə konvensiyaları” kimi tanınaraq beynəlxalq humanitar hüquqla tənzimlənir. Beynəlxalq humanitar hüququn ən ciddi pozuntuları isə müharibə cinayətləri hesab edilir. Azərbaycan da zaman-zaman müharibə cinayətlərinə məruz qalan ölkələrdən biridir.

Dağlıq Qarabağ və ətraf yeddi rayonun beynəlxalq səviyyədə Azərbaycan Respublikasının bir hissəsi kimi tanınmasına baxmayaraq, bu ərazilər artıq 30 ilə yaxın idi ki, Ermənistan Respublikasının işğalı altında idi. Ötən ilin sentyabr ayının sonundan başlayan döyüşlər 10 noyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev, Ermənistan Respublikasının baş naziri N.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.Putin tərəfindən imzalanan bəyanatla sonuclandı, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Bu bəyanatla Şuşa şəhəri daxil olmaqla işğal edilən ərazilərimizin böyük bir hissəsi Azərbaycanın nəzarətinə qaytarıldı.

İşğal altında olan ərazilərimizdə şəhər və kəndlərimizin tamamilə dağıdılması, tarixi və maddi-mədəniyyət abidələrimizin darmadağın edilməsi, talan edilərək Ermənistan Respublikasına daşınması kimi faktlar isə erməni vandalizminin həyata keçirdiyi mənfur siyasətinin görünən tərəfləri olmaqla yanaşı, bir çox beynəlxalq sənədlərin, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, “Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya”nın müddəalarının kobud şəkildə pozulmasıdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda aparılan 44 günlük Vətən müharibəsi və ondan sonrakı dövr ərzində istər Müdafiə Nazirliyinin, istərsə də ölkə və xarici televiziya kanallarının işğal olunmuş ərazilərimizdəki vəziyyətlə bağlı yayımladığı, eləcə də sosial şəbəkələrdə yayımlanan bu cür görüntülərdə ermənilərin türkofobiya, islamafobiya və ksenefobiyası özünü aydın şəkildə təzahür etdirirdi. Azərbaycanın işğaldan azad olunmuş rayonlarında təşkil edilən monitorinqlər zamanı bu ərazilərdə mövcud olan maddi-mədəniyyət, eyni zamanda tarixi abidələrin hamısının tamamilə dağıdılmış vəziyyətdə olduğu müəyyən edildi. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən aparılan ilkin monitorinqlərin nəticələrinə görə işğaldan azad olunmuş ərazilərdə dövlət qeydiyyatına alınmış 706 tarix və mədəniyyət abidəsi, 864 mədəniyyət müəssisəsi olmuşdur. Tarixi-mədəniyyət abidələrindən 6-sı dünya əhəmiyyətli memarlıq, 5-i dünya əhəmiyyətli arxeoloji, 119-u ölkə əhəmiyyətli memarlıq, 121-i ölkə əhəmiyyətli arxeoloji, 393-ü yerli əhəmiyyətli memarlıq, 23-ü yerli əhəmiyyətli bağ-park, monumental və xatirə, 22-si yerli əhəmiyyətli arxeoloji abidələr, 17-si dekorativ-tətbiqi sənət nümunələri idi. Maddi-mədəniyyət müəssisələri içərisində 462 kitabxana, 348 mədəniyyət evi və klub, 20 muzey, 26 uşaq musiqi məktəbi, 1 kinoteatr, 2 teatr, 2 qalereya, 3 kinoklubu da bu dağıntılara aiddir.

10 noyabr 2020-ci il bəyanatından sonra işğaldan azad edilmiş ərazilərə səfər edən xarici jurnalistlər, müxtəlif təşkilatların nümayəndələri, bəzi dövlətlərin parlament missiyaları öz gözləri ilə qarşılaşdıqları bu mənzərəni gördülər və qələmə aldılar. Bunların sırasında Özbəkistanın “interpress.uz” portalı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri, beynəlxalq münasibətlər sahəsində siyasi ekspert Arye Qutun Ermənistanın və erməni vandalizminin Qarabağdakı vəhşilikləri ilə bağlı yazısında qeyd olunr ki, “ermənilər bu ərazilərdə 12 muzeyi, 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət edib və yandırıblar. Nadir tarixi əhəmiyyət kəsb edən 40 min muzey eksponatı oğurlanıb, 44 məbəd və 18 məscid dağıdılıb. Yandırılan 927 kitabxanada dörd milyon altı yüz min nüsxə kitab və nadir əlyazma nümunələri məhv edilib”.

Mədəni irsə qarşı yönəlmiş bu əməllər nəinki Azərbaycanın tarixi və maddi-mədəniyyətinə, eyni zamanda bəşərin kulturoloji düşüncəsinə qarşı vandalizm aktı kimi qeyd edilməlidir. Çünki hər bir xalqın tarixi və maddi-mədəniyyət nümunəsi həmin xalqın milli varlıq simvoludur, tarixi yaddaş nümunəsidir.

Bu baxımdan erməni vandalları tərəfindən həyata keçirilən tarixi torpaqlarımıza qarşı işğalçılıq siyasəti, xalqımıza, tarixi və maddi-mədəniyyət nümunələrimizə qarşı vəhşiliklər siyasətçilərimiz, jurnalistlərimiz, iqtisadiyyatçılarımız, tarixçilərimiz, ümumiyyətlə elmi ictimaiyyətimiz və vətəndaş cəmiyyətimiz tərəfindən xarici mətbuat səhifələrində işıqlandırılmaqla, alimlərimiz və tədqiqatçılarımız tərəfindən tədqiqa cəlb olunaraq tarixi ədəbiyyatlarda öz əksini tapmaqla, sosial şəbəkələrdə müzakirə mövzusuna çevrilməklə dünya ictimaiyyətinə dönə-dönə çatdırılmalıdır. Çünki, bu bizim hər birimizin əcdadlarımız, Vətənimiz və şəhidlərimiz qarşısında vicdani borcumuz olmaqla yanaşı, həm də vətəndaşlıq vəzifəmizdir.

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN MİLLİ DÖVLƏT QURUCULUĞUNA DAIR ƏSƏRLƏRİ MƏNBƏ KİMİ

**Allahverdiyeva Sürəyya Əli qızı**
**Bakı Dövlət Universitetinin doktorantı**
**allahverdiyevasurayya@mail.ru**

***Açar sözlər:*** *maarif, istiqlaliyyət, dövlətçilik, mənbə*
***Keywords:*** *education, independence, statehood, source*

Yüz il bundan əvvəl yaranmış AXC-nin sələfi bu günün müasir Azərbaycan Respublikasıdır. Dövlətçilik ənənələrimizi yüz il bundan əvvəl qazanmışıq, bu gün də layiqincə yaşatmağa çalışırıq. Alman geosiyasətinin klassiki sayılan Karl Haushofer Qafqazı dünya xəritəsinin "qitələrin sərhədlərində yerləşən hərbi əməliyyatlar zonası"na daxil edirdi. Bu qədər qarışıq bir coğrafiyada qısa müddətə yüz il mövcudluğunu unutdurmayacaq siyasi ənənələr qoyan AXC-nin qurucularından M.Ə.Rəsulzadənin əsərləri mənbə kimi tarixi əhəmiyyətə malikdir. "Şərqi-Rus" qəzetində M.Ə.Rəsulzadənin "Hümmət və qeyrət vaxtıdır" məqaləsində istiqlaliyyətə gedən yolda maariflənmənin vacibliyi belə vurğulanır: "Bu vaxta bizə lazım və vacibdir ki, hümmət edib, elm öyrənməyə və öyrətməyə və öyrətdirməyə səy və kişiş qılaq. Elmsiz heç bir nöqsanımız götürülməyəcəkdir".Ədəbi yaradıclıq sahəsində də milli azadlıq mübarizəmizi əks etdirən M.Ə.Rəsulzadənin "Qaranlıqda işıqlar" pyesi 1908-ci ildə dekabr ayının 5-də tamaşaya qoyuldu və müəllif xalqımızın milli oyanışını, milli muxtariyyət ideyasını təbliğ edirdi. Əsər Azərbaycanda milli-istiqlal hərəkatı ilə bağlı olan ilk dram əsəri kimi qiymətləndirilir. Artıq istiqlal arzusunu qələmə almağa başlayan müəllif gələcək fəaliyyətinin istiqamətini müəyyənləşdirmiş idi."28 May 1918-ci il. Xalq bir gündə qərinələrin sevincini yaşadı"- ifadələrini işlədən M.Ə.Rəsulzadə bu qələbənin asan olmadığını bilirdi. Müstəqilliyimizə gedən yolu, bu yoldakı çətinlikləri xatırlayan müəllif 1929-cu ildə may ayının 28-də "Odlar yurdu"nun dördüncü nömrəsində çap edilən "Bu günün ilhamı" adlı məqaləsində İslam dünyasında yaradılan ilk türk cumhuriyyətinin mübarizə tarixini Fransa burjua inqilabı, Amerikadakı istiqlaliyyət mübarizəsi, Almanyadakı burjua müharibəsi ilə eyniləşdirir, Qafqazda azdlıq əldə etməmizin tarixi naliyyət olduğunu qələmə alır.M.Ə.Rəsulzadənin AXC-nin dövlətçilik ənənələrindən bəhs edən, hələ 1923-cü ildə Türkiyədə Atatürk mükafatına layiq görülən "Azərbaycan Cumhuriyyəti" əsəridir. "Azərbaycan xəlqi" başlığı ilə verilmiş birinci hissədə Azərbaycan dedikdə hansı coğrafi arealdan söhbət getdiyi aydınlaşdırılır, ən maraqlısı isə budur ki Azərbaycanın qədim mərkəzi olan Təbriz şəhərinin adını çəkirlir. "Azərbaycanlılar milliyyət etibarilə türk, din etibarilə islam, mədəniyyəti-əsasiyyə etibarilə şərqlidirlər"-deyən müəllif bu coğrafiyada mövcud olan etnik və mədəni vəziyyəti təsvir edir. "Əsrimizin Səyavuşu" əsərində M.Ə.Rəsulzadə "Cümhuriyyətin bəxtsizliyi" başlığı altında gec qovuşduğumuz istiqlalımızı niyə tez itirməyimizin səbəblərini axtarmağa çalışmışdır. Bütün həqiqətləri qeyd edən müəllif acı sonluqdan qaça bilməməsindən çox təəssüflənir. Ancaq "Mehdinin" təkrar gələcəyinə inanan müəllif üç rəngli bayrağımızın yenidən dalğalanacağı günün xəbərçisi olan ümidlərinin onu yanıltmayacağını bilirdi, sanki gələcəkdə qazanacağımız bu istiqlalı öncədən görürdü. Bu inamı hər zaman qeyd edən M.Ə.Rəsulzadə 1952-ci ildə "Amerikanın səsi" radiosunda bu sözlərlə çıxış etmişdir: "Bu zəfər günəşi əlbəttə ki, bir gün Azərbaycanda da parıldayacaqdır!...."

# AZƏRBAYCANDA 20-30-CU İLLƏR REPRESSİYA TARİXİNİN ÖYRƏNİLMƏSİNƏ DAİR (tarixşünaslıq aspektində)

**Kərimova Nərgiz Tofik qızı**
**Bakı Dövlət Universitetinin Tarix fakültəsinin doktorantı**
***Nargiz.karimova@arti.edu.az***

***Açar sözlər:*** *repressiya, totalitarizm, qırmızı terror, 20-30-cu illər.*
***Key words:*** *repression, totalitarian, the "red" terror, the 20-30th years*

Azərbaycan tarixinin olduqca ziddiyyətli dövrünü əhatə edən XX əsrin 20-30-cu illəri repressiyaların həyata keçirilməsi ilə yaddaşlarda iz qoymuşdur. 20-30-cu illərdə milyonlarla insan Stalin repressiyasının qurbanı oldu. Azərbaycan xalqının həqiqi faciəsi isə 1936-cı ildən başlandı. Xüsusilə ziyalılar əleyhinə cəza tədbirləri 1937-1938-ci illərdə daha da amansızlaşdı.

Sovet dönəmində repressiyalar mövzusu ilə bağlı yazılan əsərlərdə məsələ obyektiv öyrənilmirdi. Repressiyaların baş verməsinin əsas səbəbi ayrı-ayrı şəxslərin səhvi kimi qələmə verilirdi. Halbuki, başlıca səbəb sovet rejiminin mahiyyətindən irəli gəlirdi. Eldar İsmayılovun "Azərbaycanda "böyük terror"un tarixi" kitabında da qeyd etdiyinə əsasən, repressiyalar millətçilərin dedikləri kimi antiazərbaycan xarakteri daşımamış, "böyük terror" millətindən və dinindən asılı olmayaraq, bütövlükdə sovet xalqının hər bir üzvünə təsir göstərmişdi.

Repressiyalarla bağlı digər yanlış bir təsəvvür isə "yalnız rejimi qəbul etməyən və rejimin səhvlərini tənqid edənlər repressiyaya məruz qalırdı" fikridir. Lakin xatırladaq ki, sovet rejimində rəhbər vəzifələrdə olan, hətta repressiyaların həyata keçirilməsində iştirak edən şəxslər belə sonradan həmin rejimin qurbanı oldular.

Ziya Bünyadovun 1993-cü ildə repressiyalar haqqında qələmə aldığı "Qırmızı terror" kitabının Ön söz hissəsində yazılmışdır: "1937-1938-ci illərdə təxminən, 70-80 min Azərbaycan ziyalı nümayəndəsi məhv edildi... Hər bir xalq düşməninə məhkəmə zamanı ancaq 15 dəqiqə vaxt ayrılırdı (tək-tək hallarda 20 dəq.). İndi qoy oxucu özü 1936-1937-ci illərdə bir saatda nə qədər zəka sahiblərinin – azərbaycanlıların güllələndiyini hesablasın. Bir gündə 24 saat (96 nəfər), ayda 30 gün (2880 nəfər), 2 il yarımda isə 80 mindən çox". Bu fakt belə, faciə miqyasının nə qədər geniş olduğunu izah etmək üçün kifayətdir.

Kitabın "Əsl qırım ərəfəsində", "1930-cu ilin faciəsi", "Qadınlarımız – qurbanlarımız", "Acı talelər" və "Hökm" başlıqlı hissələrində Azərbaycanın repressiyaya məruz qalmış görkəmli elm xadimləri, istedadlı səhnə ustaları, dini xadim, zabitlər və başqaları haqqında faktlar yer almış, 20-30-cu illər Azərbaycan tarixinin qaranlıq qalan səhifələri arxiv materialları əsasında işıqlandırılmışdır.

Ziya Bünyadovun "Repressiya dövrünün qurbanları", Cəmil Həsənlinin "Ağ ləkələrin qara kölgəsi", "30-cu illərin repressiyalarında pantürkizm ittihamı", Eldar İsmayılovun "Fəryad: qanlı 1937-ci il hadisələri haqqında", "Kölgə", Nizami Məhərrəmovun "Arxiv sənədləri şahidlik edir", "Getsin gəlməsin" və s. əsərləri repressiyalar dövrü tarixinin daha dərindən tədqiq olunmasında mühüm rol oynayır.

Zəfərimizin ilk ilini qeyd etdiyimiz bu günlərdə 30 ilə yaxın müddətdə işğal altında qalan tarixi torpaqlarımıza qovuşmağın sevinci ilə yanaşı, müstəqilliyimizin 30 ilinin qürurunu da yaşayırıq. Müstəqillik dövründə həm də tariximizin Sovet təzyiqindən qurtularaq obyektiv qiymətləndirilməsi üçün geniş imkanlar yaranmışdır. Bu baxımdan, repressiyalarla bağlı yeni və obyektiv tədqiqatların aparılmasına böyük ehtiyac vardır.

## MÜASİR DÖVRDƏ ABŞ-CƏNUBİ KOREYA RESPUBLİKASI MÜNASİBƏTLƏRİNİN ƏSASLARI

**Sevinc İbadova**
***Bakı Dövlət Universiteti, Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının doktorantı***
***E-mail:sevincibadova.212@mail.ru***

***Açar sözlər:*** *ABŞ, Koreya Respublikası, beynəlxalq münasibətlər*
***Keywords:*** *USA, Republic of Korea, international relations*

Müasir dövrün beynəlxalq münasibətlər sistemində Amerika Birləşmiş Ştatları-Koreya Respublikası əlaqələrinin özünəməxsus yeri və üstün mövqeyi vardır. Belə ki, Koreya Respublikasında keçən əsrdən başlayan iqtisadi yüksəliş dünya siyasətində mövqeyinin möhkəmlənməsinə gətirib çıxarmış və onu söz sahiblərindən birinə çevirmişdir.

Koreya Respublikası ABŞ-ın Asiyada ən mühüm strateji və iqtisadi tərəfdaşıdır. 1953-cü ildə Koreya müharibəsinin sonunda imzalanmış ABŞ və Koreya Respublikası Qarşılıqlı Müdafiə müqaviləsi ABŞ-ı Cənubi Koreyanın müdafiəsinə kömək etməyi öhdəsinə götürür.

Bu alyans, həmçinin Birləşmiş Ştatlara Şərqi Asiya və dünyanın hər yerində, o cümlədən öz qoşunlarını Koreya Respublikasında yerləşdirmək yolu ilə Orta Şərqdə ABŞ-ın rəhbərlik etdiyi hərbi münaqişələrə dair maraqlarını təmin etməyə kömək edir. Qeyd edək ki, təxminən 28,500 ABŞ əsgəri burada yerləşir.

İqtisadi tərəfdaşlığa gəldikdə isə ABŞ-Koreya Respublikası Azad Ticarət Sazişi ilə tərəflər arasında iqtisadi əlaqələr daha da inkişaf edir. Hazırda Cənubi Koreya ABŞ-ın yeddinci ən böyük, ABŞ isə Cənubi Koreyanın Çindən sonra ikinci ən böyük ticarət tərəfdaşıdır.

2020-ci ilin noyabrında Vaşinqton administrasiyasının Seuldan hərbi xərclərin bölüşdürülməsi töhfəsini 400 faiz artırmaq tələbi bu prosesdə ABŞ və Cənubi Koreya arasında müttəfiqliyin davamlılığı ilə bağlı suallar doğurdu. Lakin Bayden Administrasiyası xərclərin bölüşdürülməsi danışıqları yekunlaşdırdı, iqtisadi və strateji tərəfdaşlığa dair imzalanan sazişlər münasibətləri normallaşdırdı.

Beləliklə, müasir dönəmdə bu ittifaq ABŞ-ın Asiya-Sakit Okean regionunda strateji maraqlarını qorumaqla yanaşı, Şimali Koreya kimi regional təhlükədən müdafiə məsələsində Cənubi Koreyanın istəyinə cavab verir. ABŞ-ın təkcə Şimali Koreyanı deyil, regionda Çin və Rusiya kimi digər təhdidedici aktorları da mühasirəyə almağa çalışması bölgədəki bir çox aktoru müttəfiq kimi öz tərəfinə çəkməyi asanlaşdırırsa, Seul administrasiyasının nöqteyi-nəzərindən, ABŞ-la ittifaq həm Cənubi Koreyanı Şimali Koreya təhlükəsindən və Çinin güclənməsindən qoruyur, həm də diplomatik və iqtisadi əlaqələrin mövcud olduğu Yaponiya kimi aktorlarla münasibətləri balanslaşdırmağa və inkişaf etdirməyə imkan yaradır.

## ŞUŞA BƏYANNAMƏSİNİN MAHİYYƏTİ

**Abbasova Sevinc**
**BDU-nun məzunu**
**e-mail: sevinc_1899@icloud.com**

***Açar sözlər:*** *Türkiyə, Azərbaycan, Şuşa Bəyannaməsi*
***Keywords:*** *Turkey, Azerbaijan, Shusha Declaration*

2020-ci il sentyabrın 27-də ermənilərin Azərbaycan silahlı qüvvəlrinə və dinc əhaliyə qarşı başlatdığı silahlı atışmanın qarşısını almaq üçün ordumuz əks hücuma başladı.

44 gün davam edən və Azərbaycan Respublikasının hərbi qələbəsi ilə nəticələnən bu müharibədə Azərbaycan dövləti öz gücünü düşmənə göstərmişdir.

2021-ci il iyunun 15-də Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyip Ərdoğanın da iştirakı ilə Qarabağın tacı olan Şuşada "Şuşa Bəyannaməsi" imzalandı.

İki qardaş türk dövləti arasında müttəfiqlik münasibətləri haqqında belə mühüm sənədin imzalanması xüsusi əhəmiyyət kəsb edirdi. İki dövlət arasında imzalanmış bu sənəddə iki qardaş dövlətin gələcək çoxşaxəli, birgə fəaliyyət istiqamətləri göstərilmişdir. Bu mühim sənəddə bir çox məsələlər beynəlxalq müstəvidə birgə fəaliyyət, xüsusilə müdafiə sahəsində qarşılıqlı həbi yardımməsələləri öz əksini tapmışdır. Hər hansısa bir dövlət digərinə hansısa hərbi təzyiq göstərərsə, biri digərinə hərbi yardım göstərəcəkdir.

Həmçinin sənəddə xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli məsləhətləşmənin həyata keçirilməsinin mühüm olduğu göstərilir və bu istiqamətdə iki qardaş dövlət arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətinin əhəmiyyəti vurğulanır. Digər tərəfdən sənəddə göstərilir ki, xaricdə olan diasporalar birlikdə daha çox fəaliyyət göstərməlidir. Həqiqətlərin dünyaya çatdırılmasında da çalışmalıdırlar.

Sənəddə Ermənistanın Türkiyəyə qarşı heç bir tarixi əsası olmayan ərazi iddialarından , təhrif olunmuş tarixdən də bəhs edilir. Bütün bu baş verənlər regionda uzunmüddətli sülhə mane olur.

Şuşa Bəyannaməsi siyasi, iqtisadi, mədəniyyət sahələrini əhatə edən birgə əməkdaşlıq sənədidir. Sənəddə tarixi-siyasi, hərbi və təhlükəsizlik sahələri birlikdə əks olunmuşdur və bu sənəd iki qardaş dövlətin hər zaman bir-birinə dayaq olacağına açıq-aşkar sübutdur.

## NƏRİMAN NƏRİMANOVUN AZƏRBAYCAN HÖKUMƏTİNƏ RƏHBƏRLİK DÖVRÜNDƏKİ FƏALİYYƏTİ AZƏRBAYCAN TARIXŞÜNASLIĞINDA

**Baxşəliyev Samir Fazil oğlu**
**ADPU-nun Azərbaycan tarixi kafedrasının dosenti**
**baxshaliev81@mail.ru**

***Açar sözlər:*** *Nəriman Nərimanov, tarixşünaslıq, əsərlər, tarixçilər,dövlətçilik*
***Key words:*** *Nariman Narimanov, historiography, works, historians, statehood*

N.Nərimanovun Azərbaycan SSR hökumətinin sədri vəzifəsində çalışarkən ərazi bütövlüyümüz uğrunda mübarizəsi, o dövrdə baş vermiş bir çox hadisələrin əsl səbəblərini, dövrün tarixi reallığını araşdırmaq tarix və müasirlik baxımından aktualdır.

Bolşevik hakimiyyəti şəraitində, o cümlədən N.Nərimanovun Azərbaycan SSR hökumətinin sədri vəzifəsində çalışdığı müddətdəki fəaliyyətini araşdırmaq həm də müasir dövlət quruculuğu baxımından əhəmiyyətlidir. Məlumdur ki, N.Nərimanovun istər kommunist ideologiyasının, istər də sosialist sisteminin formalaşması və həyata keçirilməsi prosesinə fərqli baxışı var idi.

N.Nərimanovun həyatı və ictimai, siyasi, dövlətçilik fəaliyyətinin müxtəlif cəhətlərinə dair Azərbaycanda çoxlu kitab, monoqrafiya, dissertasiya və elmi məqalə yazılmışdır.

Azərbaycan sovet tarix ədəbiyyatının öyrənilməsi göstərir ki, dövrün şərtlərinə uyğun olaraq N.Nərimanov ictimai-siyasi xadim və inqilabçı kimi təqdim olunmuş, onun Azərbaycan SSR hökumətinin sədri vəzifəsində çalışdığı müddətdəki fəaliyyəti haqqında məsələlər lazımınca tədqiq olunmamış, çox vaxt bu məsələlərin üstündən sükutla keçilmişdir.

N.Nərimanovun həyat və fəaliyyətinə dair xeyli əsərlər yazılmışdırsa da, onun siyasi fəaliyyətindən bəhs edən müəlliflərin əsərlərinin sistemləşdirilrb araşdırılması olduqca vacib tarixşünaslıq problemidir. Bu mövzuya müraciət etmiş müəlliflər sovet hakimiyyətinin ilk illərində milli məsələlərin həllinin meydana çıxmasını, Rusiyada yaşayan türk xalqlarının dövlətçilik uğrunda mübarizəsini, müstəqil dövlət olmuş, lakin sovetləşən respublikaların müstəqilliklərini qorumaq yolunda apardıqları mübarizəni, Rusiya imperiyası dağılıb xalqlar müstəqillik qazandıqları şəraitdə dövlətlərarası sərhədlər probleminin ortaya çıxmasını, inkişafda olan kommunist ideologiyasının hökmranlığı şəraitində xalqların milli düşüncə və adət-ənənələrinin qorunub saxlanılması problemlərinin N.Nərimanovun necə həll etməsini araşdırmaq üçün xeyli iş görmüşlər.

Bu müəlliflərin arasında hakim ideologiyanın tələblərindən kənara çıxmamaq şərti ilə Nəriman Nərimanovun Azərbaycan SSR hökumətinin sədri vəzifəsində çalışdığı müddətdəki fəaliyyəti haqqında haqqında məsələlərdən bəhs edilmişdir.

Dövlət müstəqilliyinin bərpasından sonra Vətən tarixşünaslığında N.Nərimanovun ictimai siyasi fəaliyyətinə, o cümlədən onun Azərbaycan SSR hökumətinin sədri vəzifəsində çalışdığı müddətdəki fəaliyyətinə layiqincə qiymət verən bir sıra əsərlər yazılmışdır. Lakin bu işin tam başa çatdığını söyləmək hələ tezdir.

## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN ƏSƏRLƏRİ BAKI ZƏFƏRİNİN TARİXİ-SİYASİ ƏHƏMİYYƏTİNİN ÖYRƏNİLMƏSİNDƏ MƏNBƏ KİMİ

**Eyvazova Ləman**
**Bakı Dövlət Universiteti,**
**Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının doktorantı**
**eyvazli.leman93@gmail.com**

***Açar sözlər:*** *Bakı, Qafqaz İslam Ordusu, zəfər*
***Key words:*** *Baku, Caucasian Islamic Army, victory*

XX yüzilliyin əvvəllərində beynəlxalq münasibətlər sisteminin dəyişməsi və yeni dünya nizamının qurulması, eyni zamanda maarifçi və milli-demokratik qüvvələrin gərgin mübarizəsi nəticəsində Azərbaycan Milli Şurası 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Xalq Cümhuriyyətinin istiqlaliyyətini elan etdi. Yenicə formalaşdırılmış hökumətinin qarşısında duran ən vacib məsələ Bakı Xalq Komissarları Soveti qüvvələrinin işğalı atında olan Bakı şəhərinin və digər ərazilərin azad edilməsi idi. Xüsusilə, Bakının bolşevik qüvvələrindən təmizlənməsi AXC üçün həyati əhəmmiyyət kəsb edirdi. Bunu Məhəmməd Əmin Rəsulzadənin "Bakısız Azərbaycan başsız bir bədəndir" sözləri dolğun şəkildə özündə ifadə edir. Öz müstəqilliyini başqa dövlətin ərazisində elan etmiş, orduya və ordu ənənəsinə sahib olmayan Azərbaycan Xalq Cümhuriyyətinə bu tarixi missiyanı yerinə yetirməkdə yanlız və yanlız dil, din və qan qardaşı olan Osmanlı dövləti yardım edə bilərdi. Nəticədə, AXC və Osmanlı dövləti arasında Batum müqaviləsini imzalandı. Müqavilənin 4-cü bəndinə uyğun olaraq qısa zamanda Azərbaycan könüllü dəstələri və türk ordu hissələrindən təşkil olunmuş Qafqaz İslam Ordusu qardaş imdadına yetişdi. Qafqaz İslam Ordusunun uğurlu hərbi əməliyyatları nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü təmin edilmiş, xüsusilə də, neft Bakısı uğrunda böyük dövlətlər arasında başlamış mübarizə Azərbaycanın qələbəsi ilə başa çatmışdır.

Bu araşdırma işində M.Ə.Rəsulzadənin əsərləri, publisistikası əsasında Bakının azad olunmasının tarixi-siyasi önənin nə dərəcədə vacib olmasına, mövcud tarixi-siyasi vəziyyətin yaratdığı reallıqların nələri şərtləndirdiyinə nəzər salınacaq. Bu günə kimi bir

çox araşdırma mövzusunda pərakəndə halda toxunulan bu mövzuya daha geniş və sistematik yanaşılacaq.

"Vətən müharibə"sinin ilk günlərindən Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasına mənəvi dəstəyi, beynəlxalq arenada onun haqq sözünü deməsi müharibənin uğurlu gedişatında həlledici amillərdən biri olmuşdur. Bununla da qardaş Türkiyə yenidən Azərbaycanın ərazi bütövlüyünün bərqərar olunmasında mühüm rol oynamışdır. Buna görə də, mövzunun araşdırılması Azərbaycan və Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrinin tarixi-siyasi köklərinin, bu münasibətlərin Cənubi Qafqaz regionunda sülh və sabitliyinin mövcudluğu üçün nə dərəcədə əhəmiyyətli olduğuna nəzər salmaq , bolşevik-daşnaq qüvvələrinin türk-müsəlman əhalisinə qarşı apardığı soyqırım siyasətinin, bunlarla yanaşı neft Bakısının beynəlxalq münasibətlər sistemindəki yerinin öyrənilməsi baxımından aktualdır.

## ABBASQULU AĞA BAKIXANOVUN " GÜLÜSTANİ-İRƏM" ƏSƏRİNİN ÖNƏMİ

**Könül Rəsulova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, magistrant**
**konulrasulova86@gmail.com**

***Açar sözlər:*** *A.Bakıxanov, "Gülüstani-İrəm", tarixşünaslıq*
***Key words:*** *A. Bakikhanov, "Gulustani-Iram", historiography*

Abbasqulu ağa Bakıxanov Azərbaycan xalqının ensiklopedik biliyə malik olan mütəffəkkir simalarından biridir. O, qiymətli elmi əsərləri ilə Yaxın Şərq, o cümlədən Azərbaycan elminə çox mühüm yeniliklər gətirmişdir. Onun XIX əsrin birinci yarısında yaşamış görkəmli Rus və Avropa alim və şairləri ilə bir cərgədə durduğunu söyləyə bilərik. A.Bakıxanov elmi və fəlsəfi əsərlərində öz vətəninə və xalqına xidmət etmək məqsədi izləmişdir. XIX əsrin birinci yarısında Azərbaycan tarixi üzrə ən mükəmməl əsəri A.Bakıxanov yazmışdır. O, "Gülüstani-İrəm" əsərini ərsəyə gətirərkən tarixşünaslığımıza yeni bir nəfəs gətirmiş, həmin dövrə qədər xalqımızın tarixi ilə bağlı yazılmış zəngin qaynaqlardan,şərq mənbələrindən, tarixi abidələrdən, sənəd və fərmanlardan, köhnə binaların qalıqlarından, sikkələrdən, dini kitablardan, "Avesta"dan, səyyahların qeydlərindən və coğrafi əsərlərdən, həmçinin nağıl, rəvayət və milli əfsanələrdən istifadə etmiş, bu yolla xalqımızın zəngin tarixini göstərməklə yanaşı, pərakəndə halda olan materialları bir araya toplayaraq akademik planlı tədqiqat əsəri ərsəyə gətirmişdir. Həmçinin bir etnoqraf kimi xalqın xüsusiyyətlərini, özünəməxsus məcazlarını tədqiq edir, həm də bir coğrafiyaşünas kimi ətraf mühitin, hansısa məkanın təsvirini verib yer-yurdun xalqın taleyində və tarixində oynadığı rolu göstərir. Vaxtına görə belə qlobal yanaşma üsulu, mövzunu müxtəlif bucaqlardan seyr etmək cəhdi yeni idi. Məhz bu baxımdan "Gülüstani-İrəm" əsəri bizim üçün xüsusi önəm kəsb edir. Akademik Z.M.Bünyadov yazırdı ki, bu da Bakıxanovun dövrü üçün elmdə igidlik idi, çünki ona qədər heç bir şərq tədqiqatçısı belə erudisiyaya malik deyildi. A.Bakıxanovun bir üstünlüyüdə onda idi ki, onun ruscanı ana dili kimi bilməsi,bu dil və həmin dilə çevrilmiş əsərlər vasitəsi ilə Avropa mənbələri ilə tanışlıq imkanına malik olması, fransız, polyak, gürcü dillərini bilməsi isə ona müqayisə, mənbələri qarşılaşdırmaq, saf-çürük etmək şəraiti yaradırdı. H.Həsənov yazır: Cənubi Qafqazın şərq hissəsində məskunlaşmış xalqların tarixinə aid olan "Gülüstani-İrəm" ilk məxəzlər əsasında müəllifin uzun illər bu sahədə apardığı ciddi tədqiqatın nəticəsində yazılmışdır. Müəllif özü dövlət başçısına və müasirlərinə yazdığı müraciətnamələrində əsər haqqında "Mənim uzun illər zəhmətimin məhsuludur" deyə qeyd edirdi. Digər bir üstünlük isə müəllifin özündə bu dövrdə baş verən bir çox hadisələrin şahidi və iştirakçısı olması

idi. Abbasqulu ağa Azərbaycanda cərəyan edən siyasi-ictimai hadisələri təsvir etdikcə yunanlar,skiflər, qıpçaqlar, çeçenlər, kumıklar, alanlar, xəzərlər,farslar, monqollar, tatarlar, ermənilər və başqa tayfalar barədə məlumat verir, milli xüsusiyyətləri, inanış və etiqadları, adətləri, ənənələri, məişət, yaşayış tərzi haqqında danışır, onların Azərbaycan xalqı ilə ünsiyyətləri üzərində dayanır. Məqalənin yazılmasında məqsəd "Gülüstani-İrəm" əsərinin tarixşünaslığımızdakı rolunu vurğulamaq, istifadə edilmiş mənbə və məxəzlərin kəmiyyətini, müəllifin çətin şərtlər altında ərsəyə gətirdiyi bu əsərin, tarixşünaslığımızda bir yenilik olmasını bir daha qeyd etmək idi.

## QAZANILMIŞ ZƏFƏR-XALQIN YADDAŞININ,RUHUNUN BƏRPASIDIR

**Könül Hüseynova**
**Bakı Dövlət Universiteti,dissertant**
**Hkonul.adpk@gmail.com**

***Açar sözlər:*** *Qarabağ, zəfər, milli dəyər, vətənpərvərlik, ədalət*
***Keywords:*** *Karabakh, victory, national value, patriotism, justice*

Noyabr ayı müstəqil Azərbaycanın müasir tarixində artıq zəfər, qələbə ayı kimi qalıbdır.Bu qələbə asanlıqla əldə edilməmişdir. Bunu xalqımız illərdir həsrətlə,intizarla gözləyiblər. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin İkinci Qarabağ müharibəsində qələbəsini təmin edən mühüm amillər oldu. Bəli, xalqımızın 30 illik həsrətinə son qoyuldu. Azərbaycanın ərazi bütövlüyü, süverenliyi bərpa edildi, ədalət yerini tapdı. İnsanlar öz doğma yurd, yuvalarına, milli dəyərlərinə qayıdacaqlar, biz öz tarixi torpaqlarımıza qayıdacağıq. Cənab Ali Baş Komandanın "Qarabağ Azərbaycandır və nida" ifadəsi gerçəkləşdirildi. Bu yolda neçə-neçə qəhrəman igid oğullarmız şəhid oldu, yaralandı, Vətən uğrunda qanından, canından keçdi. Allah vətənpərvər şəhidlərimizə rəhmət etsin, qazilərimizə şəfa versin.

Hal hazirda dövlət başçımızın amalı işğaldan azad olunmuş əraziləri ən müasir standartlara uyğun şəkildə bərpa etmək və qısa müddət ərzində sinəsi Vətən həsrəti ilə qübar tutmuş soydaşlarımızı öz dədə-baba yurdlarına yerləşdirməkdir.Dünya tarixində belə bir analogiya yoxdur ki, bir millət məqsədyönlü şəkildə yumruq kimi birləşsin, torpaqlarını azad etsin, daha sonrakı mərhələdə isə sistemli şəkildə işlər görsün. Təkcə son bir ayda dövlət başçımızın iş qrafikinə nəzər yetirdikdə görürük ki, məqsəd sadəcə işğaldan azad edilmiş torpaqları qurub-yaratmaq deyil, indiki mərhələdə qarşıya qoyulan əsas məqsədlərdən biri əldə edilmiş geniş imkanları və fürsətləri bundan sonra Azərbaycanın regionda yeni strateji maraqlarının daha da qətiyyətlə gerçəkləşdirilməsi üçün səfərbər etməkdir.

Qısa zaman çərçivəsində bir beynəlxalq hava limanının tikilib istifadəyə verilməsi, yaxın perspektivdə isə daha iki hava limanının tikintisinin nəzərdə tutulması dövlətimizin gücündən xəbər verir. Bundan əlavə, işğaldan azad olunmuş əraziləri bir-birinə bağlayan müasir yol-nəqliyyat infrastrukturunun sıfırdan yaradılması, Azərbaycanın əsas hissəsini Naxçıvan MR-lə, daha sonra qardaş Türkiyə ilə bağlayacaq Zəngəzur dəhlizinin əsasının qoyulması kimi irimiqyaslı işləri reallaşdırmaq sadəcə bölgənin beynəlxalq logistika mərkəzinə çevrilməsi baxımından deyil, milli köklərimizə, dəyərlərimizə dönməyimiz, bütünlüyümüzə və bütövlüyümüzə qovuşmağımız baxımından da olduqca tarixi qərarlardır. Sadalanan bütün faktlar cənab Prezident İlham Əliyevin formalaşdırdığı yeni reallığın konturlarını aydın şəkildə təcəssüm etdirir.

Bu günlərdə cənab Prezidentimiz İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş rayonlara səfərləri, böyük qələbəni xalqla birlikdə qeyd

etmələri hər birimizi qürurlandırdı. Bütün dünya tarixi ədaləti bərpa edən Azərbaycan Ordusunun, cənab Ali Baş Komandanın və xalqımızın gücünü gördü. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva şəhid ailələrinin üzvlərinə, Vətən müharibəsi döyüşçülərinə xüsusi həssas yanaşmaları ilə hər kəsə şəxsi nümunələr nümayiş etdirirlər.

## ŞANLI TARİXİMİZİN CUMHURİYYƏTİ

**Fidan Quliyeva**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsinin II kurs magistrantı**
**Fidann.eva.98@mail.ru**

***Açar sözlər**: Cumhuriyyət,milli, hökümət,beynəlxalq*
***Key words**: Republic,national, government,international*

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının Çar Rusiyasina qarşı milli azadlıq mübarizəsi nəticəsində Birinci Dünya müharibəsi dövründə Şimali Azərbaycanda yaranmış müstəqil dövlət və Müsəlman Şərqində ilk parlament respublikasıdır. Bu cümhuriyyətin qurulması Məhəmməd Əmin Rəsulzadənin sədri olduğu Azərbaycan Milli Şurası tərəfindən bəyan edilib. 1918- ci ildə Cənubi Qafqazda müstəqil dövlətlər meydana gəldikdə əzəli Azərbaycan torpaqlarının bir hissəsində Ermənistan Demkokratik Respublikası yaradıldı.

AXC hökuməti həmçinin İrəvanı yeni yaradılan Ermənistan Demokratik Respublikasının “ siyasi mərkəzi” kimi tanımağa məcbur oldu.AXC 1918-ci il mayın 28-dən iyunun 16-dək Tiflisdə iyunun 16-dan sentyabrın 17-dək Gəncədə sentyabrın 17-dən 1920-ci il aprelin 28-dək Bakıda fəaliyyət göstərmişdir. AXC Paris Sülh Konfransının qərarına əsasən müstəqil dövlət kimi tanınmışdır. Dünyanın bir çox ölkələri ilə səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratmış ikitərəfli və çoxtərəfli müqavilələr sazişlər bağlamışdı. 1918-ci il dekabrın 7-də saat 13:00-da qızlar məktəbinin binasında Azərbaycan parlamentinin təntənəli açılışı olub. Əlimərdan bəy Topçubaşov parlamentin sədri Həsən bəy Ağayev isə onun birinci müavini seçilib. Parlamentin ilk iclasında F.X.Xoyski hökumətinin istefası qəbul edilib və yeni hökumətin təşkil olunması qərara alınıb. Yeni hökumətin təşkili yenidən F.X.Xoyskiyə tapşırılıb. AXC qısa ömründə böyük nailiyyətlər əldə edib. İlk dəfə qadınlara seçilmək hüququ tanıyan və qadın-kişi bərabərliyini təmin edən cümhuriyyət,milli ordu quruculuğu, milli valyutanın buraxılması, milli bankın yaradılması, demokratikləşmə, azad seçkilər, beynəlxalq əlaqələr və beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan istiqlalının rəsmən tanınması Azərbaycanın bütövlüyünün təmin olunması, iqtisadi islahatların aparılması və digər sahələrdə böyük işlər görüb. Təəsüf ki, cəmi 23 ay yaşayan AXC 1920-ci il aprelin 28-də bolşevik işğalı nəticəsində devrilibdi. Qeyd edək ki, AXC-nin müstəqilliyi ilk olaraq 1918- ci il iyunun 4-də Osmanlı imperiyası tərəfindən tanınıb. AXC-nin yaranması tarixi Azərbaycanın milli bayramı- Respublika Günü kimi qeyd edilir. Prezident İlham Əliyev “Müstəqillik Günü haqqında” qanunu oktyabrın 15-də təsdiqləyib. Prezidentin sərəncamında deyilir ki,mayın 28-i Müstəqillik Günü elan edilsin oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan edilsin və Müstəqillik Günü və Müstəqilliyin Bərpası Günü hər il bayram günləri kimi qeyd edilsin.

## AZƏRBAYCANDA DİNİ TOLERANTLIQ

**Əzizağa Bəylərov**
**AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı**
**E-mail: tarixmenbe@mail.ru**

***Açar sözlər:*** *Azərbaycan, dinlərarası münasibətlər, İslam, toleratlıq.*
***Keywords****: Azerbaijan, inter-confessional relations, Islam, tolerance*

Azərbaycan həmişə müxtəlif konfessiyaların, xalqların birgə yaşadığı ölkə olmuşdur. Azərbaycan xalqının tolerant bir xalq olduğunu, həm tarixi mənbələr, həm də müxtəlif vaxtlarda ölkəmizə gələn xarici qonaqlar təsdiq etmiş və etməkdədirlər. Ölkəmizdə tarixən çoxsaylı etnosların və müxtəlif dinlərin birlikdə yaşamasına baxmayaraq, (Azərbaycan ərazisində yaşayan ermənilərin zaman-zaman azərbaycanlılara qarşı qaldırdıqları torpaq iddiaları ilə bağlı münaqişələri çıxmaq şərtilə) indiyə kimi heç vaxt bu ərazidə milli ayrı-seçkilik baş verməmiş və dini qarşıdurma olmamışdır. Burada ayrı-ayrı etiqad və inanclara malik etnosların yüz illərlə əmin-amanlıq şəraitində yaşamasında humanizm dəyərlərinin rolu böyükdür. Azərbaycanda tolerantlığın yüksək dəyərini sübut edən əsas fakt paytaxt şəhəri Bakıda erməni kilsəsinin mövcudluğudur. Azərbaycanla Ermənistanın müharibə şəraitində olduğunu və ermənilərin azərbaycanlılara qarşı vandalizmini nəzərə alsaq, insanlar düşünə bilər ki, bu kilsə çoxdan dağıdılmalı idi. Hazırda kilsə tam təchizatı ilə mövcudluğunu qoruyur. Bugün Azərbaycanda hər kəs öz dini inancını, sosial fəaliyyətini rahat şəkildə yerinə yetirə bilir. Bunun davam etdirilməsi labüddür. İstər yəhudi, xristian, müsəlman olsun, istərsə də türk, avar, acar və digər etnik mənsubiyyəti olan insanlar bu cür düşüncə ilə fəaliyyət göstərsələr onların cəmiyyətə verdikləri fayda daha çox olacaq. Qeyd etmək lazımdır ki, həm islama qədərki dövrdə, həm də islam dininin Azərbaycanda yayılmasından sonra müxtəlif etnosların yaşadığı bu ərazidə uzun illər qarşılıqlı etimada əsaslanan milli-mədəni və dini münasibətlər sistemi formalaşmış, insanlar əmin-amanlıq şəraitində yaşamış, burada yüksək tolerantlıq mühiti hökm sürmüşdür. Bu ərazidə tarixən müxtəlif dinlər və etnoslar arasında tolerantlıq mədəniyyətinin indiyə kimi qorunub saxlanılmasında Azərbaycan xalqının və islam dininin mühüm rolu olmuşdur.

Məqalədə son dövrlərdə tolerantlıq yolunda görülən işlərin nəticəsindən bəhs ediləcək.

## 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏN SONRA SÜLH SAZİŞİNİN BAĞLANMASI ŞƏRTLƏRİ HAQQINDA

**Baxşəliyev Eynulla Fazil oğlu**
**AMEA İnsan Haqları və Hüquq İnstitutu**
**baxshaliev81@mail.ru**

***Açar sözlər:*** *sərhəd, demarkasiya, delimitasiya, xəritə, sülh*
***Key words****: border, demarcation, delimitation, map, peace*

SSRİ dağılandan sonra onun tərkibindəki respublikalar, Azərbaycan və Ermənistan istisna olmaqla, dəqiq xəritələr almışdılar. O vaxt Qarabağda 2 ölkə arasında müharibə gedirdi və Qarabağın özü, ətrafındakı Azərbaycan əraziləri erməni qüvvələrinin nəzarətində idi.

Qalibiyyətlə başa çatan Vətən müharibəsindən sonra Azərbaycan tərəfi qarşısında duran ən əsas vəzifələrdən biri davamlı sülhə nail olmaqdır. Bu yolda ilk addım tərəflər arasında sərhədlərin demarkasiyası və delimitasiyasıdır. Azərbaycanın mövqeyi belədir

ki, sərhədlərin demarkasiyası və delimitasiyası SSRİ-nin dağılması ərəfəsindəki inzibati-siyasi xəritələrə əsaslanmalıdır.

Lakin məsələnin həllini Ermənistan və regionda maraqlı olan bəzi tərəflər mürəkkəbləşdirir. Fransa prezidenti Emmanuel Makron 2021-ci il mayın 14-də Facebook səhifəsində erməni dilində müraciətində Azərbaycanı qoşunlarını Ermənistanın sərhəd bölgəsindən çıxarmağa çağırmışdı.

ABŞ və Aİ diplomatları sərhəddəki vəziyyətdən narahatlıqlarını bildirsələr də, ABŞ milli təhlükəsizlik müşavirinin Azərbaycan Prezidenti İlham Əliyevlə telefon danışığını nəzərə almasaq, konkret nəticə yoxdur.

Coğrafiya elmləri doktoru Aleksey Qunya "Qafqaz düyünü"nə müsahibəsində demişdir ki, mübahisəyə səbəb olan ərazilər hündür dağlıq ərazidə, bir neçə gölün olduğu yerdə, düz iki ölkənin sərhədində yerləşir.

Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktor müavini Aleksandr Skakov demişdir ki, Ermənistan və Azərbaycanın sərhədlərini müəyyən etməyə imkan verən vahid Sovet xəritəsi sadəcə olaraq yoxdur və bu, böyük problemdir.

Rusiya xarici işlər naziri S.Lavrov bildirmişdir ki, Rusiya sərhəddəki vəziyyətlə bağlı emosiyaların qızışdırılması üçün heç bir əsas görmür.

Rusiya prezidenti V.Putinin mətbuat katibi Dmitri Peskov bildirmişdir ki, "prezident üçtərəfli sazişlərin həyata keçirilməsinə alternativlərin olmamasının qəti tərəfdarıdır və indi gərginliyin azaldılması və sərhəddəki vəziyyəti düzəltmək üçün enerjili səylər göstərilir."

Qarabağ münaqişəsi üzrə digər ekspert, "Barışma Resursları" QHT-nin Cənubi Qafqaz üzrə proqram direktoru Lourens Broers hesab edir ki, Sünikdə baş verən insident "Ermənistanı Rusiya təhlükəsizlik rejiminə daha da strateji cəhətdən inteqrasiya edir".

## MÜSTƏQİL AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ HEYDƏR ƏLİYEVİN ƏSƏRLƏRİNDƏ

**Elnur Əbilov**
**Bakı Dövlət Universitetinin Tarix fakültəsinin dekan müavini**
**elnur.abilov34@gmail.com**

***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev, müstəqillik, xarici siyasət, müraciət, çıxış*

***Key words:*** *Azerbaijan, Heydar Aliyev, independence, foreign policy, apply, speech*

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin qarşısında duran əsas vəzifələrdən biri milli maraqlara əsaslanan xarici siyasət kursunun müəyyən edilərək həyata keçirilməsi idi. Heydər Əliyev hər zaman öz çıxışlarında, nitqlərində, məruzələrində, həmçinin verdiyi müsahibələrdə və bəyanatlarda son illərdə Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə uğursuz və milli mənafelərə zidd olduğunu xüsusi olaraq qeyd edirdi. Dağlıq Qarabağ probleminin beynəlxalq normalara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması onun xarici siyasətinin əsas prioritetlərindən biri idi.

Bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından şimal qonşumuz Rusiya ilə səmərəli anlaşma mühitinin yaranması çox vacib idi. Buna görə də ulu öndər Heydər Əliyev Rusiya ilə əməkdaşlığın inkişafına həmişə böyük əhəmiyyət vermişdir. Onun Rusiya Federasiyasının milli bayramı - Dövlət suverenliyi haqqında Bəyannamənin qəbul edilməsi günü münasibətilə prezident Boris Nikolayeviç Yeltsinə

ünvanlanan 12 iyun 1995-ci il məktubunda bu məqam xüsusi qeyd edilmişdir: "Əminəm ki, Azərbaycan ilə Rusiya arasındakı çoxəsrlik əlaqələr, dostluq və əməkdaşlıq xalqlarımızın mənafeyi naminə, regionda sülh və sabitlik naminə bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir "

İki ölkə arasındakı münasibətlərin yeni mərhələsi Rusiya Prezidenti V.Putinin Azərbaycana tarixi səfəri ilə başlanmışdır. Ulu öndər Heydər Əliyevin Rusiyaya cavab səfəri, Xəzərin statusu ilə əlaqədar məsələlərin həlli iki ölkənin bir çox sahələrdə qarşılıqlı əməkdaşlığının ikişafından xəbər verirdi. 25 yanvar 2002-ci il tarixində Moskvada prezident Heydər Əliyevin və Rusiya Prezidenti Putinin kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşündə dövlət başçısı verdiyi bəyanatda bununla bağlı bir çox məsələlərə toxunmuşdur. O, Xəzərin hüquqi statusu məsələsində Rusiyanın və Azərbaycanın mövqelərinin eyni olduğunu KİV nümayəndələrinin diqqətinə çatdırmışdır. Eyni zamanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində fəal tədbirlərin görüldüyünü və Rusiya ilə Azərbaycan arasında münasibətlərin mədəniyyət, incəsənət və elm sahəsində də uğurla davam etdirildiyini bildirmişdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Heydər Əliyevin rəhbərliyi altında hüquqi, dünyəvi və demokratik dövlət quruculuğu yolu seçmişdir. Məhz elə bu səbəbdəndə Avropa dəyərlərindən həm dövlət quruculuğu prosesində, həm də cəmiyyətin formalaşdırılmasında faydalanmaq dahi liderin qarşısında duran əsas vəzifələrdən biri idi. Ulu öndərin xarici siyasət kursunda Avropa dövlətləri ilə münasibətlər məsələsi yeni bir xətt təşkil edirdi. 1996-cı il 22 aprel tarixində Lüksemburqda Azərbaycan Respublikası və Avropa Birliyi arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş imzalandı. Bu mərasimdəki çıxışında dahi lider Azərbaycanla Avropa ölkələri arasında inteqrasiya proseslərinin gələcəyinə böyük ümidlər bəslədiyini və ölkəmizin bərabərhüquqlu tərəfdaş kimi bu proseslərdə fəal iştirak edəcəyini qeyd etmişdir.

ABŞ-la münasibətlərin qurulmasında və daim yüksələn xətlə inkişaf etdirilməsində Heydər Əliyevin xidmətləri əvəzsizdir. Müstəqil Azərbaycanın bu ölkə ilə diplomatik münasibətləri 1992-ci ildə qurulmuşdur. ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən "Azadlığı dəstək aktı"na 907-ci düzəliş" deyilən ədalətsiz sənədlə ayrı-seçkiliyə məruz qalan Azərbaycan yalnız Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünya birliyinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bilmişdi. 2001-ci ilin oktyabrında ABŞ Prezidenti C.Buş və Dövlət katibi K.Pauell Konqresə müraciət edərək 907-ci düzəlişin aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini vurğuladılar. Nəzərə alsaq ki, erməni lobbisinin ABŞ Konqresinə təsir imkanları kifayət qədər güclüdür, bu mənada 907-ci düzəlişin qüvvədən düşməsi ümummilli liderin xarici siyasətinin ən böyük uğuru idi. 1996-cı ilin 13 iyununda ABŞ Konqresində "Porter əlavəsi"nin müzakirəsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatı bu əlavənin ədalətsizliyini tam təsdiq etmiş oldu: "Biz dəfələrlə - həm sizinlə, həm də Amerika Birləşmiş Ştatlarının dövlət nümayəndələri ilə görüşlərimizdə bildirmişik ki, Azərbaycana qarşı qəbul olunmuş belə bir qərarın heç bir əsası yoxdur, çünki Azərbaycan Ermənistanı blokadaya almayıbdır. Real vəziyyət ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal edibdir, işğal olunmuş torpaqlardan bir milyondan artıq vətəndaş qaçqın düşübdür. "

Azərbaycan Heydər Əliyevin prezidentliyi dövründə Türkiyə də daxil olmaqla, bütün türkdilli dövlətlərin ümumi maraq və mənafelər naminə həmrəyliyi istiqamətində inamlı addımlar atmışdır. Prezident Heydər Əliyev TÜRKSOY təşkilatının XV toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələri ilə görüşdə ( 16 yanvar, 2001-ci il, Bakı, Prezident sarayı ) təşkilatın əsas məqsədinin birinci növbədə tarixi keçmişimizi,

köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq və bugünkü nəsillərə çatdırmaqdan ibarət olduğunu xüsusilə vurğulamışdır (1). Eyni zamanda Qardaş Türkiyə ilə ölkəmiz arasında hər zaman strateji tərəfdaşlıq münasibətləri mövcud olmuşdur və Türkiyənin Azərbaycana bütün sahələrdə verdiyi fəal dəstək həmişə ulu öndərin çıxışlarında, nitqlərində və bəyanatlarında yer almışdır.

Azərbaycanın nüfuzlu beynəlxalq və regional təşkilatlarla münasibətlərinin yaradılması və daha yüksək səviyyələrə qaldırılması Heydər Əliyevin xarici siyasət kursunun əsas tərkib hissəsini təşkil edirdi. Azərbaycan onun rəhbərliyi dövründə BMT, ATƏT, Avropa Şurası, MDB, GUAM kimi beynəlxalq təşkilatların üzvü olmuş, eyni zamanda Avropa İttifaqı, NATO və digər nüfuzlu təşkilatlarla da fəal əməkdaşlıq etmişdir. Bugün bu əməkdaşlıq ümummilli liderin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

## ÇİNGİZ MUSTAFAYEVİN HƏYATI VƏ ÇƏKDİYİ KADRLARIN AZƏRBAYCAN XALQI ÜÇÜN ÖNƏMİ

**Əfqanə Həbibzadə**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, magistrant**
**habibzadaafqana1122@gmail.com**

***Açar sözlər**: Çingiz Mustafayev, Jurnalist, Dövlət televiziyası*
***Key words:** Chingiz Mustafayev, Journalist, State Television*

Çingiz Mustafayev 1960-cı il avqustun 29-da Həştərxan vilayətinin Kapustin Yar kəndində hərbçi ailəsində anadan olmuşdur. Atası Fuad Mustafayev,anası Naxış Mustafayeva Çingiz 4 yaşında olarkən Bakıya köçmüşdülər. O, 3-cü sinifdən 10-cu sinifə kimi Cəmşid Naxçıvanski adına hərbi liseydə oxumuşdur. 1977-ci ildən isə Yasamal rayonu 167-saylı orta məktəbini bitirmişdir. 1983-cu ildə Azərbaycan Tibb Universitetini bitirmiş və üç il həkim kimi işləmişdir. O, 1990-1992-ci illərdə Rəfiqə Mustafayeva ilə evli olmuş,bu evlilikdən Fuad adlı oğlu olmuşdur.

Çingiz Mustafayev ilk dəfə jurnalist məharətini 1990-cı ildə baş verən 20 yanvar hadisələrini lentə almaqla göstərmişdir. 1991-ci ildən başlayaraq o Azərbaycan Dövlət televizorunda işləməyə başladı. Amma o bununla kifayətlənməyərək ABŞ və Avropa ölkələrinin bir çox proqramında yer aldı. SSRİ nin Dövlət Televiziyasında qoyduğu senzuralar səbəbində o “215 kl” adlı studiya açdı və o dövr üçün(1991-1992) insanlar hərbi xəbərlərə buradan qulaq asırdılar.

Çingiz Mustafayevin Qarabağ döyüşlərində çəkdiyi kadrlar bugünümüzdə erməni vəhşiliyini dünyaya sübut etmək üçün üçün çox böyük əhəmiyyətə malikdir. Çingiz Mustafayev Qarabağ döyüşlərini təkcə lentə almamışdır, həmdə özüdə bu vuruşmalarda iştirak etmişdir. Çingiz Mustafayevin çəkdiyi kadrlardan dünyada ən çox tanınanı Xocalı faciəsindən çəkdiyi kadrlardı ki, bu kadrlar ilə dünyaya sübut olundu ki, ermənilərin iddia etdikləri kimi Azərbaycanlılar ermənilərə qarşı deyil, ermənilər Azərbaycanlılara qarşı qətliam törətmişdilər.

Çingiz Mustafayev jurnalistika tarixində ilk jurnalistdirki özü öz ölümünü çəkmişdir. O, 1992-ci il iyunun 15-də Xocalı rayonunun Naxçıvanlı kəndi yaxınlığındakı döyüşdə qəlpə yarası alaraq həyatını itirmişdir. Bakıda Şəhidlər Xiyabanında dəfn edilmişdir. Azərbaycan Respublikasının prezdentinin 1992-ci il 6 noyabrda qəbul olunmuş 294 saylı fərmanı ilə ölümündən sonra “ Azərbaycanın Milli qəhrəmanı”adına layiq görülmüşdür.

Çingiz Mustafayev hadisələri kadra alarkən həmçinin verdiyi emosional şərhləri ilə yadda qalmışdır. Onun ən çox tanınan bir neçə şərhini qeyd etmək istəyirəm. “Mən

təəssüf edirəmki, vətənimə qurban verə biləcəyim yalnız bir canım var.", "Mən bir müxbir kimi əlimdən gələn hər şeyi edəcəm ki, Qarabağ haqqında bütün dünya bilsin.". Milli Məclisdə reportaj hazırlayarkən "Camaat cəbhədə qırılır, həlak olur, bunlar burda yatırlar.Mən bunları çəkmişəm, həmişədə çəkəcəyəm." deyə Milli Məclisdə yatanlara öz etirazını bildirmişdir.

## QANI İLƏ TARİX YAZAN QƏHRƏMANLARIMIZ

**Ədiqə Mustafayeva**
**BDU, Tarix fakultəsinin məzunu**
**e-mail: adiga.mustafa@gmail.com**

***Açar sözlər:*** *Qarabağ, zəfər, jurnalist*
***Keywords:*** *Karabakh, victory, journalist*

Çox insanın Qarabağla bağlı ümidini üzdüyü vaxtda, 27 sentyabr 2020-ci ildən "qayıdış"a başladıq. Bu döyüşlərdə rəşadətli ordumuz Birinci Qarabağ müharibəsindən fərqli olaraq, xeyli az itki ilə daha böyük uğurlara imza ataraq, 30 ildir həsrət qaldığımız torpaqlarımıza qovuşdurdular. Həm birinci, həm də ikinci Qarabağ müharibəsində oğullarımız qəhrəmanlıq göstərərək, döyüşdülər, qazi və şəhid oldular. Vətəni hər şeydən üstün tutan igidlərimiz bizə zəfər hissini yaşatdılar. Onların arasında vəzifə başında olarkən, qanı ilə tarix yazan jurnalistlərimiz də var.

SALATIN ƏSGƏROVA- Salatın Əsgərova 16 dekabr 1961-ci ildə Bakıda anadan olub. İxtisasca geofizik olsa da, jurnalistikaya olan sevgi onu bu sahəyə gətirib. 1991-ci il yanvarın 9-da Laçından Şuşaya yollanarkən, Qaladərəsi kəndi yaxınlığında Ermənistan silahlı qüvvələri tərəfindən amansızcasına qətlə yetirilən Salatın Əsgərova Azərbaycanın ilk şəhid qadın jurnalistidir.

OSMAN MİRZƏYEV- Osman Mirzəyev 13 aprel 1937-ci ildə Bakıda doğulub. "Adlarımız", "Bir dəfə yaşayırıq", "Damla və göl", "Qartal uçuşda" kitablarının müəllifidir. Azərbaycan Respublikası Prezidentinin Mətbuat Katibi olaraq çalışıb.

FƏXRƏDDİN ŞAHBAZOV- Fəxrəddin Şahbazov 22 yanvar 1950-ci ildə Bakıda doğulub. O, 1972-ci ildən Azərbaycan Dövlət Teleradio Şirkətində 20 il operator kimi çalışıb.

ALI MUSTAFAYEV- Alı Mustafayev 1952-ci il 14 apreldə Qazax rayonunun anadan olub. Tələbəlik illərindən ömrünün sonunadək AzTV-də işləyib.

Osman Mirzəyev, Fəxrəddin Şahbazov və Alı Mustafayev 1991-ci il noyabrın 20-də Xocavəndin Qarakənd kəndi yaxınlığında ermənilərin sülhməramlı nümayəndələri aparan vertolyotu vurması nəticəsində şəhid olublar.

KAZIMAĞA KƏRİMOV- Kazımağa Kərimov 1951-ci ilin sentyabrın 1-də Qubadlı rayonunda anadan olub. O, "Azərbaycan məktəbi" jurnalında, "Azərbaycan müəllimi" qəzetində çalışıb. 1992-ci ilin 12-13 iyun tarixlərində Şamuyankənd (indiki adı: Ağcakənd) rayonunun azad olunması uğrunda keçirilən əməliyyat nəticəsində iyunun 15-də şəhidlik zirvəsinə ucalıb.

ÇİNGİZ MUSTAFAYEV- Çingiz Mustafayev 1960-cı il avqustun 29-da Bakıda anadan olub. O, 1991-ci ildən Dövlət Televiziyasında reportyor kimi çalışmağa başlayıb. Xocalı soyqırımında çəkdiyi kadrlar erməni vandallığını bütün dünyaya tanıdılmasında xüsusi rol oynayıb. 1992-ci il iyunun 15-də Ağdamın Naxçıvanik kəndində çəkiliş zamanı aldığı mərmi qəlpəsi nəticəsində şəhid olub.

MƏHƏRRƏM İBRAHİMOV- Məhərrəm İbrahimov 1982-ci il iyunun 1-də Bakıda dünyaya gəlib. AZƏRTAC-ın xüsusi müxbiri vəzifəsində çalışıb.

SİRAC ABIŞOV- AzTV-nin operatoru Sirac Abışov1989-cu il avqustun 29-da Qubadlıda doğulub. Sumqayıt şəhərində yaşayırdı.

Məhərrəm İbrahimov və Sirac Abışov 2021-ci il iyunun 4-də Kəlbəcərin Susuzluq kəndində minaya düşərək şəhidlik zirvəsinə yüksəliblər.

Onlar eyni gündə doğulub, eyni gündə ölmədilər, ancaq hər biri peşə fəaliyyətlərini yerinə yetirən zaman şəhadətə ucaldılar. Məncə, o insan xoşbəxtdir ki, ölümündən sonra da yaddaşlarda iz qoysun. Qanı ilə dastan yazan minlərlə şəhidlərimiz kimi...

## CƏNUBİ AFRİKA, BLOEMFONTEİNDƏ VƏ AZƏRBAYCANDA KURİKULUM (MÜQAYİSƏLİ TƏHLİL)

**Məmmədova Mətanət**
**Bakı Dövlət Universiteti,t.ü.f.d.,dosent**
**metanet.memmedova.61@mail.ru**
**Sadıqlı Nərmin**
**Bakı Dövlət Universiteti,Tarix fakültəsinin IV kurs tələbəsi**
**nerminsadiqli@mail.ru**

***Açar sözlər:*** *xaricdə təhsil, kurikulum, qiymətləndirmə, standart, məktəb*
***Keywords:*** *studying abroad, curriculum, assessment, standard, school*

Cənubi Afrikada kurikulum müəllimlərin şagirdlərə məktəbə başladıqları andan etibarən aşıladıqları bilik və bacarıqlara əsaslanan təlim və məqsədlərdən ibarət sistemdir. Aparteid dövründə Cənubi Afrikada təhsil ayrılmışdı (irqi-ayrı seçkiliyin ən kəskin dövrü). Bu o demək idi ki, təhsil standartı bərabər deyildi, bir çox uşaq bu gün hamımızın hüquqlarından biri olan əsas təhsilə yiyələnə bilmirdi. Burada demokratiya bərqərar olduqdan sonra bütün uşaqların bərabər səviyyədə təhsil alması üçün şərait yaradılmışdır. 1997-ci ildə burada təhsil kurikulumu hazırlandı və təqdim edildi. Məqsəd təhsili daha da yaxşılaşdırmaq idi. Cənubi Afrika kurikulum və siyasəti 2011-ci ildən tətbiq olunmağa başlanıldı. Bloemfonteində yaşayan və təhsil alan yoldaşımın sözlərinə görə təhsil burada altı yaşdan etibarən başlayır. Uşaqlar bir il müddətində baxçalarda daha sonra yeddi yaşından on üç yaşına kimi ibtidai məktəblərdə təhsil alırlar. Həmçinin burada uşaq baxçaları baxça adlandırılmır, buna daha çox ibtidai təhsil verən qurum kimi yanaşılır. On dörd yaşdan on səkkiz yaşa kimi isə təhsilə liseylərdə davam edirlər. Kurikulum Qiymətləndirmə Siyasəti şöbəsinin əsas məqsədi iyirmi birinci əsr Cənubi Afrika təhsil sistemini inkişaf etdirmək, qorumaq və dəstəkləməkdir. Həmçinin burada yoxsul məktəblərdə təhsil alan şagirdlər üçün əlverişli şəraitin və imkanların yaradılması və təmin olunması məsələləri də öz əksini tapır. Cənubi Afrikanın konstitutsiyasında hər bir uşağın təhsil almasının vacibliyi vurğulanmışdır. Burada ali təhsil akademik səviyyədədir və o yerli icmaların inkişaf problemlərindən kənarda inkişaf etməkdədir. Müstəqil Vilayətin Təhsil şöbəsi şagirdləri ödənişsiz, beynəlxalq standartlara uyğun təhsillə təmin etməyi qarşısına məqsəd qoymuşdur. Tədris proqramı uşaqların bilik və bacarıqları əldə etmələri, onları təhlil və tətbiq etmələri üçün imkanlar yaratmağı qarşısına məqsəd qoymuşdur. Burada təhsil sisteminin hər bir mərhələsinə uyğun kurikulum üzrə fənlər mövcuddur. Ümumilikdə ilkin, orta və yüksək mərhələlərə uyğun fənlər müəyyən edilmişdir. Bunlar əsasən ana-dili, əlavə dil, riyaziyyat, həyat bacarıqları başlıqları altında bölünən və təsnif olunan fənləri əhatə edir. Cənubi Afrikada kurikulum bir sıra məqsədlər daşıyır. Bütün şagirdləri bilik və bacarıqlarla təmin edərək onları azad cəmiyyətdə faydalı vətəndaş kimi rol oynamağa sövq etmək, əlavə təhsilə çıxışı təmin etmək, tələbələrin təhsildən sonra işlə təmin olunması üçün şərait yaratmaq, işçilərə onlar haqqında ətraflı məlumat vermək və s. kimi məqsədləri daşıyır.

Azərbaycanda kurikuluma keçən əsrin 90-cı illərindən meyil yaranmağa başlamışdır. 2006-cı il 30 oktyabr tarixində Təhsil konsepsiyası- Milli kurikulum haqqında qərar qəbul edilmişdir. Kurikulum 2007-ci ildən ibtidai siniflərə tətbiq olunmuşdur, 2011-ci ildən isə 5-9-cu siniflərə tətbiq olunmağa başlanılmışdır. 2009-cu il 19 iyun tarixində qəbul olunan yeni təhsil qanunun 10-cu maddəsi kurikuluma həsr olunmuşdur. Ümumitəhsil üzrə kurikulum isə 2010-cu il oktyabrın 3-də təsdiq olunmuşdur. 2011-ci ildə Azərbaycanda kurikulum mərkəzi yaradılmışdır.

Cənubi Afrikada kurikulum sahəsi üzrə əsas qurum (CAPS) Kurikulum Qiymətləndirmə Siyasəti şöbəsidirsə Azərbaycanda da bu funkusiyanı kurikulum mərkəzi yerinə yetirməkdədir. Həmçinin Cənubi Afrika məktəblərində xüsusi dil terapistləri və audioloqlar fəaliyyət göstərməkdədir ki, onların əsas məqsədi şagirdlərin ünsiyyət və dil bacarıqlarına yiyələnməsinə yardımcı olmaqdır. Azərbaycanda da şagirdlər üçün bu cür imkanların yaradılmasının faydalı ola biləcəyini düşünürəm. Həmçinin CAPS-ın əsas məqsədlərindən biri yoxsul şagirdlərin təhsillə aralarında olan uçurumu yox etmək, onların hər cür texnologiya və ləvazimatlarla təmin olunmasını və öyrənməkdə çətinlik çəkən şagirdlərin lazımi siniflərdə təhsil almasını təmin etməkdir. Azərbaycan məktəblərində, xüsusilə bölgələrdə də yoxsul və təhsil almaqda, qavramaqda çətinlik çəkən şagirdlər üçün yaradılan imkanların genişləndirilməsinin zəruri olduğunu vurğulamaq istəyirəm. Ümumilikdə araşdırmalarıma əsasən kurikulumun Azərbaycanla müqayisədə Cənubi Afrikda daha yaxşı tətbiq olunduğunu düşünürəm. Bunun səbəblərindən birinin başlıca olaraq Azərbaycanda bir çox müəllimlərin kurikuluma və onun mənimsənilməsinə, öyrənilməsinə, tətbiq olunmasına maraqsız yanaşdığını düşünürəm. Kurikulumun məktəblərdə daha geniş tətbiq olunmasının tərəfdarıyam və düşünürəm ki, bu şagirdlərin bilik və bacarıqlara yiyələnməklə yanaşı onlardan necə istifadə etmək lazım olduğunu mənimsəmələrinə yardımcı olmaqdadır.

## ERMƏNİ FAŞİZMİNİN TERRORÇULUQ FƏALİYYƏTİ (1988-1994)

**Natiq Aşurov**
**BDU II kurs, magistrant**
**natiqashurovv@gmail.com**

**Açar sözlər:** terrorizm, ermənilər, qrup, Azərbaycan, faciə
**Keywords:** terrorism, Armenians, group, Azerbaijan, tragedy

Beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorunun tarixi 100 ildən artıqdır. Məlumat üçün qeyd edək ki, Cənubi Qafqazda ilk terror təşkilatını ermənilər yaradıblar. XIX yüzilin sonlarında ermənilər 1885-ci ildə Marseldə "Armenakan", 1887-ci ildə Cenevrədə "Hnçaq", 1890-cı ildə Tiflisdə "Daşnaksütyun" partiyalarını yaradan erməni millətçiləri öz proqram sənədlərində "Böyük Ermənistan" ideyasını həyata keçirmək uğrunda mübarizədə siyasi terror aktlarından istifadə edəcəklərini açıq şəkildə bəyan ediblər. Vətən müharibəsində ermənilərin Azərbaycanın mülki əhalinin sıx yaşadığı ərazilərinin qadağan olunmuş silahlarla atəşə tutması onların bu fəaliyyətlərinin bu gün də davam etdiyini göstərir. Ona görə də problemin araşdırılması dövrümüz üçün aktual məsələdir.

XX yüzilin ikinci yarısında "Daşnaksütyun" partiyası bir sıra terrorçu qruplar yaratmışdı. 1975-ci ildə yaradılmış ASALA (Ermənistanın azadlığı uğrunda gizli erməni ordusu) terror təşkilatı həmin dövrdən başlayaraq bir sıra teraktlar həyata keçirmiş,nəticədə günahsız insanlar həyatlarını itirmişlər. Ötən əsrin 80-ci illərin sonu - 90 - və illərin əvvəllərində SSRİ-nin dağılması ərəfəsində Ermənistanın terror təşkilatları

Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və digər ərazilərdə genişmiqyaslı teraktlar törətmişdir. Ermənistan terror təşkilatlarının maliyyələşdirilməsində erməni lobbisi də fəal rol oynayır. Erməni lobbisi 1971-ci ildə yaradılmış Amerika Ermənilərinin Milli Konqresi(ANCA) tərəfindən idarə olunur. Ermənilərin bütün bunları həyata keçirməsində şübhəsiz ki, onların xarici havadarları da mühüm rol oynamışdır

Özlərinin böyük Ermənistan ideyasını həyata keçirməyə çalışan ermənilər 1980-ci illərin ikinci yarısında azərbaycanlılara qarşı etnik təmizləmə , işğalçılıq siyasəti həyata keçirməyə başlayırlar. Nəticədə dinc insanlar qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb , talan edilib. Ermənilərin təcavüzkarlıq siyasəti nəticəsində 1988-1994-cü illərdə Azərbaycan ərazilərinin 20 faizi işğal olunmuş , məhz bu illərdə buna paralel olaraq Ermənistan xüsusi xidmət orqanları tərəfindən mütəşəkkil qaydada Azərbaycan ərazilərində terror aksiyaları həyata keçirilib. Ermənilər 1992-ci il 26 fevral tarixində XX yüzilin ən qanlı cinayətlərindən birini "XOCALI" faciəsini törətmiş , körpələrə, qadınlara ,qocalara, dinc insanlara amansız işgəncələr verərək onları qətlə yetirmişlər.613 nəfər həlak olmuş, 650 nəfər yaralanmışdır.

Erməni terrorçuları ard-arda Azərbaycanın əsas hissəsini Mehridən keçməklə Naxçıvanla birləşdirən yolda həm sərnişin daşıma qatarlarında , həm də avtobuslarda müxtəlif üsullardan istifadə etməklə terror aksiyaları təşkil edirdilər. Məsələn, 10 avqust 1990-cı il. "Tbilisi-Ağdam" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. cinayətin təşkilatçıları A.Avanesyan və M.Tatevosyan cinayət məsuliyyətinə cəlb olunmuşlar.Erməni terroru mülki insanlarla yanaşı dövlət rəsmiləri, diplomatlardan da yan keçməmişdir. 1991-ci il 20 noyabr tarixində törədilmiş "Qarakənd" faciəsi buna başlıca misal ola bilər. Ümumiyyətlə, ermənilərin 1988-94-cü illərdə törətdiyi 373 terakt nəticəsində 1200 nəfər həlak olmuş, 1705 nəfər yaralanmışdır.

## MAARIFÇI-DEMOKRATIK HƏRƏKATIN AZƏRBAYCAN TARIXŞÜNASLIĞI

**Sevinc Qasımova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Mənbəşünaslıq. Tarixşünaslıq və metodika kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru**

***Açar sözlər:*** *"maarifçilik əsri", Cənubi Qafqaz, Çarlıq Rusiyası, milli məktəblər, demokratlar*
***Key words:*** *"Age of Enlightenment", South Caucasus, Tsarist Russia, national schools, democrats*

Çağdaş elmi fikrimizdə XIX yüzillik "maarifçilik əsri" kimi qəbul edilir. Yeniləşmə dövrü kimi xarakterizə edilən bu yüzillik maarifçilik ideyalarının, maarifçi-demokratik hərəkatının eyni zamanda mətbuat hərəkatının genişlənməsi kimi də tarixə qovuşmuşdur. XIX yüzilliyin əvvəllərində çarizmin müstəmləkəçilik siyasəti və Cənubi Qafqazın, xüsusilə Azərbaycanın tarixi torpaqlarının işğalı ilə eyni zamanda yeniləşmənin zəruriliyini də meydana çıxarmışdır. Buna rəğmən Çarlıq Rusiyasının milli və dini ayrıseçkiliyi ilə seçilən Azərbaycanda ilk milli teatr, milli mətbuat, milli məktəblərin yaradılması yolunda maarifçi-demoktatlar durmadan və yorulmadan mübarizə aparırdılar. Maarifçi-demokratik hərəkatın əsas ideyalarının formalaşması milli teatr və mətbuatın yaranması maarifçi-demokratik hərəkatın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Bunu söyləmək kifayətdir ki, Azərbaycan milli aydınlarının səyi və mücadiləsi nəticəsində xalqın milli şüuru oyanmış və maarifçi-demokratik hərəkat özünün yüksək mərhələsinə qədəm qoymuşdur. Bu dövrün aydınlarının ictimai-siyasi baxışlarını araşdırdıqca onların xalqın geriliyi, cəhalət və xurafata qarşı əzmlə mübarizə

apardıqlarının bir daha şahidi oluruq. Əsasən ruhanilikdən gələn bu maarifçi-demokratlar eyni məqsəd uğrunda fərqli mübarizə üsullarından istifadə etməklə xalqın azadlığa qovuşmalarının yollarını müəyyənləşdirirdilər.

Məlumdur ki, millətin tərəqqisi və ilk növbədə cəmiyyətin dəyişdirilməsi üçün milli ideologiyanın yaradılması vacib şərtlərdən biri idi. Buna nail olmadan cəmiyyəti tərəqqiyə aparmaq mümkün deyildi. Ona görə də öncə ziyalı aydınlarımız bu ideyanı yaratmaq və buna xalqı inandırmaq və daha sonra mübarizə aparmağın vacibliyini dərk edirdilər.

XIX yüzilliyi 30-cu illərində bu yeniləşmə hərəkatının rüşeymləri meydana gəlməyə başladı Rusdilli dünyəvi məktəblərin yaranmasından sonra tədricən bu məktəblərin milli məktəblərə çevrilməsi, əlifba islahatının həyata keçirilməsi uğrunda gedən mübarizə, ilk dərslik və dərs vəsairlərinin yaranması, məktəblərdə ana dili və ədəbiyyatın öyrənilməsinə marağın yaranması, ilk dərsliklərin hazırlanması, əlifba islahatlarının meydana çıxması maarifçilik hərəkatının inkişafında ciddi təsir göstərdi. Nəticədə, XIX əsrin ikinci yarısından etibarən Azərbaycanda maarifçilik milli ideyadan böyük hərəkat səviyyəsinə qalxdı. Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Mirzə Kazımbəy, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, İsmayıl bəy Qutqaşınlı və s. kimi maarifçi aydınlar ideyalarını fərqli şəkildə yaymaqla elm, bilik, milli-mənəvi özünüdərk anlayışlarını tarixi ədəbiyyatlara gətirdlər. Bununla da maarifçilik bir ideya kimi ədəbi fikrin aparıcı mövzusuna çevrildi. Göründüyü kimi bu ideyalar əvvəlcə özünü bədii ədəbiyyatlarda tapmış, bəhs etdiyimiz yüzilliyin ortalarına doğru milli-mənəvi oyanışa çağırışlar səslənməyə başlamışdır.

Məqalədə XIX yüzillik və XX yüzilliyin əvvəllərində bu hərəkatın öncüllərindən, onu siyasi məcraya gətirən maarifçi –demokratik hərəkatın nümayəndələrinin ictimai fikir tarixindəki yerini müəyyənləşdirməklə həm Sovet tarixşünaslığında, həm də çağdaş tarixşünaslıqda problemin öyrənilməsi səviyyəsini izləyəcək, böyük maarifçi A.A.Bakıxanovdan başlayaraq, bu hərəkatın kamal dövründə parlayan (M.F.Axundov, H.Zərdabi) və sonrakı tarixi gedişata təsir göstərən ziyalı aydınlarımızın (Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə) ictimai fikrin inkişafındakı yerlərini müəyyənləşdirmək imkanını qazanacaq, onların milli ideologiyaya necə xidmət etdiklərini tarixşünaslıq baxımından müəyyənləşdirəcək, azərbaycançılıq ideologiyasının formalaşmasında maarifçilik fəlsəfəsinin və maarifçi-demokratik hərəkatın mühüm rol oynadığını da əsaslandırmağa çalışacağıq.

Məqalədə Azərbaycanda maarifçi-demokratik hərəkatın meydana çıxması, onun inkişafında xidməti olan maarifçi aydınlar haqqında yazan filoloq, türkoloq, filosof, tarixçi alimlərin əsərlərinin təhlilini verməklə yanaşı, ikinci dəfə müstəqillik qazandıqdan sonra bu mütəfəkkirlər haqqında milli konsepsiyaya əsaslanan və konseptual fikirləri ortaya qoyan əsər və məqalələrin müqayisəli təhlilinə də diqqət çəkəcəyik.

*MÜNDƏRICAT*

**Səidə Əli qızı**
**Baki Dövlət Universitetinin “Mənbəşünasliq, Tarixşünasliq və Metodika” Kafedrasinin yaranmasi və fəaliyyəti** ........ 5-5
**İradə Hüseynova**
**HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSUDUR** ....... 6-8
**Yeganə İsmayılova**
**TÜRK TƏSƏVVÜF ƏDƏBIYYATI YUNUS ƏMRƏ ŞEIRLƏRINDƏ** ........ 8-9
**Baxşəliyev Fazil Eynulla oğlu**
**BİR DAHA İKİNCİ QARABAĞ MÜHARİBƏSİ HAQQINDA** ........ 9
**Aydın Məmmədov**
**XX ƏSRİN İKİNCİ YARISI AZƏRBAYCAN TARİXÇİLƏRİNİN İBTİDAİ CƏMİYYƏTƏ DAİR TƏDQİQAT ƏSƏRLƏRİNDƏ TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ** .......... 10-11
**Məhəbbət Paşayeva**
**MOİSEY KALANKATUKLUNUN "ALBANİYA TARİXİ" ƏSƏRİNDƏ TÜRK ƏNƏNƏLƏRİ** ........ 11-12
**Tahirə Həsənzadə**
**PEDAQOGİKA TARİXİMİZİN BİR SƏHİFƏSİ** ........ 12-13
**Tofiq Nəcəfli**
**ŞAH I ABBAS DÖVRÜNDƏ SƏFƏVİ-OSMANLI DİPLOMATİQ ƏLAQƏLƏRİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA** ........ 13-15
**Mətanət Məmmədova**
**İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏKİ TARİXİ QƏLƏBƏ GƏNCLƏRİMİZİN ƏSL VƏTƏNPƏRVƏRLİK MƏKTƏBİDİR** ........ 15
**Aydın Məmmədov**
**AZƏRBAYCAN XALÇALARINDAKI NAXIŞLARDA TARİXİ DEMOQRAFİYA ELEMENTLƏRİ** ........ 16-17
**Elvira Lətifova**
**XVI ƏSRIN BİRİNCİ YARISINDA AZƏRBAYCANIN ŞİMAL-QƏRB TORPAQLARININ SİYASİ VƏZİYYƏTİ** ........ 17
**Faiq Qəzənfər oğlu Ələkbərli**
**AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN TƏŞƏKKÜLÜ ƏRƏFƏSİNDƏ SİYASİ-İDEOLOJİ CƏRƏYANLAR (1901-1918-Cİ İLLƏR)** ........ 18-19
**İsmayılov Firdovsi Sabir oğlu**
**DÜNYA KÜTLƏVİ İNFORMAİYA VASİTƏLƏRİNDƏ 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNƏ MÜNASİBƏT HAQQINDA MÜLAHİZƏLƏR** ........ 19-20
**Рена Ибрагимова**
**ДЕТСКАЯ ОБРЯДНОСТЬ У НАРОДОВ КАВКАЗА** ........ 20-21

**Ziyad Əmrahov**
**İRƏVAN QƏZASININ ƏHALİSİ VƏ SAY DİNAMİKASI (1850-1917-Cİ İLLƏR) RUSDİLLİ MƏNBƏLƏRDƏ** ........ 21-23
**Sevda İsmayilova**
**MİRZƏ FƏTƏLİ AXUNDOV VƏ SEYİD ƏZİM ŞİRVANİNİN BƏDİİ YARADICILIĞINDA "ERMƏNİ MƏSƏLƏSİ" NİN ƏKSİ** ........ 23
**Нармина Шовкет гызы Амирбекова**
**ИСТОРИОГРАФИЯ ВОПРОСОВ ВОЕННОЙ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ПЕРИОД НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА.** ........ 24-25
**Ülviyyə Əjdər qızı İbrahimova**
**TEYMURİ SARAYINDA AZƏRBAYCAN TARİXİNİ ƏKS ETDİRƏN SALNAMƏÇİ** ........ 25-26
**Samir İsmayılov**
**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ SİLAHLI QÜVVƏLƏRİNİN FORMALAŞDIRILMASI VƏ TƏŞKİLİ MƏSƏLƏLƏRİ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN PARLAMENT SƏNƏDLƏRİNDƏ** ........ 26-27
**Zərifə Nəzirli**
**BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ "DÖRDLƏR İTTİFAQI"NA DAXİL OLAN DÖVLƏTLƏRİN QARŞILIQLI MÜNASİBƏTLƏRİ** ........ 27-28
**Nurlan Nəsirov**
**XIII-XIV ƏSRLƏR AZƏRBAYCAN TARİXİNİN İNGİLİSDİLLİ TARİXŞÜNASLIQDA TƏDQİQİNƏ BAXIŞ** ........ 28
**Zəhra İslamova**
**RUY GONZALES DE KLAVİXONUN "SƏYƏHATNAMƏ"Sİ AZƏRBAYCAN TARİXİNİN MƏNBƏSİ KİMİ** ........ 28-29
**Ulduz Miri qızı Paşayeva**
**XIX ƏSRDƏ ŞAMAXIDA İNZİBATİ-ƏRAZİ DƏYİŞİKLİKLƏRİ VƏ ƏHALİNİN SAY TƏRKİBİNƏ DAIR** ........ 29-30
**Səidə Quliyeva**
**XIX ƏSRDƏ AZƏRBAYCANDA BAŞ VERƏN TARİXİ-DEMOQRAFİK PROSESLƏRİ ÖYRƏNMƏK ÜÇÜN MƏNBƏLƏR VƏ TƏDQİQATLAR** ........ 31
**Nurlan Abbasov**
**"KİTABİ-DƏDƏ QORQUD" EPOSU TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA** ........ 31-32
**Dəyanət Musayev Musa oğlu**
**AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAF TARİXİ** ........ 32-33
**Arifə Adıgözəlova**
**BÖYÜK BRİTANİYA HƏRBİ KOMANDANLIĞININ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DÖVLƏT HƏYATINA MÜDAXİLƏSİ** ........ 34
**Arzu Xəlilzadə**
**MÜASİR DÖVRDƏ AZƏRBAYCAN VƏ TÜRKİYƏ ƏMƏKDAŞLIĞININ DƏRİNLƏŞMƏSİNDƏ ENERJİ SİYASƏTİNİN ROLU** ........ 35-36
**Kəmalə Məmmədova**
**II DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCAN LEGİONUNUN MƏTBU ORQANLARINDAN OLAN "AZƏRBAYCAN" QƏZETİ TARİXİ MƏNBƏ KİMİ** ........ 36-37
**Elşən Nəsib oğlu Aslanov**
**QARABAĞIN XIX ƏSR TARİXİ COĞRAFİYASININ ÖYRƏNİLMƏSİNDƏ MƏNBƏLƏRİN ROLU** ........ 37-38
**Ramin Əlizadə**
**URARTU KİTABƏSİNDƏ ALBAN ÖLKƏSİ ($^{KUR}$qu-'a-al-ba-né) HAQQINDA İLK MƏLUMAT (E.Ə. VIII ƏSRİN ORTALARI)** ........ 39-40

**Rüxsarə Bəxtiyar qızı Quliyeva**
**AZƏRBAYCANIN ETNİK MƏNZƏRƏSİ ANTİK YUNAN-ROMA TARİXİ-COĞRAFİ ƏDƏBİYYATINDA** ........ 40-41
**Samir İsmayılov**
**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN PARLAMENTİNDƏ BAKI DÖVLƏT UNİVERSİTETİ İLƏ BAĞLI MÜZAKIRƏLƏR** ........ 41
**Nasir Vaqif oğlu Quluzadə**
**QLOBALLAŞMA DÖVRÜNDƏ MƏDƏNİ İRSİN MÜHAFİZƏSİNDƏ, TƏDQİQİNDƏ VƏ TƏBLİĞİNDƏ MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN ROLU** ........ 42
**Gülnarə Abidi**
**SSRİ ELMLƏR AKADEMİYASININ ZAQAFQAZİYA FİLİALININ AZƏRBAYCAN ŞÖBƏSİNİN NƏZDİNDƏKİ İNSTİTUTLAR VƏ ONLARIN FƏALİYYƏTİ** ........ 43
**Əsədzadə Ləman Eynulla qızı**
**ALBAN ƏLİFBASININ NÜSXƏLƏRİ** ........ 43-44
**Ağayeva Bahar Şahin qızı**
**ÇALDIRAN DÖYÜŞÜ İNGİLİSDİLLİ TARİXŞÜNASLIQDA** ........ 45
**Arzu Abbasova**
**M. HAYDEGGER FƏLSƏFƏSİNİN MÜASİR DÖVÜRDƏ AKTUALLIĞI** ........ 45-47
**Orucova Aynur**
**İTALYANDİLLİ SƏYAHƏTNAMƏLƏRİN MƏNBƏŞÜNASLIQ ƏHƏMİYYƏTİ (XV-XVI ƏSRLƏR)** ........ 47-48
**Balamirzə Məmmədli**
**SOVET-ALMAN MÜHARİBƏSİ ƏRƏFƏSİNDƏ SSRİ-DƏ HƏRBİ-İQTİSADİ POTENSİALIN VƏ SƏFƏRBƏRLİK QABİLİYYƏTİNİN ARTIRILMASI** ........ 48-49
**Məmmədov Anar Amil oğlu**
**XIX ƏSR MƏNBƏLƏRİ ŞƏKİ BÖLGƏSİNDƏ KAPİTALİST SƏNAYESİNİN FORMALAŞMASI HAQQINDA** ........ 49
**Nəsibə Mirzəyeva**
**ƏBÜL-MƏHASİN İBN TAĞRIBERDİNİN "ƏN-NÜCUM ƏZ-ZAHİRƏ" ƏSƏRİNDƏ ƏMİR TEYMURUN MƏMLÜKLƏRLƏ MÜNASİBƏTLƏRİNİN DƏYƏRLƏNDİRİLMƏSİ** ........ 50
**Nəsrin Famil qızı Abdullayeva**
**QAFQAZDA AZƏRBAYCANIN APARICI DÖVLƏTƏ ÇEVRILMƏSINDƏ HEYDƏR ƏLIYEV FAKTORU** ........ 50-51
**Orucov Samir**
**VIII QLOBAL BAKI FORUMUNUN ƏHƏMİYYƏTİ** ........ 52-53
**Səkinəxanım Famil qızı Məmmədova**
**TARİXİ YADDAŞ RƏMZİMİZ OLAN MADDİ-MƏDƏNİYYƏT ABİDƏLƏRİMİZƏ QARŞI ERMƏNİ VANDALİZMİNİ DÜNYA İCTİMAİYYƏTİNƏ TANIDAQ** ........ 53-54
**Allahverdiyeva Sürəyya Əli qızı**
**MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN MİLLİ DÖVLƏT QURUCULUĞUNA DAIR ƏSƏRLƏRİ MƏNBƏ KİMİ** ........ 55
**Kərimova Nərgiz Tofik qızı**
**AZƏRBAYCANDA 20-30-CU İLLƏR REPRESSİYA TARİXİNİN ÖYRƏNİLMƏSİNƏ DAİR (tarixşünaslıq aspektində)** ........ 56
**Sevinc İbadova**
**MÜASİR DÖVRDƏ ABŞ-CƏNUBİ KOREYA RESPUBLİKASI MÜNASİBƏTLƏRİNİN ƏSASLARI** ........ 57
**Abbasova Sevinc**
**ŞUŞA BƏYANNAMƏSİNİN MAHİYYƏTİ** ........ 57-58
**Baxşəliyev Samir Fazil oğlu**
**NƏRİMAN NƏRİMANOVUN AZƏRBAYCAN HÖKUMƏTİNƏ RƏHBƏRLİK DÖVRÜNDƏKİ FƏALİYYƏTİ AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA** ........ 58-59

Eyvazova Ləman
MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN ƏSƏRLƏRİ BAKI ZƏFƏRİNİN TARİXİ-SİYASİ ƏHƏMİYYƏTİNİN ÖYRƏNİLMƏSİNDƏ MƏNBƏ KİMİ ........ 59-60
Könül Rəsulova
ABBASQULU AĞA BAKIXANOVUN " GÜLÜSTANİ-İRƏM" ƏSƏRİNİN ÖNƏMİ.. 60-61
Könül Hüseynova
QAZANILMIŞ ZƏFƏR-XALQIN YADDAŞININ,RUHUNUN BƏRPASIDIR ........ 61-62
Fidan Quliyeva
ŞANLI TARİXİMİZİN CUMHURİYYƏTİ ........ 62
Əzizağa Bəylərov
AZƏRBAYCANDA DİNİ TOLERANTLIQ ........ 63
Baxşəliyev Eynulla Fazil oğlu
44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏN SONRA SÜLH SAZİŞİNİN BAĞLANMASI ŞƏRTLƏRİ HAQQINDA ........ 63-64
Elnur Əbilov
MÜSTƏQİL AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ HEYDƏR ƏLİYEVİN ƏSƏRLƏRİNDƏ ........ 64-66
Əfqanə Həbibzadə
ÇİNGİZ MUSTAFAYEVİN HƏYATI VƏ ÇƏKDİYİ KADRLARIN AZƏRBAYCAN XALQI ÜÇÜN ÖNƏMİ ........ 66-67
Ədiqə Mustafayeva
QANI İLƏ TARİX YAZAN QƏHRƏMANLARIMIZ ........ 67-68
Məmmədova Mətanət, Sadıqlı Nərmin
CƏNUBİ AFRİKA, BLOEMFONTEİNDƏ VƏ AZƏRBAYCANDA KURİKULUM (MÜQAYİSƏLİ TƏHLİL) ........ 68-69
Natiq Aşurov
ERMƏNİ FAŞİZMİNİN TERRORÇULUQ FƏALİYYƏTİ (1988-1994) ........ 69-70
Sevinc Qasımova
MAARIFÇI-DEMOKRATIK HƏRƏKATIN AZƏRBAYCAN TARIXŞÜNASLIĞI ........ 70-71